Xalqın qəzeti!

# Xalq qəzeti

№ 151 (30845) 24 iyul 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycanın “yaşıl” enerji xəritəsinin miqyası genişlənir



**Prezident İlham Əliyev Xankəndidə keçirilən “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə bildirib ki, Azərbaycanın regional gündəliyində “yaşıl” enerji layihələrinin icrasına xüsusi önəm verilir. Çünki təkcə respublikamızda deyil, Mərkəzi Asiya ölkələrində də Günəş və külək elektrik enerjisi stansiyaları yaradılması diqqətdə saxlanılır.**

Ötən ilin noyabr ayında Bakıda COP29 çərçivəsində Özbəkistan, Qazaxıstan və Azərbaycan prezidentləri arasında “yaşıl” enerji ilə bağlı Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi imzalanması da bunun bariz ifadəsidir. Bu təşəbbüs gerçəkləşdirildikdən sonra Mərkəzi Asiyada istehsal olunan “yaşıl” enerjinin Azərbaycanın infrastrukturuna birləşdirilməsi planlaşdırılır. Buna qədər isə Qara dənizin dibi ilə “yaşıl” enerji kabelinin çəkilməsi barədə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında da imzalanan sənəd də diqqətdə saxlanılır.

Göründüyü kimi, respublikamızda “yaşıl” enerji layihələrinin icrası təkcə Cənubi Qafqazı deyil, həm də daha geniş coğrafiyanı əhatə edir. Ancaq burada mərkəzi nöqtə məhz Azərbaycandır. Ona görə də Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanan sözügedən sənədlər respublikamızın bir növ qovşaq olacağı proqnozuna əsas verir. Bir sözlə, Azərbaycanın nəqliyyat, istehsal və paylama nöqtəsi olacağı gözlənilir.

*(ardı 7-ci səhifədə)*

## Bakı təmkinli praqmatizmə köklənib





səhifə ⇨ 3

## **Ağdam:** 32 il əvvəl və bu gün

**...Birinci Qarabağ müharibəsinin ağrılı səhifələrindən biri 1993-cü ilin yayında Ağdamın işğala məruz qalmasıdır. Bu rayon uğrunda döyüşlər həmin il iyunun 12-də başlayaraq, intensiv xarakter almış, özünümüdafiə qüvvələrimiz təpədən-dırnağa qədər silahlanmış düşmənin qarşısında 41 gün qəhrəmancasına duruş gətirə bilmişdir. İyulun 23-də isə artıq qüvvələri tükənmiş və heç yerdən, heç kimdən kömək görməyən Ağdam şəhəri mənfur erməni silahlıları tərəfindən işğal edilmişdir. Şəhərin böyük bir hissəsi dağıdılmış, minlərlə insan didərgin düşmüş, şəhid olmuş və yaralanmışdır.**



İşğalın ürəkağrıdan statistikasına nəzər salaq: o zaman qarşıdurmada ən böyük ağırlıq məhz Ağdamın üzərinə düşmüşdü . Başqa sözlə, Dağlıq Qarabağ hadisələri başlayandan Ağdam burada cərəyan edən hadisələrin episentri idi. Onun müdafiəsi uğrunda 5 ildən artıq qanlı döyüşlər getdi. Ermənilər rayon ərazisinin 846,7 kvadrat kilometrini, yəni 77,4 faizini işğal etməyə nail oldular. Rayonun acı qismətinə 5897 şəhid, 3531 nəfər əlil, 1871 nəfər yetim uşaq düşdü. Minlərlə insan fiziki şikəstlik qazandı, 126 min nəfərdən artıq ağdamlı öz doğma ev-eşiyindən didərgin düşdü. İşğal nəticəsində Ağdam rayonunun 38 kolxozu, 12 sənaye obyekti, 74 məktəbi, 271 mədəniyyət evi, bütün dünyada yeganə olan Çörək muzeyi, 67 idarə və 99 klubu düşmən əlinə keçdi. Mədəni abidələr dağıdıldı, İmarət deyilən yerdə XVIII əsrə aid abidələr, Xan qızı Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara vəhşicəsinə yerlə-yeksan edildi...

*(ardı 8-ci səhifədə)*

## Reytinq və reallıq: Paşinyana inam azalır, alternativ isə görünmür

*Rəy sorğusu erməni cəmiyyətindəki ovqatı ortaya qoydu*



**ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunun (IRI) 2025-ci il iyunun 16-dan 25-dək Ermənistanda keçirdiyi ictimai rəy sorğusu maraqlı nəticələr üzə çıxarıb. Sorğunun nəticələrinə əsasən, baş nazir Nikol Paşinyanın reytinqində müəyyən eniş müşahidə edildiyi məlum olub. Hazırda Paşinyanın siyasi reytinqi 13 faizdir. Bu, əvvəlki sorğu ilə müqayisədə onun reytinqinin 3 pillə aşağı düşməsi deməkdir. 2024-cü ilin sentyabrında respondentlərin 16 faizi ona etibar etmişdi.**

*ardı 4-cü səhifədə*

## Türkiyə hipersəs raket ölkəsi oldu



səhifə ⇨ 11

## Fransanın “Urartunu erməniləşdirmək” layihəsi



səhifə ⇨ 11

## Qarabağ Universitetinin strateji hədəfləri

*Bu ali məktəb Xankəndidə milli-mədəni mühitin mərkəzinə çevrilir*




**Təxminən bir il əvvəl ilk tədris ilinə hazırlaşan Qarabağ Universitetinin rektoru Şahin Bayramov yeni yaradılmış ali təhsil ocağının qarşıya qoyduğu hədəflər haqqında ilk müsahibəsini “Xalq qəzeti”nə vermişdi. Həmin vaxt növbəti söhbətimizi Xankəndidə etmək arzusu ilə sağollaşmışdıq. Artıq qısa müddətdə gözəl Qarabağımızın dirçəlişinin simvollarından birinə çevrilmiş universitet 2024-2025-ci tədris ilinə yekun vurub. Bəs ötən il ali təhsil ocağı üçün hansı uğurlarla yadda qaldı? Qarşıda hansı inkişaf planları var? Universitet tələblərini hansı yeniliklərlə sevindirəcək? Arzuladığımız kimi, bu dəfə Şahin müəllimlə Xankəndi şəhərində görüşüb bu və digər suallarımıza cavab almaq üçün həmsöhbət olduq:**

*(ardı 9-cu səhifədə)*

## Qapılar dəmir yollara açılır...

*543 nəfərin hər gün ölümlə üz-üzə gəldiyi qeyri-qanuni ərazi*



**Nərimanov rayonu ərazisində Nərimanov – Böyükşor və Bakı sərnişin dəmiryolu xətlərinin mühafizə zolağında mövcud olan tikililərlə bağlı statistikaya nəzər salanda gözlərimiz önündə ciddi narahatlıq doğuran mənzərə canlanır. Belə ki, adı çəkilən ərazidə hazırda 161 qeyri-qanuni tikilən ev var. Ümumilikdə isə burada 156 ailə, 543 nəfər yaşayır. Araşdırmaya əsasən, ərazidə Azərbaycanın 40 şəhər və rayonunu təmsil edən şəxslərdən yalnız 12-si keçmiş məcburi köçkün ailəsidir, 54 ailənin digər ünvanlarda da evi var. 11 nəfərin isə burada qeyri-qanuni tikdiyi ev kirayədədir.**

*(ardı 5-ci səhifədə)*

# Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

**Hörmətli cənab Prezident!**

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Misir arasında əlaqələrin inkişaf dinamikası məmnunluq doğurur. Həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlər və müntəzəm təmaslar əməkdaşlığımızın yeni məzmunla zənginləşməsində əhəmiyyətli rol oynayır.

Bu gün müxtəlif sahələrdə münasibətlərimizin dərinləşdirilməsi üçün böyük potensial mövcuddur. İnanıram ki, xalqlarımızın rifahı naminə bu imkanlardan yararlanaraq ənənəvi dostluq əlaqələrimizin, səmərəli işbirliyimizin daha da genişlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Misir xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 iyul 2025-ci il**

# “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Seneqal Respublikasının Dövlət İdarəçiliyi və Dövlət Xidmətlərində İslahatlar Nazirliyi arasında Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il iyunun 3-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Seneqal Respublikasının Dövlət İdarəçiliyi və Dövlət Xidmətlərində İslahatlar Nazirliyi arasında Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Seneqal Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyul 2025-ci il**

# Azərbaycan–Türkiyə hərbi əlaqələrinin perspektivləri



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyətinin Türkiyəyə səfəri davam edir.**

Səfər çərçivəsində qardaş ölkənin Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgün ilə görüş keçirilib. “IDEF 2025” 17-ci Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində keçirilən görüşdə dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının daha da genişləndirilməsinin ölkə başçılarının diqqət mərkəzində olduğu xüsusi vurğulanıb.

Görüş zamanı, həmçinin ölkələrimiz arasında hərbi əlaqələrin inkişaf perspektivləri və maraq doğuran digər məsələlər müzakirə edilib.

***XQ***

# Azərbaycan–Kamboca siyasi məsləhətləşməsi

**Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Kamboca Krallığında səfərdə olub.**

Səfər zamanı Azərbaycan–Kamboca Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin 4-cü iclası keçirilib. İclas Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və Kamboca Krallığının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi (nazir müavini) Khuon Phon Rattanakın həmsədrliyi ilə baş tutub.

İclas zamanı iki ölkə arasında münasibətlərin hazırkı durumu, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və inkişafı perspektivləri ətrafında müzakirələr aparılıb.

Kambocanın turizm naziri Huot Hak ilə keçirilmiş görüşdə hər iki ölkənin geniş turizm potensialına malik olduğu, turizm sahəsində qarşılıqlı əlaqələrin



inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Sonda iki ölkə arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

***XQ***

# “Yüksəliş” müsabiqəsi başa çatıb



**“Yüksəliş” müsabiqəsinin beşinci mövsümünün qalibləri müəyyənləşib.**

Müsabiqənin işçi qrupundan bildirilib ki, final mərhələsində iştirak etmiş 124 namizəddən ən yüksək bal toplayan 20 nəfər qalib adını qazanıb. Ən gənc qalibin 24, ən yaşlı qalibin isə 39 yaşı var. Qalib gələn iştirakçıların 42.86 faizi dövlət, 57.14 faizi özəl sektorda çalışır.

Müsabiqə 5 mərhələdən — qeydiyyat, onlayn, əyani, yarımfinal və finaldan ibarətdir. Yarımfinal mərhələsi çərçivəsində namizədlər 9 səriştə üzrə (strateji düşüncə, effektiv liderlik, qərarvermə, nəticəyönümlülük, işin effektivliyinin idarə edilməsi, adaptivlik, innovativ düşüncə, komanda işi və əməkdaşlıq, etika və dürüstlük) ekspertlər tərəfindən qiymətləndiriliblər. Final mərhələsində isə iştirakçılar ekspertlər tərəfindən “İdarəçi rollar modeli” üzrə qiymətləndiriliblər.

Yarımfinal və final mərhələlərinə hazırlıq çərçivəsində qiymətləndirici ekspertlər üçün təlim proqramı təşkil olunub. Təlimlərə 153 ekspert cəlb edilib. Onlar real imtahan mühitinə yaxınlaşdırılmış simulyasiya olunmuş situasiyalar üzərindən iştirakçıların bacarıqlarını qiymətləndirməklə yanaşı, qiymətləndirmə meyarları, qiymətləndirmə mərkəzlərinin fəaliyyəti və ekspertlərin funksiyaları barədə də ətraflı məlumatlandırılıblar.

Xatırladaq ki, qiymətləndirmə prosesi beynəlxalq təcrübəyə əsaslanan və obyektivliyi ilə seçilən “Qiymətləndirmə konfransı (Assessment Conference)” metodu ilə həyata keçirilir. Bu metod hər bir iştirakçının performansına çoxşaxəli yanaşmanı təmin edir və yekun qərarların kollegial əsasda verilməsinə imkan yaradır, eyni zamanda, bu gün üçün dünyada ən etibarlı qiymətləndirmə metodu hesab olunur.

“Yüksəliş” müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən, intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub. Müsabiqənin qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı ilə təmin olunur və 20 min manatlıq mükafat qazanırlar.

V “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı dövlətimizin başçısı tərəfindən 2024-cü il dekabrın 18-də müvafiq sərəncam imzalanıb.

Fevralın 28-də qeydiyyatına start verilmiş beşinci “Yüksəliş” müsabiqəsinə 16 min 553 iştirakçı müraciət edib.

***XQ***

# Şəmkir rayonunun Dəllər Cəyir–Dəllər Daşbulaq və Qədimqala–Miskinli–Keçili–Xuluf avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İyirmi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Dəllər Cəyir–Dəllər Daşbulaq və Qədimqala–Miskinli–Keçili–Xuluf avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyul 2025-ci il**

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin avqust ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | **1** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | **4** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | **5** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | **6, 20** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | **7** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | **8, 15, 22** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | **11** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | **2** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | **3** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **4** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | **15** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | **8** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **8** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | **9** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | **2** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | **2** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | **25** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | **25** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | **7** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | **9** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | **9** |
| * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | **6** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Bakı təmkinli praqmatizmə köklənib

## *Azərbaycanın Rusiya ilə xoşməramlı davranışı onun ortaq keçmişə sadiqliyinin göstəricisidir*

**2025-ci ilin ortalarından etibarən Azərbaycanın informasiya məkanına nəzərəçarpacaq şəkildə artan dezinformasiya və təbliğat hücumları qeydə alınır. Xüsusilə, rusdilli "Telegram" kanallarında və Kremlə yaxın bloqçuların çıxışlarında Azərbaycan əleyhinə koordinasiyalı, ardıcıl və tematik şəkildə yönəlmiş narrativlər müşahidə olunur. Kanallar Azərbaycanı qəsdən Ukraynanı dəstəkləməkdə, Qərbə "xidmət etməkdə", "türkləşmə planı" aparmaqda və hətta Rusiyaya qarşı "etnik təxribatlar"da ittiham edirlər.**







Əslində, bu cür ritorika Rusiya tərəfindən əvvəllər də müxtəlif postsovet ölkələrinə – Gürcüstan, Moldova, xüsusilə Ukraynaya qarşı yönəldilirdi. Lakin Azərbaycanın hədəfə alınması daha çox Bakının müstəqil və balanslaşdırılmış xarici siyasətinə cavab reaksiyası kimi görünür. Rusiya üçün yeni reallıq mövcuddur: o, əvvəllər tam nəzarət etdiyi Cənubi Qafqazda artıq öz təsir imkanlarının sürətlə zəiflədiyini müşahidə edir. Beləliklə, hibrid informasiya hücumu yalnız ictimai fikrə deyil, həm də siyasi iradəyə təzyiq alətinə çevrilib.

Ən təhlükəli cəhət isə bu proseslərin süni şəkildə "xalqın səsi" adı altında legitimləşdirilməsidir. Sosial mediada yaradılmış bot şəbəkələri, saxta hesablar və koordinə olunmuş paylaşımlar ictimai rəyi manipulyasiya etmək və hökumətin qərarlarına təzyiq göstərmək məqsədi daşıyır. Reallıqda isə bu "emosional qəzəb"in arxasında Rusiya xüsusi xidmət orqanlarına yaxın strukturlar və təbliğat mərkəzləri dayanır.

Hazırkı informasiya təzyiqlərinin arxasında təkcə təbliğat niyyəti deyil, son bir ildə baş verən konkret, dramatik hadisələrin yaratdığı siyasi atmosfer dayanır. Hadisələrin başlanğıc nöqtəsi isə 2024-cü ilin dekabrında baş verən AZAL-a məxsus sərnişin təyyarəsinin faciəli qəzasıdır. Hadisə, əslində, Azərbaycan cəmiyyətində daha geniş şübhə və narahatlıq dalğası doğurdu: ölkə daxilində Rusiyanın təsir imkanlarının həddi, təhlükəsizlik sisteminə potensial sızmalar və informasiya müstəvisində asılılıq məsələləri yenidən gündəmə gəldi.

***

Yekaterinburqda polis tərəfindən saxlanılan azərbaycanlılara qarşı zorakılıq nəticəsində baş verən iki ölüm hadisəsi bu prosesin dramatik zirvələrindən biridir. Hadisə diplomatik və hüquqi müstəvidə böyük əhəmiyyət daşıyır. Azərbaycan və Rusiya Baş Prokurorluqları arasında yaradılmış birgə istintaq çərçivəsində hadisənin obyektiv və şəffaf araşdırılması üçün hüquqi əməkdaşlıq başlanıb. Baş prokuror Kamran Əliyevin verdiyi məlumata əsasən, Azərbaycan tərəfi Yekaterinburqda azərbaycanlılara qarşı baş verən hadisələrlə bağlı artıq cinayət işi başlayıb. Rusiya İstintaq Komitəsi və Baş Prokurorluğu ilə mütəmadi əlaqələr saxlanılır.

2025-ci ilin fevralında isə bu gərginlik daha bir sahəyə – informasiya təhlükəsizliyinə sirayət etdi. Azərbaycanın aparıcı onlayn media platformalarına qarşı genişmiqyaslı kiberhücumlar baş verdi. Bu hücumların texniki izləri və İP-lərin mənbəyi üzrə araşdırmalar Rusiyadakı bir neçə haker qruplaşmasına kimi aparıb çıxardı. Azərbaycan Kiber Təhlükəsizlik Agentliyi bu hücumların arxasında dövlət dəstəyi ilə həyata keçirilən sistemli təxribat aktının dayandığını bəyan etdi.

Beləliklə, 2024-cü ilin sonundan başlayan hadisələr zənciri – təyyarə qəzası, onun ardınca kiberhücumlar – Azərbaycan ictimai rəyində və dövlət strukturlarında Rusiyaya olan inamı sarsıtdı. Eyni zamanda, bu gərginlik fonunda baş verənlər Azərbaycanın beynəlxalq tərəfdaşları–xüsusilə Qərb ölkələri və Türkiyə ilə təhlükəsizlik sahəsində əməkdaşlığını gücləndirməyə təkan verdi.

2023-cü ilin sentyabrında Qarabağda qalmış erməni silahlı birləşmələrinə qarşı keçirilən lokal antiterror əməliyyatı isə post-müharibə mərhələsinin strateji yekununa çevrildi. Azərbaycan dövləti bu əməliyyatla həm öz suverenliyini tam bərpa etdi, həm də regionda Rusiya sülhməramlılarının ziddiyyətli rolunu gündəmə gətirdi. Moskvanın bölgədəki "sabitləşdirici aktor" obrazı tamamilə sarsıldı. Yeni geosiyasi reallıq, təbii ki, Kremlin narahatlığını artırdı. Azərbaycanın Türkiyə ilə strateji müttəfiqlik münasibətləri, Türk Dövlətləri Təşkilatı çərçivəsində hərbi və enerji əməkdaşlığının dərinləşməsi və xüsusilə NATO ilə IPAP (Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı) çərçivəsində intensiv əməkdaşlıq Kremldə Azərbaycanın "nəzarətdən çıxması" kimi qəbul edilir. Bundan əlavə, Azərbaycanın Avropa İttifaqı ilə enerji əməkdaşlığı da Rusiyanın təsir dairəsinin tədricən daralmasına səbəb olur. Bakı Avropanın əsas təbii qaz təchizatçılarından birinə çevrilib. Rusiya bunu ona yönələn həm iqtisadi, həm də geosiyasi zərbə sayır. Xüsusilə, Ukrayna müharibəsi fonunda Avropanın enerji diversifikasiyası siyasətində Azərbaycanın rolu Kreml tərəfindən "geostrateji xəyanət" kimi qiymətləndirilir.

Narahatlığın açıq ifadəsi Prezident İlham Əliyevin 2025-ci ilin yayında keçirilən III Şuşa Qlobal Media Forumunda səsləndirdiyi bəyanatdan sonra müşahidə olundu. Prezidentin Ukraynaya ünvanladığı "heç vaxt işğalla razılaşmayın" çağırışı Rusiyanın propaqanda maşınını dərhal hərəkətə keçirdi. Bəyanat rəmzi xarakter daşımaqla yanaşı, beynəlxalq hüququn və suverenliyin müdafiəsinin birmənalı dəstəyi idi. Lakin Kreml bunu "Ukrayna mövqeyinə açıq dəstək" kimi qəbul etdi və Azərbaycana qarşı yeni informasiya hücumlarının başladılmasına rəvac verdi.

Nəticə etibarilə, Azərbaycan beynəlxalq hüquqa, çoxtərəfli əməkdaşlığa və balanslı siyasətə əsaslanan yeni geosiyasi identitetini formalaşdırıb. Bütün bu amillər Rusiya üçün əlverişli deyil, çünki onun regiona münasibətdə illərlə yaratdığı "vassallıq modelinə" tamamilə ziddir. Məhz buna görə Azərbaycan artıq təkcə Cənubi Qafqazın siyasi xəritəsində yox, Kreml strateqlərinin "təhlükə xəritəsində" də yer alır.

***

Rusiya uzun müddətdir ki, keçmiş SSRİ məkanında öz təsir dairəsini ideoloji və mədəni manipulyasiya üsulları ilə qorumağa çalışır. "İdeoloji qardaşlıq" ritorikası, hər şeydən əvvəl, ölkələrin siyasi elitalarına yönəlib. Kremlin propaqandası belə bir tezisi təbliğ edir: guya Rusiyanın təsir dairəsindən çıxmaq tarixi yaddaşa, ortaq keçmişə və "əsl mədəni kodlara" xəyanət etmək deməkdir. Azərbaycan isə bu mədəni-ideoloji təsir cəhdlərinə qarşı ən sərt müqavimət göstərən ölkələrdən biridir. İlk növbədə, Azərbaycan öz milli-mədəni dəyərlər sistemini – türk kimliyinə, İslam sivilizasiyasına və çoxmədəniyyətli tarixə əsaslanan inteqrativ modeli prioritet kimi saxlayır. Kreml isə bu müqaviməti mədəniyyət və dəyərlər üzərindən bir növ "qarşı çıxış" kimi qavrayır. Onun gözündə Azərbaycanın türk-müsəlman kimliyini ön plana çəkməsi və bu dəyərlər əsasında modern dövlət modelini formalaşdırması "Moskvaya xəyanət" kimi təqdim olunur. Amma, əslində, bu, suveren düşüncə tərzinin və postimperial əsarətdən çıxışın təbii nəticəsidir.

Son aylar Azərbaycan–Ermənistan münasibətlərində müşahidə olunan yumşalma və qarşılıqlı siyasi iradənin artması, Cənubi Qafqazda yeni sülh arxitekturasının formalaşması üçün real ümidlər yaratdıb. Sərhədin delimitasiyası prosesində əldə olunan razılaşmalar, diplomatik kanalların aktivləşməsi, liderlərin mülayim və praqmatik ritorikaya keçməsi bu ümidləri daha da gücləndirir. Məhz buna görə Azərbaycan–Ermənistan münasibətlərindəki müsbət dinamika fonunda baş verən təxribatların üst-üstə düşməs təsadüfi deyil. Rusiya öz ənənəvi metodlarına uyğun şəkildə, informasiya sızmaları, provokativ "istintaq detalları" və regionda sabitliyi poza biləcək siyasi mesajlar vasitəsilə bu prosesə əngəl törətməyə çalışır.

Xüsusilə, Laçın və Zəngəzur dəhlizləri ətrafındakı narahatlıqlar, sərhəd insidentləri və Moskva mediasında yayımlanan "gizli diplomatiya" materialları Bakı ilə İrəvan arasında etimad mühitini zədələməyə hesablanmış alətlərdir. Belə demək olar ki, bu, bir növ etimad pozuculuğu texnikasıdır – dialoqu zəhərləmək, tərəfləri yenidən "vasitəçi"yə möhtac hala gətirmək.

Azərbaycanın bu təxribatlara qarşı ortaya qoyduğu sakit, prinsipial və strateji təmkin, əslində, regionun sabit gələcəyinə sadiqliyinin göstəricisidir. Moskva isə öz nəzarətində olan KTMT, MDB və digər platformalar vasitəsilə sabitliyin təminatçısı rolunu oynamaq əvəzinə, regional güc balansına yönəlmiş zərif diplomatik təşəbbüslərə qarşı sabotaj yürüdür.

Ən vacibi isə budur: Azərbaycan və Ermənistan xalqı sülh istəyir. Rusiya mediasının və siyasi dairələrinin bu istəyi kölgələmək cəhdləri artıq cəmiyyətlərdə o qədər də təsirli olmur. Çünki müharibədən bezmiş iki xalq gələcəyə baxmaq, iqtisadi rifah və regional əməkdaşlıq şəraitində yaşamaq istəyir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# "Dağlıq Qarabağ" bölücü siyasətin uydurması idi

## Azərbaycan bu "ləkə"ni kəsib atdı, "miatsumçular" isə beyinlərindən silməlidirlər



**İndi nə Dağlıq Qarabağ adlı bir ərazi vahidi var, nə də bu adda münaqişə qalıb. Ermənistan dörd il səkkiz ay bundan əvvəl kapitulyasiya aktını imzalayandan, bir il on ay əvvəl isə birgünlük lokal antiterror əməliyyatı ilə bölgədə separatizmin kökü kəsiləndən sonra postmünaqişə dövrü başlayıb. Bu dövrün reallığını Azərbaycan yaratdığı kimi, Ermənistanla "yol xəritəsi"nin arxitektoru da özüdür.**

Azərbaycan son beş ildə azı iki əsr hayların beyinlərini tiryək kimi dumanlandırmış "Böyük Ermənistan" xülyasının sabun köpüyündən başqa bir şey olmadığını sübuta yetirdi. İntəhası, o da var ki, fərdin adət halını almış pis vərdişlərdən can qurtarması nə qədər çətindirsə, erməni adlı toplum üçün də utopiyaya, nağıllara aludəçilikdən əl çəkmək bir o qədər ağrılı prosesdir. Amma haylar batmanla gələn xəstəlikdən misqalla olsa da, müalicə olunmağa məhkumdurlar.

***

III Şuşa Qlobal Media Forumu daha çox Azərbaycan Prezidenti İlham Əliyevin konkret instansiyalara ünvanladığı aydın mesajları ilə yadda qaldı. Dövlətimizin başçısı yerli və xarici media mənsublarının qarşısında çıxışında, eləcə də onların suallarını cavablandırarkən həm bölgə, həm də beynəlxalq gündəmlə bağlı aktual məsələlərə münasibət bildirdi. Onun "Dağlıq Qarabağ yalnız ermənilərin təxəyyülündə ola bilər" tezisi beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanan ölkə liderinin birmənalı mövqeyi kimi qəbul olundu. Forum iştirakçıları Azərbaycan liderinin bu mövqeyinin yalnız diplomatik yöndən deyil, həm də beynəlxalq hüququn təməl arqumentləri ilə tam əsaslandırmasının şahidi oldular.

Dövlət başçımızın bundan əvvəl də dəfələrlə "Qarabağ münaqişəsi artıq həll olunub, tarixdə qalıb" bəyanatları dünyanın nüfuzlu beynəlxalq təşkilatları, aparıcı dövlətləri tərəfindən qəbul edilmiş aksioma dönüb. Çıxışında sülh prosesinin təşəbbüskarının məhz Azərbaycan olduğuna diqqəti çəkən İlham Əliyev İkinci Qarabağ müharibəsi bitdikdən sonra Minsk qrupu üçlüyünün hələ də çalışdığını vurğuladı: "Mən gördüm ki, onlar nə edəcəklərini bilmirlər. Mənə sual verəndə, onlara bildirdim ki, biz Ermənistanla sülh sazişi üzərində işləməliyik".

Ardınca dövlətimizin başçısı diqqətə çatdırdı ki, prosesin başlamasını Bakı təklif edib: "Sülh sazişinin mətnini hazırladıq, Ermənistana göndərdik. Onların müxtəlif şərhləri var idi. İki il ərzində heç bir irəliləyiş olmadı. Bunun başlıca səbəbi o idi ki, Ermənistan tərəfi sülh sazişinin mətninə "Dağlıq Qarabağ" məsələsini daxil etmək istəyirdi. Biz onlara dedik ki, "Dağlıq Qarabağ" sizin təxəyyülünüzdədir, reallıqda mövcud deyil. Bu, Azərbaycanın bir parçasıdır və sülh müqaviləsinin mətninə daxili siyasətimizə aid olan məsələ əlavə edilə bilməz". Prezident İlham Əliyev onu da vurğuladı ki, 2023-cü ilin sentyabrında Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra rəsmi İrəvan bu məsələdə israr etmədi. Çünki bu mövzu artıq qapanmışdı.

Real danışıqların 2024-cü ilin yanvarında başlandığını forum iştirakçılarının nəzərinə çatdıran dövlət başçımız Bakının hazırladığı sülh sazişinin mətni üzərində iş getdiyini və sonda razılaşdırıldığını vurğuladı: "Ermənistan bizim irəli sürdüyümüz iki bəndi mətnə əlavə etmək istəmirdi. Amma ABŞ Prezident Donald Tramp seçkidə qalib gələn kimi onlar həmin bəndləri də sazişə əlavə etdilər. Bunlar Ermənistan konstitusiyasında dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılmasıdır. Bu iki məsələ həll edilən kimi sülh müqaviləsi imzalana bilər".

Təəssüf ki, münaqişəni yenidən alovlandırmağa, erməniləri revanşizmə sövq etməyə çalışan qüvvələr hələ də öz işlərini görürlər. Bu revanşist düşərgənin önündə xaricdəki erməni lobbisinin və ermənipərəst qüvvələrin gəldiyi hamıya məlumdur.

Amma son vaxtlar İrəvanın bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizliyin yolunun qonşuları ilə əməkdaşlıqdan keçdiyini anlamağa başladığını deyə bilərik. Artıq Ermənistanın Zəngəzur dəhlizinə mane olmaq üçün nə bəhanəsi qalıb, nə də imkanı var. Azərbaycan bütün kommunikasiyaların qarşılıqlı şəkildə bərpası üçün də konkret işlər görür. Bunun ən böyük xeyrini isə sülhə gəlməyə hazırlaşan Ermənistan görəcək. Deyəsən, Paşinyan komandası bunu da başa düşüb...

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Kəramət QƏNBƏROV,**
**beynəlxalq hüquq üzrə ekspert**



– Azərbaycanın Qarabağ bölgəsində yaradılmış qondarma "DQR" beynəlxalq hüquqa zidd elan olunmuş və heç bir dövlət tərəfindən tanınmamışdı. Beynəlxalq hüquqda dövlətlərin daxili işlərinə qarışmamaq və sərhədlərin toxunulmazlığı prinsipləri, xüsusilə BMT Baş Assambleyasının 24 oktyabr 1970-ci il tarixli "Dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlıq prinsipləri haqqında Bəyannamə" ilə də təsbit edilib. Bu sənəddə açıq şəkildə yazılıb ki, xalqların öz müqəddəratını təyin etməsi prinsipi dövlətlərin ərazi bütövlüyünün və siyasi birliyinin pozulmasına səbəb ola bilməz. Ermənistanın işğalı nəticəsində Azərbaycan ərazilərində yaranmış vəziyyətlə bağlı 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən ardıcıl olaraq qəbul edilmiş 4 qətnamədə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı təsdiqləndi, işğalçı qüvvələrin ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edildi. Bu sənədlərdə Azərbaycanın Qarabağ bölgəsində mövcud olan qondarma rejim heç bir formada legitim qurum kimi tanınmadı.

18 oktyabr 1991-ci il tarixli "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" (№783) ilə Azərbaycanın ərazisi onun 1991-ci ildə SSRİ-dən ayrılarkən mövcud sərhədləri çərçivəsində təsbit olunub. 2021-ci ildə qəbul edilən "Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü haqqında" Qanunda "Dağlıq Qarabağ" adlı inzibati-ərazi vahidi nəzərdə tutulmayıb. Beləliklə, hüquqi baxımdan Azərbaycanda "Dağlıq Qarabağ" adlı bir qurum mövcud deyil.

Erməni lobbisinin son illər ABŞ-da, Fransada və digər ölkələrdə keçmiş separatçı qurumun, guya, "tanınması" ilə bağlı səsləndirdiyi bəyanatlar beynəlxalq hüququn "uti possidetis juris" prinsipi ilə tam ziddiyyət təşkil edir. Bu prinsipə əsasən, dövlətlər müstəqillik əldə edərkən mövcud inzibati sərhədlərlə tanınırlar. Azərbaycan da məhz həmin sərhədlərlə tanınıb və bu sərhədlər daxilində suveren hüquqlarını bərpa edib.

Prezidenti İlham Əliyevin III Şuşa Qlobal Media Forumu səsləndirdiyi fikir həm beynəlxalq hüquqa, həm də milli qanunvericiliyə tam uyğundur. Eyni zamanda dünya ictimaiyyətinə çağırışdır ki, erməni separatizminin əsassız iddialarına aldanmasınlar və reallığı qəbul etsinlər.

### Ekspert rəyi

**Tofiq ABBASOV,**
**siyasi icmalçı**



– Savaş meydanında məğlub olan, siyasi cəhətdən müflisləşən, psixoloji müstəvidə də tərksilah olunan ermənilər informasiya sahəsində müəyyən kompensasiya qazanmağa çalışırlar. Əlbəttə, onlar bunu özlərinə təskinlik vermək üçün edirlər. Amma aramızda olan problemlərin hamısı açıq mübarizədə öz həllini tapıb. Bu zaman Azərbaycan bir daha sübut etdi ki, "Dağlıq Qarabağ" deyilən bir anlayış artıq mövcud deyil. Bizim üçün aşağı və yuxarı Qarabağ var ki, bu da vahid regiondur. Bəli, vaxtilə mənfur qüvvələr qondarma vilayət yaratmaqla Ermənistan üçün bir platforma yaratmışdılar. Guya, dağüstü Qarabağda bunların yaşayış yerləri olub.

Haylar həmişə məhz fantaziyalarla, xülyalarla yaşayıblar. Son illər baş verən hadisələrdən, bizdən aldıqları acı dərslərdən lazımi qənaətlər çıxarmalı və düşdükləri vəziyyət və acı aqibətləri ilə barışmalıdırlar. Çünki başqa yolları yoxdur. Buna baxmayaraq yenə də xəyallar qurur, fantaziyalarını ortaya atmağa cəhd göstərirlər. Dünya ictimaiyyətinə təlqin etməyə girişiblər ki, guya, "Dağlıq Qarabağ", "Stepanakert" durur. Bütün bunlar stansiyanı tərk etmiş qatarın dalınca baxmağa bənzəyir. Özləri də bilirlər ki, o qatarın sonuncu vaqonunun tamburuna belə çata bilməyəcəklər. Amma biz son günlər Nikol Paşinyanın nisbətən praqmatik mövqedə dayandığını, həmin qondarma "dar"ın İrəvandakı binasını separatçıların əlindən almağa girişdiyini görürük. Yəni, faktiki olaraq, onlara mesaj verir ki, bu məsxərəyə artıq son qoyuldu. Qarabağdan öz istəkləri ilə Ermənistana köçən on minlərlə ermənin orada məskunlaşa bilmədiklərini, xarici ölkələrə üz tutduqlarını Paşinyanın öz dilindən eşitdik. Təxminən 30 mindən çox keçmiş Qarabağ ermənisi Ermənistanı tərk edib. Deməli, ortaya belə bir məntiq çıxır ki, buradan getmiş ermənilər Ermənistanı özləri üçün müvəqqəti sığınacaq, keçid platforması kimi görürmüşlər.

Birmənalı olaraq deyə bilərik ki, Azərbaycan bədənindəki "Dağlıq Qarabağ" adlı onkoloji kiçik ləkəni kəsib tulladı. Məsələnin məhz bu cür, köklü şəkildə həll etdiyimizi Paşinyan və komandası da yaxşı başa düşür. Bu baxımdan Azərbaycan Prezidentinin Şuşa Forumunda dediyi fikilər real əsaslara söykənir.

# Reytinq və reallıq: Paşinyana inam azalır, alternativ isə görünmür

(əvvəli 1-ci səhifədə)



Bununla belə, Paşinyan Ermənistanda ən yüksək reytinqə malik siyasətçi olaraq qalır. İkinci yerdə 5 faiz reytinqlə xarici işlər naziri Ararat Mirzoyan, üçüncü yerdə isə 4 faizlə Robert Koçaryan dayanır.

Sorğunun nəticələrinə görə, Ermənistan əhalisinin 49 faizi ölkənin yanlış istiqamətə doğru getdiyinə əmindir. Eyni zamanda, rəyi soruşulanların 36 faizi ölkənin düzgün inkişaf etdiyinə inanır.

Sorğu hakim "Mülki müqavilə" partiyasının reytinqinin aşağı düşdüyünü göstərir. Əgər seçkilər gələn bazar günü keçirilsəydi, "Mülki müqavilə"yə ötən ilin sentyabrında olduğu kimi, seçicilərin 20 faizi yox, cəmi 17 faizi səs verərdi. Radikal revanşist kəsimin cəmləşdiyi "Hayastan" bloku 4 faizlə bu siyahıda ikinci yerdə dayanır. Respondentlərin 2 faizi R.Koçaryanın adını çəkib. Rəyi soruşulanların 61 faizi heç bir siyasətçiyə güvənmədiyini, 28 faizi isə 2026-cı ildə keçiriləcək parlament seçkilərində səs verməyəcəklərini qeyd edib.

Ermənistanda ən nüfuzlu ictimai institut respondentlərin 72 faizinin etibar etdiyi silahlı qüvvələrdir. İkinci yerdə Erməni Apostol Kilsəsi qərarlaşıb – 58 faiz. Maraqlıdır ki, ötən ilin sentyabrında keçirilmiş sorğu ilə müqayisədə EAK-ın reytinqi 10 faiz artıb.

Onu da bildirək ki, telefon vasitəsilə aparılan sorğuda Ermənistanın 1505 nəfər yetkinlik yaşına çatmış vətəndaşı iştirak edib. Onların arasında 2023-cü ildə Qarabağdan könüllü köçüb getmiş şəxslər də olub. Respondentlər siyahısına Ermənistan ərazisində altı aydan az yaşayanlar daxil edilməyib.

**

Sorğunun nəticələrinin şərhinə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutu tərəfindən keçirilmiş bu sorğunu etibarlı saymaq üçün bir sıra əsaslar mövcuddur. IRI ştatlarda fəaliyyət göstərən, dünyada demokratik institutların inkişafını dəstəkləyən nüfuzlu qeyri-kommersiya təşkilatıdır. İnstitut uzun illərdir müxtəlif ölkələrdə ictimai rəy sorğuları keçirir və bu sahədə geniş təcrübəyə malikdir. Onun tədqiqatları adətən metodoloji dəqiqlik və şəffaflıqla seçilir. Qurum keçirdiyi sorğular zamanı adətən metodoloji detalları, yəni, seçilmiş respondentlərin sayı, bölgüsü, yaş və cins balansı, sorğunun keçirilmə müddəti, sual formaları və səhv payı kimi göstəriciləri dərc edir. Bu isə ictimaiyyətə və mütəxəssislərə məlumatların etibarlılığını yoxlamağa imkan verir. Təşkilat sorğunu sifarişlə və ya birbaşa hansısa siyasi qüvvənin maraqları çərçivəsində deyil, müstəqil şəkildə keçirir. Bu isə nəticələrin qərəzli təqdim olunması ehtimalını minimuma endirir. IRI-nin daha əvvəlki illərdə Ermənistanda keçirdiyi sorğularla müqayisədə budəfəki nəticələrdə ciddi ziddiyyət və ya uyğunsuzluq yoxdur. Əksinə, reytinqdəki eniş tədrici dəyişiklik kimi görünür, bu da onun süni və ya manipulyativ xarakter daşımadığını göstərir.

Digər tərəfdən, Ermənistanın özündə müxtəlif siyasi analitiklər və təşkilatlar IRI-nin nəticələrinə istinad edir ki, bu da onların qəbul olunma səviyyəsini göstərir. Bütün bu amilləri nəzərə alaraq, IRI-nin Ermənistanda keçirdiyi sonuncu ictimai rəy sorğusunu etibarlı və obyektiv hesab etmək mümkündür. Əlbəttə, heç bir sorğu mütləq həqiqət deyil və yalnız meyilləri göstərir. Lakin bu nəticələr ictimai əhval-ruhiyyə və siyasi dinamika barədə ilkin, əsaslı təsəvvür formalaşdırmaq üçün mühüm mənbədir.

**

Paşinyanın reytinqindəki enişinə gəldikdə isə bu, bir sıra siyasi, sosial-iqtisadi və psixoloji faktorların təsiri ilə izah oluna bilər. Cəmi bir il ərzində Ermənistan baş nazirinə ictimai etimadın 3 faiz azalması, sadəcə, bir rəqəm deyil, əhəmiyyətli tendensiyanın göstəricisidir. Ehtimal etmək olar ki, Paşinyanın Azərbaycanla sülh danışıqlarında göstərdiyi fəallıq, xüsusilə də ərazi bütövlüyü və sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı bəyanatları erməni cəmiyyətinin müəyyən hissəsində narazılıq yaradıb. Xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində son vaxtlar baş verən bir sıra hadisələr onu tənqidlərə hədəf edib. Halbuki, hökumət bu yanaşmanı regionda davamlı sülhün və sabitliyin bərqərar olması üçün vacib hesab edir.

Ermənistanda iqtisadi artım rəqəmləri müəyyən müsbət göstəricilərlə müşayiət olunsa da, əhalinin geniş təbəqələri bunu gündəlik həyatlarında hiss etmir. Qiymətlərin artımı və işsizlik kimi amillər insanların hakimiyyətə, o cümlədən birbaşa Paşinyana münasibətinə mənfi təsir göstərir. Bundan əlavə, son aylarda radikal müxalifət düşərgəsinin Paşinyana qarşı daha sistemli və ideoloji əsaslı kampaniya aparmasını da gözardı etmək olmaz. Müxalifət cəmiyyət arasında hakimiyyət əleyhinə təbliğatı "suverenlik və ərazi bütövlüyü", "milli təhlükəsizliyə təhdidlər", "tarixi irsin qorunması" kimi emosional dəyərlər üzərindən aparır. Bu isə Paşinyanın və onun siyasi komandasının nüfuzunun aşağı düşməsinə səbəb olur.

Son aylarda kilsə ilə hökumət arasında yaşanan açıq qarşıdurma da Paşinyanın reytinqinə mənfi təsir edən amillərdəndir. Kilsənin geniş nüfuzu və təsir imkanları, xüsusilə bölgələrdə onun mövqeyini tənqid edən mesajların cəmiyyətə daha asanlıqla çatmasına imkan verir. Bundan əlavə, bölgədəki geosiyasi qeyri-müəyyənliklər, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Rusiya ilə münasibətlərin zəifləməsi, Qərblə tam inteqrasiya prosesindəki tərəddüdlər Ermənistan cəmiyyətində sabitlik hissini zəiflədir. Bu isə birbaşa icra hakimiyyətinə, konkret halda, baş nazirə olan inamı sarsıdır. Nəticə etibarilə, Paşinyanın reytinqindəki 3 faizlik eniş statistik baxımdan kiçik görünsə də, siyasi baxımdan ciddidir. Bu dinamika həm daxili siyasətdə, həm də beynəlxalq platformalarda hökumətin mövqelərinə təsir edə bilər.

Bununla belə, sorğudakı reytinqində müəyyən enişə baxmayaraq, Paşinyan Ermənistanda hələ də ən çox dəstək alan siyasi fiqur olaraq qalır. Onun 13 faizlik reytinqi rəqibləri ilə müqayisədə üstün mövqeyini qoruduğunu göstərir. Bu, ölkədə alternativ liderliyin hələlik formalaşmadığını deməyə əsas verir. Keçmişdə qeyri-legitim prezident olmuş R.Koçaryanın 4 faizlik reytinq göstəricisi isə onun siyasi nüfuzunun ciddi şəkildə zəiflədiyini nümayiş etdirir. Toplumun Qarabağ klanı təmsilçilərinə inamsızlığı və onlara qarşı mənfi emosional fon hələ də qalmaqdadır.

Rəy sorğusunun nəticələri göstərir ki, Ermənistan cəmiyyətində gələcəyə dair nikbinliklə yanaşı, ciddi narazılıq hissi də mövcuddur. Respondentlərin yarıdan çoxunun ölkənin yanlış istiqamətdə hərəkət etdiyini düşünməsi, cəmiyyət daxilində ümumi narazılığın artdığını göstərir. Bu narazılıq həm sosial-iqtisadi, həm də siyasi səbəblərlə əlaqələndirilə bilər. Eyni zamanda, əhalinin 36 faizi mövcud kursa dəstək verir ki, bu da hökumətin müəyyən təbəqələr arasında razılıqla qarşılandığını göstərir. Belə bir nisbət hakimiyyət üçün həm çağırış, həm də dəyişiklik üçün imkan hesab oluna bilər.

**Politoloq Ramiyə Məmmədova mövzu ilə bağlı XQ-yə şərhində bildirdi ki,** Ermənistan daxilində gedən prosesləri nəzərə almaq lazımdır. Onun sözlərinə görə, sorğuda ən nüfuzlu ictimai institutların silahlı qüvvələr və EAK olması təsadüfi deyil: "Kilsənin arxasında dayanan qüvvələr özlərini erməni xalqına dost kimi



sırıyan, əslində isə onun düşməni olan lobbiçilərdir. Biz kilsənin sırf xaricdən, necə deyərlər, qidalandığını, maddi və siyasi dəstək aldığı məlum faktdır. Keçmişdən gələn ənənələr, eləcə də Ermənistan cəmiyyətində kilsəyə vaxtaşırı gedənlərin çox olduğunu nəzərə alaraq onunla bağlı rəy sorğusunda belə bir nəticənin üzə çıxması təbiidir. Görünür, sadə insanlar kilsənin siyasi oyunlarından xəbərsizdir. Kilsə erməni cəmiyyəti ilə bağlı "beyinyuma əməliyyatını" yaxşı həyata keçirib. Din xadimi dən adlanan bu şəxslər uzun əsrlərdir ki, belə bir siyasət yürüdürlər. Paşinyan isə bu gün kilsəni siyasi proseslərdən kənarlaşdırmağa çalışır. Ona görə də Nikolun həm ölkə daxilində, həm də xaricdə düşmənlərinin sayı getdikcə artır".

R.Məmmədova sorğunun keçirənlərin hansı qüvvələrə bağlılığının da tam aydın olmadığını vurğuladı: "Yəni, sorğunun nəticələrini şübhə altına almaq mümkündür. Ancaq şəxsi müşahidələrim göstərir ki, getdikcə Ermənistan baş nazirinə ölkəsində və xaricdə rəğbət artır. Hazırda onun ölkə siyasətçiləri arasında alternativi yoxdur. Burada Qarabağ klanının bağlı olduğu ölkənin də rolu var. Onlar erməni xalqını Paşinyana qarşı yönəltməklə qarışıqlıq yaratmaq istəyirlər. Son nəticədə bu qarşıdurmanın dövlət çevrilişi ilə nəticələnməsinə çalışırlar. Ancaq biz gördük ki, geniş xalq kütlələri radikalların arxasınca getmir. Başqa sözlə, Qarabağ klanı Paşinyana qarşı alternativə çevrilə bilmir".

Politoloq onu da bildirdi ki, əgər Azərbaycanla sülh müqaviləsi imzalanarsa, Zəngəzur dəhlizi işə düşərsə, ölkəmizlə, Türkiyə ilə Ermənistan arasında sərhədlər açılarsa və bunun nəticələrini erməni xalqı gündəlik həyatında hiss edərsə, bu, Paşinyanın reytinqinin yüksəlməsi deməkolacaq: "Normal insanlar başa düşürlər ki, Paşinyan hazırda doğru mövqe tutaraq ölkəsinin, xalqının maraqları, rifahı üçün çalışır. Ona görə də Paşinyanın iqtidardan getməsi, yaxud çevriliş yolu ilə devrilməsi az ehtimal olunur".

*Səxavət HƏMİD*
*XQ*

*Replika*

**Rusiyada "miqrant ovu" çərçivəsində azərbaycanlılara qarşı aparılan təqib kampaniyasının vüsət aldığı hazırkı dövrdə ölkə Prezidentinin mətbuat katibi Dmitri Peskov maraqlı açıqlama verib. Daha doğrusu, o, Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumu çərçivəsində Azərbaycan–Rusiya münasibətləri ilə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib.**

# Dmitri Peskov da danışmağa söz tapmır

## *O, nəyi və kimi suçlamaq istəyir?*

Peskovun dedikləri, ilk baxışdan, müsbət qiymətləndirilə bilər. Məsələn, o, Azərbaycan–Rusiya münasibətlərindəki indiki gərginliyin aradan qaldırılacağına inandığını bildirib. Çox yaxşı, onsuz da heç bir ziddiyyət əbədi deyil. Digər tərəfdən, müasir müstəqillik illərində Bakı və Moskva arasında gərginliklər çox yaşanıb. Amma vəziyyətin indiki qədər yüksək fazasının olmadığını da vurğulamalıyıq...

Əlqərəz, D.Peskov bildirib ki, Azərbaycanda ruslara hörmətlə yanaşılması çox vacibdir. Məlumdur ki, ölkəmizdə rus millətinin mənsublarına münasibət Bakı–Moskva əlaqələrinin axarına əsasən müəyyənləşmir. Ümumən, MDB-də rus dili və rus millətinin təmsilçiləri üçün ən rəvan məkan ölkəmizdir və heç şübhəsiz, təkcə Peskov yox, Rusiyanın digər rəsmiləri, həmçinin, ölkə cəmiyyətinin ayrı-ayrı sferalarının təmsilçiləri də bunu gözəl bilirlər. Üstəlik, Azərbaycan rus məktəblərinin sayına görə də MDB-də lider statusundadır.

Elə isə Rusiya Prezidentinin mətbuat katibi nə demək istəyib? Doğrudanmı, o, fikirləri ilə ölkəmizi rus millətindən olanlara qarşı pozitiv münasibətinə görə təqdir edib? Halbuki, xüsusi təqdir ediləsi durum da yoxdur. Çünki ölkəmizdə yaşayan ruslar da Azərbaycan vətəndaşı statusundadırlar və onlara hansısa fərqli münasibət ola bilməz, heç vaxt olmayıb da. Həm də o səbəbdən ki, Azərbaycan Rusiya deyil...

Bəli, Azərbaycan Rusiya deyil. Burada digər xalqlar və etnik qruplar çox rahat şəkildə ömür sürürlər. İndiyədək ölkəmizdə hansısa milli və etnik zəmində qarşıdurma qeydə alınmayıb. Ona görə belə düşünmək olar ki, cənab Peskovun demək istədiyi başqadır. Bununla bağlı bəzi ehtimallarımızı diqqətə çatdıraq.

Baxın, mətbuat katibi Azərbaycanda ruslara münasibətin yaxşı olduğunu bildirər-bildirməz, Rusiyada da çox böyük Azərbaycan diasporunun yaşadığını xatırladıb. Amma xatırlatmaqla kifayətlənməyib. O deyib: "Azərbaycan diasporunun demək olar ki, bütün nümayəndələri qanuna tabe olan vətəndaşlarımızdır və burada layiqli hörmətə malikdirlər. Qanunları pozan vətəndaşlar qanunla məsuliyyətə cəlb olunurlar".

Doğrudur, qanunları pozanlar milli mənsubiyyətindən asılı olmayaraq, məsuliyyətə cəlb olunmalıdırlar. Amma bir müddət əvvəl Yekaterinburqda Rusiya qanunlarının necə işlə(mə)diyini gördük. Mövcud istiqamətdə təfsilata varmaq niyyətindən uzağıq. Yəni, Peskov da daxil olmaqla, rus siyasi sisteminin və idarəçilik aparatının hüquq prinsiplərinə, insan haqlarına necə yanaşdığının əlavə təsvirinə lüzum yoxdur. Əslində, mətbuat katibi də fikirləri ilə həmin yanaşmanı ortaya qoyur. Loru dildə desək, təxminən belə: biz sizə qarşı qanunsuzluq edirik, siz etməməlisiniz. Yoxsa, Azərbaycandakı ruslarla Rusiyadakı azərbaycanlıları eyni müstəviyə qoymaq niyə yada düşsün ki?

Nə bilmək olar, bəlkə Peskov dolayısıyla vurğulayır ki, Rusiyada azərbaycanlılara münasibət pis olsa da, Azərbaycanda ruslara yanaşma yaxşı olmalıdır? Klassik imperiya kluarlarında yetişmiş siyasətçinin dilindən bu sayaq subliminal mesajın səslənməsi təəccüb doğurmamalıdır. Hər nə desən olar. Amma bir məqam da var. Daha dəqiq desək sual: Rusiya Krımı ələ keçirərkən və ya beynəlxalq hüquqla Ukraynaya məxsus digər ərazilərə qəsb reallaşdırarkən nəyi bəhanə etmişdi? Cavab birmənalıdır. Ölkə rəhbərliyi həmin ərazilərdə rusdilli əhaliyə himayədarlıq amilini qabartmış, işğalı, bir növ, arqumentləşdirmişdi.



Əlbəttə, demək istəmirik ki, hazırda Kreml Bakı–Moskva münasibətlərindəki gərginlik səbəbilə Azərbaycana qarşı özünün hərbi güc arsenalını işə salmaq barədə düşünür. Xeyr, bu, real deyil. Ancaq ölkənin ayrı-ayrı təbliğat dayaqları olan avantüristlər və anarxistlər ordusu məhz qəsbkarlıq çağırışları səsləndirir, hazırkı durumu, az qala, müharibə şəraiti kimi qiymətləndirirlər. Halbuki, Prezident İlham Əliyevin fikirlərinin hər birində məntiq var. Birincisi, AZAL-ə məxsus təyyarə Rusiya səmasında vurulub. Moskvaya faktı təsdiqləmək, konpensasiya ödəmək və günahkarları məsuliyyətə cəlb etmək qalır. Bunu edirmi? Yox! Nə üçün etmir, o da məlum deyil.

İkincisi, dövlətimizin başçısı ukraynalı jurnalistin sualını cavablandırarkən emosional notlara köklənmədi, reallığı açıqladı. Nəinki açıqladı, eyni zamanda, ölkəmizin timsalında nümunə çəkdi. İşğalla barışmamaq nümunəsi. Burada sadə məntiq var. Bir halda ki, Ukrayna beynəlxalq hüquqla tanınmış ərazilərə malikdir, deməli, həmin ərazilərə başqa dövlətin qoşunlarının daxil olması işğaldır. Məsələyə fərqli yanaşmaq mümkünsüzdür.

Məgər indiyədək Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləməyib? Ölkəmizin rəhbərliyi, şəxsən Prezident İlham Əliyev bunu hər zaman açıqlayıb. Deməli, dövlətimizin başçısının uzun müddət işğaldan əziyyət çəkmiş ölkənin lideri kimi təcavüzlə barışmamaq tövsiyəsində hansısa əlahiddəlik ola bilməz. Həm də ona görə ola bilməz ki, Azərbaycan işğalla barışmadığı üçün haqqına sahibləníb. Görəsən, Rusiyanın "prapaqanda siçovulları" bunu niyə fərqli təqdim edirlər?

Nə isə bu "siçovulların" nəyi və necə qələmə vermələri, qopardıqları vay-şivən heç bir önəm daşımır. Əsas məsələ Peskovun bildirdiyi və Moskvanın başqa məmləkətlərdəki rus təəssübkeşliyi məsələsidir. Bu "təəssübkeşliyin" Ukrayna ərazinə hücum üçün bəhanə olduğunu vurğuladıq. Elə isə Putinin sözçüsünün dediklərinə yenə pozitivlik pəncərəsindən yanaşaq. Yəqin Peskov demək istəyir ki, Rusiya hərbi hücuma əl atmayacaq, çünki Azərbaycanda ruslara münasibət yaxşıdır. İndi buna sevinəkmi, sevinməyəkmi? Vallah, Peskov da danışmağa söz tapmır.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Beynəlxalq hüquqa zidd, təhrif dolu qətnamə

## *EAPCA Belçika parlamentinin Azərbaycana qarşı qətnaməsinə etiraz edib*

**Avro-Atlantika Azərbaycanlıları Tərəfdaşlıq Şurası (EAPCA) Belçika Nümayəndələr Palatasının Azərbaycana qarşı qəbul etdiyi birtərəfli və qərəzli qətnaməni qətiyyətlə rədd edib və etiraz bildirib.**

EAPCA-nın bəyanatında deyilir ki, sözügedən qətnamə beynəlxalq hüququn əsas prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyinə və daxili işlərinə qarışmamaq




prinsipinə zidd olmaqla yanaşı, Cənubi Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq səylərinə ciddi zərbə vurur:

Bəyanatda qeyd olunur ki, qətnamədə reallıqlara əsaslanmayan, birtərəfli və manipulyativ məlumatlara istinad edilərək Azərbaycan Respublikasının legitim və beynəlxalq hüquqa uyğun mövqeyi təhrif olunur: "Bu cür yanaşma regionda davamlı sülhün bərqərar olması üçün atılan konstruktiv addımlara xələl gətirir və birtərəfli siyasi mövqe nümayiş etdirir. Avro-Atlantika Azərbaycanlıları Tərəfdaşlıq Şurası olaraq Belçika parlamentini məsuliyyətli və obyektiv davranmağa, Cənubi Qafqazda sülh və əməkdaşlığın təşviqinə töhfə verməyə çağırırıq".

EAPCA-nın bəyanatında daha sonra bildirilir ki, təşkilat Azərbaycan dövlətinin regionda sülhün və sabitliyin təmin olunmasına yönəlmiş səylərini tam dəstəkləyir: "Həmçinin beynəlxalq ictimaiyyəti bu istiqamətdə balanslı mövqe sərgiləməyə çağırırıq. Avro-Atlantik məkanda fəaliyyət göstərən diaspor təşkilatı olaraq, biz Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və milli maraqlarını beynəlxalq platformalarda dəstəkləməyə davam edəcəyik".

*XQ*

# Akademik Zərifə Əliyevanın elmi irsi ingilis dilində

**Azərbaycan oftalmologiya elmi məktəbinin yaradıcısı akademik Zərifə Əliyevanın təbabət elminə gətirdiyi yeniliklər, uğurla tətbiq etdiyi innovativ müalicə üsulları, irəli sürdüyü elmi ideyalar bu görkəmli elm xadiminin sağlığında ölkəmizdə olduğu kimi, Vətənimizin hüdudlarından kənarda da böyük əks-səda doğurmuşdur. Görmə orqanının peşə patologiyası sahəsində apardığı tədqiqatlar akademik Zərifə xanım Əliyevanı beynəlxalq aləmdə görmə orqanı üzrə yeni elmi istiqamət açan novator alim kimi tanıtmışdır. 1977-ci ildə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun akademik Zərifə Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Bakıda keçirilməsi Azərbaycan aliminin elmi ideyalarının təbabət elmində böyük əks-səda doğurduğunu əyani şəkildə nümayiş etdirir.**

Müxtəlif ölkələri təmsil edən görkəmli elm xadimlərinin Zərifə xanım Əliyevanın elmi tədqiqatları haqqındakı yüksək fikirlərini bəyan etmələri onun dünya oftalmoloqları cəmiyyətində qəbul olunan tanınmış alim-həkim olduğunu göstərir. Nəhayət, 1983-cü ildə akademik Zərifə Əliyevanın Sovetlər İttifaqında oftalmologiya üzrə görkəmli alimlər akademik Larisa Konstantinovna Moşetova və tibb elmləri doktoru, professor Nina Borisovna Şupina ilə birlikdə ərsəyə gətirdikləri "Oftalmologiyanın aktual problemləri" monoqrafiyasının rus dilində nəşr olunması və geniş elmi dairələrdə rəğbətlə qarşılanması da Azərbaycan elm xadiminin oftalmologiya sahəsində yerini və mövqeyini təsəvvür etməyə imkan yaradır. Xüsusən, oftalmologiya elminin inkişafında mühüm xidmətləri olan Sosialist Əməyi Qəhrəmanı akademik Nina Puçkovskayanın rəyi ilə nəşr olunmuş bu monoqrafiyaya təkcə keçmiş SSRİ-də yox, Avropa və Asiya təbabət məkanında da ciddi maraq göstərilməsi və əsərin yüksək dəyərləndirilməsi Zərifə Əliyevanın irsinin daha geniş dairədə yayılmasına olan real tələbatı meydana qoymuşdur. Bütün bunlar nəzərə alınaraq, Azərbaycan Milli Elmlər Akademiyasının akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinin qeyd olunmasına dair tədbirlər planına əsasən digər məsələlərlə yanaşı, görkəmli Azərbaycan oftalmoloqunun xidmətlərinin beynəlxalq aləmdə müstəqillik idealları işığında tanıdılması və əsərlərinin ingilis dilinə tərcümə edilərək nəşr edilməsi istiqamətində də mühüm addımlar atılmışdır.




Əlamətdardır ki, AMEA Biologiya və Tibb Elmləri Bölməsinin ingilis dilində nəşr olunan "Həyat elmləri və biotibb" jurnalının 2023-cü ildəki 2-ci sayı akademik Zərifə Əliyevanın elmi fəaliyyətinin əsas istiqamətlərinə həsr edilmişdir. Jurnalın həmin sayı ölkəmizdən kənarda da yayılmış, müxtəlif nüfuzlu xarici elmi təşkilatların ünvanına göndərilmişdir. Qeyd edilən nəşrin doğurduğu rəylərdə akademik Zərifə Əliyevanın elmi irsinin ingilis dilində səsləndirilməsinə olan maraq və ehtiyac bir daha diqqət mərkəzinə çəkilmişdir.

Beləliklə, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti vaxtilə akademik Zərifə Əliyevanın akademik Larisa Konstantinovna Moşetova və Nina Borisovna Şulpina ilə birlikdə çap etdirdikləri "Oftalmologiyanın aktual problemləri" monoqrafiyasının ingilis dilinə tərcümə edilməsini zəruri hesab edərək, 2023–2025-ci illərdə bu istiqamətdə məqsədyönlü iş aparmışdır. Professional səviyyədə tərcümə və redaktə edilən qiymətli monoqrafiya 2025-ci ildə ingilis dilində akademiyanın "Elm" nəşriyyatında işıq üzü görmüşdür. Kitabın elmi redaktorları AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova və akademik Zərifə Əliyeva adına Azərbaycan Milli Oftalmologiya Mərkəzinin direktoru, müxbir üzv Elmar Qasımov nəşrin yüksək elmi-texniki və nümunəvi poliqrafik səviyyədə çap olunması üçün zəruri elmi və təşkilati tədbirləri həyata keçirmişlər. Nəticədə Zərifə Əliyevanın həmmüəllif olduğu kollektiv monoqrafiya elmi ictimaiyyətə təqdim olunmuşdur.

Oftalmologiya elminin ən aktual problemlərinə həsr edilmiş əsərdə görmə orqanının patologiyası, diaqnostikası və müalicəsi ilə əlaqədar aparılmış araşdırmaların mühüm nəticələri yer almışdır. İlk nəşrdə olduğu kimi, akademik Zərifə Əliyevanın yazdığı "Həkimlərin mənəvi tərbiyəsi, tibbi etika və əxlaqın dentoloji məsələləri" adlı bölmə ilə açılan monoqrafiyada gözün biomikroskopiyasına dair bəhslər professor Nina Şulpinanın, görmə orqanının zədələnməsi haqqındakı tədqiqatlar akademik Larisa Moşetovanın araşdırmaları ilə təqdim olunur. Beş bölmədən ibarət olan "Oftalmologiyanın aktual problemləri" monoqrafiyasında digər fəsillərdə də oftalmoloq həmkarları ilə həmmüəllif kimi çıxış edən Zərifə Əliyeva xüsusi elmi yeniliyə malik olan şin və yod istehsalı müəssisələrində göz xəstəliklərinin başvermə səbəbləri, laborator analizləri, diaqnostika və müalicə metodlarına həsr edilmiş bölmələrin əsas müəllifidir. İstehsalat proseslərində göz xəstəliklərinin müalicəsinin elmi əsaslarından ibarət olan nəzəriyyə akademik Zərifə Əliyevanın adı ilə bağlı olan mükəmməl elmi-tərcübi təlimdir. Vaxtilə rus dili vasitəsilə, əsasən, keçmiş SSRİ-də yayılan Zərifə Əliyevanın bu təlimi yaxın və uzaq xaricdə özünəməxsus əks-səda doğursa da, ilk dəfə indi, 2025-ci ildə tam halda beynəlxalq tibb ictimaiyyətinə, dünya oftalmoloqlarına təqdim olunur. Monoqrafiyanın bu nəşrinə Rusiya Fasiləsiz Peşəkarlıq Təhsili Tibb Akademiyasının prezidenti akademik Larisa Moşetovanın müəlliflər adından yazdığı ön sözdə kitabın müasir dövrdə də oftalmoloqlar üçün gərəkli və faydalı olmasını göstərməsi ilə bərabər, akademik Zərifə Əliyevanın peşə xəstəliklərinə həsr olunmuş tədqiqatlarının elmi yeniliyi və mühüm əhəmiyyəti xüsusi olaraq yüksək ehtiramla qeyd edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası akademik Zərifə Əziz qızı Əliyeva, akademik Larisa Konstantinovna Moşetova və professor Nina Borisovna Şulpinanın "Oftalmologiyanın aktual problemləri" monoqrafiyasını ingilis dilində nəşr etməklə göz xəstəliklərinə dair müasir dövrdə də elmi cəhətdən əhəmiyyətli və aktual olan tədqiqatların beynəlxalq tibb ictimaiyyətinə təqdim olunmasını təmin etmişdir. Hesab edirik ki, bu nəşr eyni zamanda Azərbaycan oftalmologiya elminin nailiyyətlərinin, beynəlxalq aləmə akademik Zərifə Əliyevanın elmi təliminin çatdırılması və tanıdılması baxımından da əhəmiyyətlidir. İnanırıq ki, yeni tarixi inkişaf yolunda olan ölkəmizin xarici dillərdə təhsil almış həkim oftalmoloqları, həmçinin dünyanın aparıcı tibb universitetlərinin müvafiq ixtisaslı tələbələri də bu qiymətli əsərdən böyük effektivliklə yararlanacaqlar. Bütün bunlar görkəmli elm xadimi akademik Zərifə Əliyevanın zəngin və qiymətli elmi irsinin ədəbiyaşarlığını, yeni tarixi dövrdə müstəqil dövlətçiliyimizdə tibb elminin inkişafına xidmət etdiyini göstərir.

*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın prezidenti, akademik*

# Qapılar dəmir yollara açılır...



(əvvəli 1-ci səhifədə)

Sənədsiz, qeyri-qanuni tikilən sözügedən evlər dəmir yolunun mühafizə zolağında yerləşir ki, bu da bir tərəfdən dəmiryolu nəqliyyatına ciddi problemlər yaradır, digər tərəfdən də onların özləri üçün təhlükəlidir. Aparılan araşdırmada, eyni zamanda, son 3 ildə dəmiryolunun mühafizə zolağında yerləşən ərazilərdə çoxsaylı bədbəxt hadisənin baş verdiyi, 30-dan artıq adamın həyatını itirdiyi və ya ağır xəsarət aldığı diqqətə çatdırılır. Vəziyyət o həddə çatıb ki, əraziyə yanğınsöndürən, təcili tibbi – yardım maşınları girə bilmir.

Bildirilir ki, Nərimanov rayonunun bu qeyri-qanuni yaşayış sahəsində kommunal xidmət çox aşağı səviyyədədir, bu səbəbdən də işin müvafiq qaydada təşkili mümkün deyil. Ərazidə antisanitariya mühitinin mövcudluğu da buradan irəli gəlir. Yeri gəlmişkən, mühafizə zolağında yüksək gərginlikli elektrik xətləri də var və belə sahədə yaşamaq bir sıra təhlükəli xəstəliklər yaradır. Təbii ki, bu cür açınacaqlı şərait, eyni zamanda, paytaxtımızın ümumi görünüşünü pozur.

Azərbaycan Dəmir Yolları QSC-nin mətbuat katibi Bəxtiyar Hacıyev açıqlamasında qanunsuz tikililərlə bağlı cinayət işlərinin açıldığını və araşdırmalara başlanıldığını qeyd edib. Nəqliyyat məsələləri üzrə ekspert Aydın Məmmədov isə mövzu ilə bağlı fikirlərini bölüşərək, belə zonalarda insanların məskunlaşmasının həm hüquqi, həm sosial, həm də təhlükəsizlik baxımından aradan qaldırılmalı problem olduğunu xatırladıb. Ekspert, eyni zamanda, dövlət strukturlarının artıq ərazidə müvafiq araşdırmalara başladığını və mərhələli şəkildə bu tikililərlə bağlı zəruri tədbirlər görülməsinin gözlənildiyini diqqətə çatdırıb.

A.Məmmədov problemin həlli ilə bağlı fikirlərini də bölüşüb. Bildirib ki, nəqliyyat vasitələrinin yüksək sürətlə hərəkət etdiyi polad magistralların və avtomobil yollarının kənarları hasarlanmalı və mühafizə zonaları, o cümlədən qorunma sahələri təmin edilməlidir. Əks halda, baş verən hadisələrin qarşısını almaq qeyri-mümkündür. Yəni kənardan yola qəfil çıxan – istər insan, istər heyvan, istərsə də digər nəqliyyat vasitələri – hərəkətdə olan sürətli nəqliyyat vasitələri ilə toqquşduqda, faciə qaçılmaz olur.

Nəqliyyat məsələləri üzrə ekspert açıqlamasının sonunda deyib: "Şəhərimizin bir çox yerlərində dəmir yoluna yaxın məsafədə evlərin yerləşdiyini və insanların həmin ərazilərdə sərbəst gəzişdiyini müşahidə edirik. Son dövrlərdə paytaxtdan bölgələrə yüksək sürətlə hərəkət edən sürət qatarlarının fəaliyyəti təşkil edilib. Bu cür yüksək sürətlərdə iki nəqliyyat vasitəsinin toqquşmasının qarşısını almaq üçün müəyyən vaxt və məsafə tələb olunur. Lakin qarşıya qəfil manеə çıxdıqda, artıq qəzanın baş verməsi qaçılmaz hala gəlir. Bu baxımdan, dəmir yollarına və avtomobil yollarına yaxın ərazilərdə yerləşən evlər, həmçinin müxtəlif manеələr ciddi təhlükə mənbəyidir.

Beləliklə, mühafizə zolaqları ciddi qorunmalı, bu ərazilərdə qanunsuz tikinti aparanlara qarşı ciddi tədbirlər görülməlidir. Belə tikililər heç bir halda dövlət qeydiyyatına salınmamalıdır. Qanunsuz tikilən tikililər nəzarətsizlik nəticəsində deyil, hüquqi məsuliyyət baxımından qiymətləndirilməli və onların köçürülməsi müasir yanaşmalara uyğun şəkildə gerçəkləşdirilməlidir.

**Redaksiyadan: Mötəbər mənbələrdən sızmış lətifəvari bir mənbəyə görə, 1960-cı ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulmasının 40 illiyi təntənəsinə gələn sövet rəhbəri Nikita Xruşşovu ovaxtkı respublika rəhbəri gedib Yalamada qarşılayır və Bakıya bir yerdə gəlirlər.**

**Qatar yazıda qeyd olunan yerdən – "gecəqondu"ların yanından keçəndə Xruşşov soruşur ki, bu nədir belə? Cavab verirlər ki, burada donuz saxlanılır. Nikita Sergeyeviç damlardakı antennaları göstərib qəzəblə deyir: "Bu nə axmaqlıqdır, məgər donuzlar televizora baxırlar?!".**



*XQ*

## Baş Prokurorluğun heyəti Türkiyədə



**Azərbaycanın Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri çərçivəsində dünən nümayəndə heyətinin üzvləri ilə Türkiyə Ədliyyə Akademiyasında görüş keçirilib.**

Akademiyanın rəhbəri Bekir Altun iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı əlaqələrin uğurla inkişaf etdiyini bildirib.

Azərbaycan Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev Türkiyə Ədliyyə Akademiyası ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında əməkdaşlığın uğurla davam etdirildiyini qeyd edərək, əldə edilmiş uğurları diqqətə çatdırıb.

Görüş zamanı prokurorların təlimi, hüquqi əməkdaşlıq, təlim səfərləri və digər sahələrdə qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilcəyi bildirilərək qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

*XQ*

## Pakistan–Azərbaycan yaşıl əməkdaşlığı müzakirə olunub



**İyulun 23-də Şamaxıda Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi, COP29-un sədri Muxtar Babayev ilə Pakistanın İqlim Dəyişiklikləri və Ətraf Mühitin Koordinasiyası naziri Musadik Malik arasında görüş keçirilib.**

Görüşdə qlobal iqlim əməkdaşlığının gücləndirilməsi, iqlimdə davamlılıq, təsirlərin azaldılması və dayanıqlı inkişaf sahələrində koordinasiya olunmuş səylərin vacibliyi vurğulanıb. Tərəflər iqlim dəyişikliyinin təsirlərinin artdığı bir dövrdə beynəlxalq ictimaiyyətin dərhal və ədalətli şəkildə hərəkətə keçməli olduğunu qeyd ediblər.

Görüş çərçivəsində Pakistan və Azərbaycan arasında bərpaolunan enerji, iqlimə uyğunlaşdırılmış kənd təsərrüfatı, fəlakət riskinin azaldılması və uyğunlaşma strategiyaları sahələrində yaşıl əməkdaşlığın yeni imkanları da müzakirə olunub.

*XQ*

# “Tam gizli” qrifli sənədlər

## *Xəyanətlər ermənilərin türk düşmənçiliyinə ayna tutur*

**I Dünya Müharibəsindən sonra Cənubi Qafqazda yaranmış siyasi, sosial və iqtisadi vəziyyət ermənilərin Şərqi Anadoluda dövlət qurmaq planını, bu ərazilərə köçürmək düşüncəsini doğurmuşdu. “Erməni məsələsi”ni hər fürsətdə gündəmə gətirmək hayların siyasi təşkilatlarının əsas prioritetlərindən idi. “Gizli “ və “tam gizli” qrifləri ilə uzun müddət ictimaiyyətdən gizlədilən sənədlər bunu sübut edir. Ermənistnda arxivlər yalnız bu ölkədə sovet hakimiyyəti qurulandan sonra yaradılmağa başladı və arxiv materialları əsasən Gürcüstan və Azərbaycandan gətirilməyə başlandı. Bir qisim material isə kilsələrdən toplandı. Amma Ermənistan arxivlərinin böyük bir qismi bu günədək qapalı saxlanılmaqdadır. Fəqət bəzən “gizli” qrifli bu sənədlər mətbuata sızdırılır...**


ԴԵԿՐԵՏ
1920 թ. Դեկ. 6

Türkiyəyə qarşı iddialar irəli sürən Ermənistana 2005-ci ildə arxivlərin açılması və gizliliyin ortadan qaldırılması təklif olunsa da, buna reaksiya vermədi. 2005-ci il aprelin 13-də Türkiyə Böyük Millət Məclisinin yekdilliklə qəbul etdiyi bəyannamədə Ermənistana sülh əli uzadıldı və Türkiyə aşağıdakı əsaslarla birgə tarix komissiyasının yaradılmasını təklif etdi: “Türkiyə Böyük Millət Məclisi (TBMM) hesab edir ki, həm Türkiyənin, həm də Ermənistanın maraqları eyni torpaqlarda əsrlər boyu qarşılıqlı tolerantlıq və sülh şəraitində yaşayan türk və erməni xalqlarını barışdırmaq, onları uzun illər davam edən müharibələrdən qaynaqlanan dərin qərəzdən xilas etmək, onların ortaq gələcəyə, əməkdaşlıq, dostluq etməyə imkan verəcək mühit yaratmaqdan ibarətdir. Bu təklif Türkiyə və Ermənistan tarixçilərindən ibarət müştərək komissiya yaradılmasını, milli arxivlərini heç bir məhdudiyyət olmadan araşdırmalara açmasını və digər müvafiq ölkələrin arxivlərində də aparılacaq bu araşdırmanın nəticələrinin beynəlxalq ictimaiyyətə çatdırılmasını nəzərdə tutur”.

Amma Ermənistan bu təşəbbüsün mahiyyətini anlamadı və belə bir komissiyanın qurulmasını istəmədi. Bu sadə səbəbə görə ki, arxiv materialları ortaya qoyularsa kimin günahkar olduğu ortaya çıxaracaq. Şübhəsiz ki, soyqırımçı millətin türklər, azərbaycanlılar deyil, məhz ermənilər olduğu isbatlanacaq. Türkiyə və Azərbaycanda arxivlərin tədqiqatçıların üzünə açıq olması tarixə yeni yanaşmanın nəticəsi və həm də ölkələrimizin qorxacaq heç bir işinin olmadığının göstəricisidir. Ermənilər isə bu sənədlərin yayılmasını istəmirlər. Ermənistan arxivlərindən müxttəlif yollarla aşkar olunan bəzi sənədlərin mahiyyəti dediklərimizin sübutudur.

Ermənilərin israrla gizli saxladıqları bəzi sənədlər təsdiq edir ki, hələ 1917-ci ilin fevralında Rusiya hakimiyyətə gələn Müvəqqəti Hökumət artıq 9 may 1917-ci ildə “Müvəqqəti Hökumətin Türk Ermənistanı haqqında tənzimləməsi” adlı qərarla beş nəfərlik Qafqaz Xüsusi Komitəsini yaratmışdı. Rusiyada baş verən hadisələr – çar mütləqiyyətinin devrilməsi və siyasi hakimiyyətin Müvəqqəti Hökumətə verilməsi – erməni bolşeviklərini də hərəkətə gətirmişdi. “Türk Ermənistanı haqqında tənzimləmə” adlı Qafqaz Xüsusi Komitəsinin tərkibindəki yeganə erməni üzv M.İ.Papacanyan olsa da, bu işi idarə edən gizli erməni siyasi qrupu da fəaliyyət göstərirdi. Ermənilər Cənubi Qafqazdakı Ermənistan dövləti ilə kifayətlənmək istəmir, altdan-altdan Şərqi Anadoluda da bir dövlətə sahib olmaq istəyirdilər. 1917-ci ilin Oktyabr inqilabından sonra Rusiyada qurulan yeni bolşevik hökumətinin ermənilərə qarşı apardığı siyasət əvvəlki hökumətdən fərqli olsa da, hay iddiaları və onları dəstəkləyən fəaliyyət dəyişməmişdi. Lenin 1917-ci ilin dekabrında erməni Stepan Şaumyanı Bakıya fövqəladə komissar təyin etdikdən sonra Qafqazda erməni bolşeviklərinin təsiri daha da gücləndi.

Şaumyan yalnız Bakıya deyil, bütün Qafqaza cavabdeh olan problemli bolşevik rəhbər sayılırdı. Bu şəxslə bağlı Ermənistan arxivlərinə materiallar Bakıdan aparılmışdı. Azərbaycanda Şaumyanın fəaliyyəti ilə bağlı kifayət qədər tədqiqatlar aparılsa da, Ermənistanda “Şaumyan arxivi” hələ də bağlı saxlanılır. Onun erməni cəllad Andranik Ozanyanla yazışmaları, erməni siyasi və hərbi qruplaşmaları ilə əlaqələrinin heç də hamısı gün işığına çıxarımayıb. Bunlar ortaya çıxarılsa, məlum olacaq ki, ermənilər, əslində, bolşevik bayrağı altında taktiki dəyişiklik edərək əvvəllər başqa partiyalara mənsub şəxsləri bolşevik partiyasına daxil etmişlər. Erməni bolşeviklərinin də Şərqi Anadolu vilayətləri ilə bağlı planları var idi. Bu, hansısa konkret partiyanın proqramı deyildi – siyasi mövqeyindən asılı olmayaraq bütün erməni təşkilatlarına aid ümumi bir plan idi.

Ermənistan arxivlərindən əldə edilən yeni sənədlər göstərir ki, Moskvanın verdiyi göstərişlər hay planlarının həyata keçirilməsinə mane olub. Bolşevik inqilabından sonrakı illərdə Moskva Atatürk Türkiyəsini öz tərəfinə çəkmək siyasəti yürüdürdü və erməni bolşevikləri də Moskvanın göstərişlərini dəstəkləməyə məcbur edilirdi. Lakin ermənilər öz maraqlarından çıxış edirdilər. Bolşeviklər Rusiyada hakimiyyəti ələ keçirdikdən dərhal sonra “Türkiyə Ermənistanı” ilə bağlı yeni bir ümumi qərar açıqladılar. Lenin, Stalin, Bonç-Bruyeviç və Korbunov tərəfindən imzalanmış bu sənəd heç də onların uzun və kollektiv fəaliyyəti nəticəsində yaranmamışdı. 15 yanvar 1918-ci ildə Ümumrusiya Sovetlər Qurultayı tərəfindən təsdiq edilmiş bu sənədin, əslində, 29 dekabr 1917-ci ildə tələm-tələsik hazırlanması və dərhal icra olunması erməni bolşeviklərinin nə qədər üstün mövqedə olduqlarının göstəricisi idi. Onlar müharibədən çıxmış Rusiyanın Türkiyə ilə dost olmasını istəmirdilər. Ortaya çıxarılan “gizli” qrifli sənədlərdə “Türkiyə Ermənistanı” məsələsinə diqqətin çəkilməsi yerli təşkilatlar qarşısına bir vəzifə olaraq qoyulur, başqa sözlə, burada “erməni barmağı”nın olduğu üzə çıxırdı. Bu sənəddə “Türkiyə Ermənistanı” torpaqlarında millətlərin öz müqəddəratını təyinetmə hüququ prinsipi irəli sürülürdü və bu da bolşeviklərin siyasi şüarı kimi göstərilirdi. Bu, Rusiyada yaşayan ermənilərlə yanaşı, Osmanlı İmperiyasında yaşayan ermənilərə də aid edilirdi. Əslində bu, Rusiya bolşeviklərinin “Türk Ermənistanı” məsələsində daşnakların tərəfini saxladığını göstərirdi. Bu “inqilabi komitələr” özlərini sovet hakimiyyəti kimi təqdim etsələr də, əslində, onlar erməni milli məqsədlərinə xidmət edirdilər. Həmin dövrdə Azərbaycan türkləri və gürcülər bu komitələrin fəaliyyətinə etirazlarını bildirir, onları qərəzli hesab edirdilər. Ancaq bolşevik rəhbərliyi bu etirazlara əhəmiyyət vermir, erməni komitələrinə dəstəyi davam etdirirdi. Bütün bu faktlar göstərir ki, 1917–1918-ci illərdə Cənubi Qafqazda fəaliyyət göstərən erməni bolşevikləri “Türk Ermənistanı” planının həyata keçirilməsi üçün həm silahlı, həm də inzibati metodlardan istifadə ediblər. Moskvanın rəsmi göstərişləri ilə üzdə razılaşan bu dairələr yerli səviyyədə öz məqsədlərini həyata keçirirdilər.

Bolşeviklərin dekretinə görə Rusiyanın müharibə zamanı işğal etdiyi Türk torpaqlarını tərk etməsi, bunun müqabilində bölgədəki mülki əhalinin qorunması üçün erməni milis qüvvəsinin yaradılması, köç zamanı yerlərindən didərgin salınmış ermənilərin sərbəst şəkildə geri dönmələrinə icazə verilməsi və müvəqqəti yaradılmış “Erməni Xalq Nümayəndələri Soveti”nin başına Şaumyanın gətirilməsi ilə bu məsələlər həll olunmuş sayılırdı. Bolşeviklərin belə bir dekret qəbul etməklə ermənilərin “müdafiəçiləri” mövqeyinə keçmələrinin bir sıra siyasi səbəbləri vardı; Rusiyada sosialistlər və bolşeviklər arasında çoxsaylı ermənilər də var idi. Erməni irqçiliyinin daşıyıcıları bir anın içində “bolşevik donu” geyinmişdilər. Bu səbəbdən bolşeviklər Qafqazda ikinci dəfə hakimiyyətə gəldikdə, əvvəl bəhs edilən “Türkiyə Ermənistanı” ilə bağlı siyasətlərində taktiki dəyişikliyə getdilər. 1918-ci il təcrübəsinin səhv olduğunu söyləyən bəzi Qafqaz kommunistləri 1920-ci ildə yeni geosiyasi reallıqlar fonunda danışırdılar. Onlara qarşı olan erməni millətçiləri isə bu reallığı qəbul etmək istəmir, “Türkiyə Ermənistanı”nın müstəqilliyini rədd etməyi “Türk zalımlarının və cəlladlarının tərəfində olmaq” kimi dəyərləndirirdilər. Ortaya çıxarılan sənədlərdə bütün bunlar öz əksini tapıb.

Çar hökumətinin və Müvəqqəti Hökumətin həyata keçirməyə çalışdığı “Erməni dövləti” planını dəstəkləyən bolşeviklərin ilk addım olaraq “Türkiyə Ermənistanı” barədə dekret yayması bu dəstəyin göstəricisi idi. Erməni Milli Qurtuluş Komitəsinin sədri Simon Vratsyan 1921-ci ilin fevral ayında erməni üsyanının səbəbləri barədə yenə də “gizli” qrifi ilə saxlanılan şərhində əsas məsuliyyəti bolşevik rəhbərliyinin yanlış siyasətinə bağlayırdı. Ermənistanda bolşevik liderlərin erməni ordusunu və məmurlarını dağıtması, qonşularla problemləri həll edə bilməməsi, həbslər, müsadirələr və zülmlər nəticəsində xalq silahlı üsyana qalxmışdı. Üsyanın nəticələrindən danışan Vratsyan qeyd edirdi ki, erməni xalqı bir daha hüquqları uğrunda mübarizəyə hazır olduğunu sübut etmişdi. Onun fikrincə, bu üsyan bolşeviklərin xalq əleyhinə siyasətinin müəyyən qədər yumşalmasına səbəb oldu. Halbuki xalqın etirazının başqa səbəbləri də vardı.

**(ardı var)**

***Qfi ar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

**Qlobal miqyasda təhlükəsizlik arxitekturası kəskin şəkildə dəyişməkdədir. Xüsusilə Avropa İttifaqı və NATO çərçivəsində son illərdə baş verən hadisələr mövcud geosiyasi və hərbi-strateji reallıqları yenidən tərtib edir. Ukraynada davam edən müharibə təkcə Şərqi Avropa üçün deyil, bütövlükdə beynəlxalq sistemin güc balansı üçün dərin silkələnmə effekti yaradır.**

# Qlobal geosiyasətdə Cənubi Qafqazın strateji önəmi



Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar artıq yalnız iqtisadi deyil, həmçinin siyasi, texnoloji və maliyyə sferalarını da əhatə edir. Enerji asılılığının azaldılması, müdafiə sənayesinə rekord həcmdə investisiyaların yatırılması və ortaq hərbi-sənaye komplekslərinin qurulması Avropanın daha sərt, daha avtonom və təhlükəsizlik mərkəzli strateji kursa keçidini təsdiqləyir. Xüsusilə Almaniya, Fransa və Skandinaviya ölkələri müdafiə xərclərini əhəmiyyətli dərəcədə artıraraq yeni geosiyasi reallıqlara uyğunlaşmağa çalışırlar. Bu proses faktiki olaraq “strateji Avropa” ideyasını siyasi ritorikadan əməli fəaliyyət mərhələsinə çıxarır.

Digər tərəfdən, NATO-nun Ukraynaya verdiyi hərbi və siyasi dəstək Alyansın daha geniş regional təhlükəsizlik konfiqurasiyasında fəallığını artırdığını göstərir. Ənənəvi “qoruyucu çətir” konsepsiyası artıq “fəal və qarşılıqlı cavab modeli” ilə əvəzlənir. Baltikyanı ölkələr, Polşa və Şərqi Avropanın digər bölgələrində NATO-nun hərbi mövcudluğu ciddi şəkildə gücləndirilir.

Bu tendensiyalar fonunda yeni güc mərkəzlərinin formalaşması da diqqət mərkəzindədir. Məsələn, Hindistan texnoloji müstəqilliyini təmin etmək və Qərb texnologiyalarından asılılığı azaltmaq məqsədilə “Made in India” proqramı çərçivəsində yerli müdafiə sənayesini gücləndirir. Eyni zamanda, xarici texnologiyaların transferinə dair sərt şərtlər tətbiq edilir. Bu yanaşma Hindistanın yalnız regional deyil, həm də qlobal aktora çevrilmək istədiyini göstərir. Lakin bu hədəflərə nə dərəcədə nail olunacağı hələ də açıq sual olaraq qalır.

Asiyada isə Çin diplomatik fəallığını artıraraq yeni geosiyasi manevrlərə əl atır. Pekində keçirilən yüksək səviyyəli görüşlər, xüsusilə Şanxay Əməkdaşlıq Təşkilatı və BRICS çərçivəsində planlaşdırılan sammitlər, gələcək geosiyasi istiqamətlərin müəyyənləşdirilməsində mühüm rol oynaya bilər. Çin “sakit güc” siyasətini texnoloji və iqtisadi alətlərlə birləşdirərək Avrasiya və “Qlobal Cənub”da təsir dairəsini genişləndirməyə çalışır.

Belə bir şəraitdə yeni alyansların və strateji tərəfdaşlıqların yaranması qaçılmaz görünür. Avropa və Asiya ölkələri arasında təhlükəsizlik və texnologiya sahəsində əməkdaşlığın dərinləşməsi, ABŞ–Çin rəqabətinin qlobal təsir arealının genişlənməsi və “Qlobal Cənub” ölkələrinin neytrallıqdan selektiv əməkdaşlıq modelinə keçməsi yeni dünya nizamının konturlarını formalaşdırır.

Bu yeni qlobal düzəndə təhlükəsizlik, texnologiya və enerji diplomatiyası ön plana çıxır. Ölkələr öz strateji maraqlarına uyğun şəkildə yeni mövqelər və təsir zonaları formalaşdırmağa çalışır. Bu prosesdə Azərbaycanın yerləşdiyi region – Cənubi Qafqaz – strateji keçid zolağı kimi mühüm əhəmiyyət kəsb edir. Burada formalaşan reallıqlar qlobal geosiyasi proseslərin regional müstəvidə əksini tapdığı nümunəvi bir sahəyə çevrilmişdir.

Qafqaz regionu, xüsusilə Azərbaycan, coğrafi mövqeyi, inkişaf etmiş enerji və nəqliyyat infrastrukturu, həmçinin çevik diplomatik siyasəti ilə artan strateji əhəmiyyətə malikdir. Şərq ilə Qərb arasında körpü rolunu oynayan Azərbaycan, həm də Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin qovşağında yerləşməklə Avrasiya məkanında logistik təhlükəsizlik və enerji təchizatı baxımından mühüm aktor kimi çıxış edir.

44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni siyasi-hərbi balans, Azərbaycanın təşəbbüsü ilə gündəmə gətirilən sülh platformaları və çoxtərəfli əməkdaşlıq formatları vasitəsilə Cənubi Qafqazda dayanıqlı sabitliyə nail olunması istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Qərbin Rusiya üzərində təzyiqlərinin artdığı, İranın sanksiyalar şəraitində fəaliyyət göstərdiyi və Çinin regionla iqtisadi əlaqələrini gücləndirdiyi bir dövrdə Azərbaycanın çoxvektorlu diplomatiyası və neytrallığa əsaslanan balanslı siyasəti həm ölkənin, həm də regionun sabitliyi üçün həlledici rol oynayır.

Cənubi Qafqaz bu gün artıq təkcə münaqişələr və sərhəd problemləri ilə deyil, enerji təhlükəsizliyi, nəqliyyat əlaqələri, texnoloji əməkdaşlıq və iqlim dəyişikliklərinə qarşı mübarizə sahələrində də beynəlxalq gündəmin bir parçasıdır. Bakı–Tbilisi–Qars dəmir yolu, Cənub Qaz Dəhlizi kimi qlobal əhəmiyyətli layihələr Azərbaycanın iştirakı ilə həyata keçirilərək Avropa ilə Asiya arasında alternativ marşrutların inkişafına mühüm töhfə verir və regionu yeni güc mərkəzlərinin qovşağına çevirir.

Beləliklə, Cənubi Qafqazda formalaşan yeni reallıqlar artıq lokal yox, Avrasiya miqyasında geosiyasi və iqtisadi tendensiyaların barometri kimi çıxış edir. Azərbaycanın milli maraqları ilə beynəlxalq çağırışlar arasında qoruduğu tarazlı və ardıcıl mövqe isə bu proseslərin uzunmüddətli və dayanıqlı inkişafına zəmin yaradır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Süni intellekt siyasi ekspertlik də edir

## *O kimdir: Gələcəyin qərarvericisi, yoxsa ağıllı müşavir?*

**Müasir texnologiya hər gün həyatımızın yeni bir sahəsinə daxil olur. İndi artıq o, təkcə mobil telefonlarımızda, tibbi və hərbi sahədə və ya sənaye zavodlarında deyil, siyasi qərarların verildiyi dəyirmi masalarda da yer almağa başlayıb. Bəli, söhbət süni intellektdən gedir – milyonlarla məlumatı eyni anda analiz edə bilən, müxtəlif ideyaları təhlil edib ümumiləşdirərək təkliflər verən bu texnologiya hazırda bir çox ölkələrdə artıq siyasi ekspert və ya strateji məsləhətçi kimi sınaqdan keçirilir.**




Etiraf etmək lazımdır ki, bir neçə il əvvələ qədər süni intellektin siyasətlə məşğul olacağını düşünmək qeyri-real görünə bilərdi. Lakin bu gün reallığa çevrilib. Dünya təcrübəsində əldə olunan nümunələr bunu deməyə əsas verir. Məsələn, Danimarkada yaradılmış “Synthetic Party” adlı siyasi təşəbbüs süni intellektlə idarə olunur. Onun əsas vəzifəsi əvvəllər diqqətdən kənarda qalmış seçici təkliflərini toplayıb təhlil etmək və onları siyasi gündəliyə çevirməkdir. Bu təşəbbüs onu sübut etdi ki, keçmişdə səssiz qalmış insanların fikirlərini görünən etmək mümkündür.

Cənubi Koreyada isə seçki kampaniyası zamanı namizədlərdən biri öz “rəqəmsal əkizini”, yəni süni intellekt tərəfindən yaradılmış avatarlardan birini istifadə edərək seçicilərlə ünsiyyətə girib. Bu yanaşma gənc seçicilərin marağını artırıb və siyasətlə daha fəal maraqlanmalarına səbəb olub. Böyük Britaniyada isə “AI Steve” adlı layihə maraqlı sınaq işi kimi tarixə yazıldı. Burada süni intellekt seçicilərin suallarını cavablandırır, onların təkliflərini toplayır və namizəd bu təkliflərə əsasən siyasətini müəyyən edirdi. Bu layihə göstərdi ki, texnologiya siyasi qərarvermə prosesində vətəndaşların daha geniş iştirakına imkan yarada bilər.

Süni intellektin siyasi ekspert kimi istifadə olunmasının bir sıra üstünlükləri, eyni zamanda, riskləri də var. Onun üstünlükləri içərisində ilk olaraq süni intellektin sürət və analiz gücünü vurğulamaq lazımdır. Bu texnoloji yenilik saniyələr içərisində milyonlarla məlumatı təhlil edə, ictimai rəyin dinamikasını ölçə və hökumət üçün alternativ ssenarilər təqdim edə bilir. İkinci bir mütərəqqi tərəf onun daha geniş əhatə dairəsinə malik olmasıdır. Əhalinin müxtəlif təbəqələrinin fikirlərini eyni zamanda toplamaq və təhlil etmək insan gücü ilə çox çətin, bəzən isə mümkünsüz olsa da, süni zəka bunu yüksək dəqiqliklə operativ şəkildə gerçəkləşdirə bilir. Üçüncü təqdirəlayiq tərəf isə şəffaflıq və hesabatlılıqla bağlıdır. Əgər doğru tətbiq edilərsə, süni intellekt prosesləri daha şəffaf və izaholunan edə bilər. Məsələn, Niderland hökuməti süni intellekt vasitəsilə qəbul ediləcək yeni qanun layihələrinin sosial və iqtisadi nəticələrini əvvəlcədən ümumiləşdirir. Bu isə həm vətəndaşlara, həm də qərarvericilərə aydın baxış verir. Potensial risklərə gəlincə, bu zaman ağıla ilk olaraq qərəz, manipulyasiya və cavabdehlik sualları gəlir. Əlbəttə, süni intellektin istifadəsi ilə bağlı ciddi riskləri gözardı etmək olmaz. Ən böyük təhlükələrdən biri alqoritmlərin onları yaradanların yanaşmasından təsirlənə bilməsidir. Söz yox ki, əgər istifadə olunan məlumatlar qərəzlidirsə, nəticə də tərəfli olacaq. Digər tərəfdən, bu zaman texnologiyanın şəffaflığı həmişə təmin oluna bilmir. Süni intellektin verdiyi qərarın arxasında hansı məntiqin dayandığını anlamaq bəzi hallarda çətin olur. Ən mühüm məsələ isə cavabdehlikdir. Tutaq ki, süni intellektin verdiyi tövsiyə nəticəsində mənfi nəticələr ortaya çıxdı. Bu zaman məsuliyyəti kim daşıyacaq? Alqoritmi yazan proqramçı? Onu tətbiq edən siyasətçi? Yoxsa heç kim? Bu suallar hələlik cavabsızdır.

Hazırda ən uğurlu modellər insan və süni intellektin birlikdə çalışdığı “hibrid” modellərdir. Burada süni intellekt sadəcə məsləhətçi rolundadır, qərarları isə yenə də insanlar verir. Bu yanaşma həm texnologiyanın sürət və analiz gücündən istifadə etməyə, həm də insan etikası və təcrübəsini qorumağa imkan verir.

Tayvandda istifadə edilən "vTaiwan" adlı platforma bunun bariz nümunəsidir. Minlərlə vətəndaşın fikirlərini toplayan bu sistem onların təkliflərini qruplaşdırır, ortaq məqamları müəyyən edir və hökumətə təqdim edir. Beləliklə, vətəndaşla hökumət arasında daha canlı və səmərəli dialoq qurulur.

Bu bir reallıqdır ki, süni intellekt siyasi qərarların dəstəklənməsi sahəsində böyük imkanlar açır. O, daha obyektiv təhlil, daha şəffaf siyasət və daha geniş vətəndaş iştirakı vəd edir. Amma, eyni zamanda, ondan məsuliyyətsiz və nəzarətsiz istifadəsi zamanı yeni problemlər doğura bilər. Ona görə də bu texnologiyanın istifadəsində əsas prinsip belə olmalıdır: “İnsan qərar verir, texnologiya kömək edir”.

Azərbaycan kimi demokratik inkişaf yolunda inamla irəliləyən ölkələr üçün bu sahədə dünyadakı müsbət təcrübələri izləmək, amma milli maraqlara və hüquqi sistemə uyğun yanaşmalarla tətbiq etmək önəmlidir. Beləliklə, texnologiya bizim əlimizdədir. Ondan necə istifadə edəcəyimiz isə artıq siyasi mədəniyyətimizə, hüquqi çərçivəmizə və ictimai məsuliyyət hissimizə bağlıdır.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

# Azərbaycanın "yaşıl" enerji xəritəsinin miqyası genişlənir

(əvvəli 1-ci səhifədə)



Bu gün regional və qlobal gündəlikdə birmənalı şəkildə üstünlük qazanan əsas strateji istiqamətlərdən biri "yaşıl" enerjidir. İqlim dəyişmələrinin fəsadlarını azaltmaq, ekoloji tarazlığı qorumaq, dayanıqlı inkişafı təmin etmək və enerji təhlükəsizliyini gücləndirmək baxımından bu sektorun önəmi getdikcə artır. Azərbaycanın təşəbbüsü və liderliyi ilə son illər ərzində icrasına başlanan "yaşıl" enerji layihələri isə təkcə Cənubi Qafqazı deyil, daha geniş bir geosiyasi və enerji məkanını – Mərkəzi Asiya ilə Avropa arasında uzanan nəhəng coğrafiyanı əhatə edir. Bu mənada, Azərbaycanın yeni enerji dövründə mərkəzi qovşaq rolunu oynayacağı artıq təkcə ehtimal deyil, konkret faktlara söykənən bir reallıqdır.

Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyası çərçivəsində Azərbaycan "yaşıl" enerji sektoruna böyük siyasi və iqtisadi diqqət yetirir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun "yaşıl" enerji zonası elan olunması, Xəzər dənizinin külək enerjisi potensialının beynəlxalq konsorsiumlarla birgə inkişaf etdirilməsi, eləcə də bərpa olunan enerji sahəsində hüquqi və texniki bazanın gücləndirilməsi Azərbaycanın bu istiqamətdə sistemli və ardıcıl fəaliyyətini göstərir. Lakin bu fəaliyyət təkcə milli sərhədlərlə məhdudlaşmır. Azərbaycanın təşəbbüsü ilə irəli sürülən və artıq beynəlxalq sənədlərlə təsbit olunan layihələr ölkəmizin regional enerji arxitekturasında əsas istehsalçı, tranzit və paylayıcı mərkəzə çevrilməkdə olduğunu təsdiqləyir.

Bu kontekstdə xüsusi vurğulanmalı məqam 2022-ci ilin dekabrında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan "yaşıl" enerji sazişidir. Layihənin əsas mahiyyəti Qara dənizin dibi ilə elektrik ötürücü kabelin çəkilməsi və bu xətt vasitəsilə Azərbaycanda istehsal olunacaq bərpa edilən enerjinin Avropa bazarlarına çatdırılmasıdır. Beləliklə, Azərbaycan Xəzər dənizindən Qara dənizə və oradan Avropaya qədər uzanan "yaşıl" enerji dəhlizinin çıxış nöqtəsinə çevrilir. Bu layihə təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan olduqca stratejidir. Avropa İttifaqı uzunmüddətli enerji strategiyasında alternativ mənbələrə və etibarlı tərəfdaşlara xüsusi önəm verir. Azərbaycanın bu konteksdə "yaşıl" enerji sahəsində də etibarlı və sabit tərəfdaş kimi çıxış etməsi ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır.

Respublikamız bu gün karbohidrogen ehtiyatları ixraca yönəltməklə yanaşı, həm də innovativ enerji həlləri təqdim edən, yeni enerji formatlarını formalaşdıran mərkəzə çevrilir. Mövcud və perspektivdə olan "yaşıl" enerji layihələri, xüsusilə Xəzər dənizindəki külək enerjisi sahələri, Günəş elektrik stansiyaları və hidroenerji potensialı Azərbaycanın enerji balansında bərpa olunan mənbələrin çəkisini kəskin şəkildə artıracaq. Bu isə Azərbaycanı nəinki istehsalçı, həm də enerji ötürən və Avropada istehlaka yönəldən mühüm bir mərkəzə çevirəcək. Bu baxımdan Azərbaycan üzərindən keçən enerji dəhlizləri – həm neft və qaz kəmərləri, həm də gələcəkdə "yaşıl" enerji kabeli – ölkəmizin strateji tranzit rolunu gücləndirir. Beləliklə, Azərbaycan həm Mərkəzi Asiya ölkələrinin Avropaya çıxışında, həm də Avropanın alternativ enerji təchizatında etibarlı qovşaq ölkə funksiyasını icra edəcək.

Azərbaycanın "yaşıl" enerji sahəsində təşəbbüsləri həm də onun coğrafi mövqeyindən səmərəli istifadəni gerçəkləşdirir. Xəzər dənizinin digər sahilində yerləşən Mərkəzi Asiya ölkələri – xüsusilə Qazaxıstan, Özbəkistan və Türkmənistan – böyük bərpa olunan enerji potensialına malikdirlər. Lakin bu ölkələrin Avropa bazarlarına çıxışı məhduddur. Azərbaycan isə həm infrastruktur baxımından, həm də siyasi etibarlılığı ilə bu ölkələr üçün "enerji körpüsü" rolunu oynaya bilər. Bu məqsədlə Azərbaycan regional əməkdaşlıq platformalarını da fəal şəkildə təşviq edir. Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında "yaşıl" enerji alyansı formatında əməkdaşlıq modellərinin formalaşdırılması perspektivdə bu coğrafiyada vahid enerji bazarının yaranmasına əsas yaradır.

"Yaşıl" enerji layihələrinin icrası Azərbaycanın həm iqtisadi, həm də geosiyasi dividendlərini əhəmiyyətli dərəcədə artırır. Bir tərəfdən, bərpa olunan enerji sektorunun inkişafı investisiya cəlbediciliyini yüksəldir, iqtisadi şaxələndirməyə töhfə verir və məşğulluğu genişləndirir. Digər tərəfdən isə bu istiqamətdə reallaşan beynəlxalq tərəfdaşlıq formatları Azərbaycanın geosiyasi çəkisini gücləndirir.

BMT-nin İqlim Dəyişmələri üzrə COP29 Konfransına ev sahibliyi etməyə hazırlaşan Azərbaycan "yaşıl" enerji sahəsində praktiki nəticələrə əsaslanan nümunəvi mövqeyi ilə qlobal enerji keçidində fəal iştirakçı kimi çıxış edir. Bu isə ölkəmizin regional liderlikdən qlobal enerji siyasətində söz sahibi statusuna doğru irəlilədiyini göstərir.

Sonda qeyd etmək olar ki, Azərbaycan hazırkı qlobal enerji transformasiyasında öz tarixi fürsətini düzgün qiymətləndirərək "yaşıl" enerjini milli inkişafın əsas prioritetinə çevirib. Reallaşdırılan layihələr ölkəmizi Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında "yaşıl" enerjinin istehsal, ötürmə və paylanması üzrə strateji qovşaq halına gətirir. Bu, Azərbaycanın gələcək inkişafı və beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsi baxımından mühüm strateji üstünlükdür.

Prezident İlham Əliyev çıxışında, eyni zamanda, artıq Avropa banklarının faydalı qazıntı enerji növlərinə maliyyələşmə ayırmadığını, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) maliyyələşməni demək olar ki, dayandırdırdığını bildirib: "Buna görə isə əlbəttə ki, biz imkanlarımızı genişləndirmək üçün vəsait cəlb edə bilmərik. Bu gün Cənub Qaz Dəhlizi maksimal həcmdə fəaliyyət göstərir. Yeni məkanlar üçün biz interkonnektorlardan istifadə edirik. Ancaq əsas boru kəməri tam həcmdə doludur. Onu genişləndirmək üçün bizim əlavə maliyyə vəsaitinə ehtiyac var. Ona görə Avropa institutları bunu nəzərə almalıdırlar və siyasətlərində dəyişiklik etməlidirlər ki, biz əlavə vəsait cəlb edə bilək. Bu şəraitdə bu gün bizim üçün artıq tamamlanmış kimi görünən bir məsələ yenidən inkişaf etdirilə bilər".

Dövlətimizin başçısının çıxışında vurğuladığı kimi, qlobal enerji bazarında yaşanan dəyişikliklər fonunda Azərbaycanın həm konvensional, həm də bərpa olunan enerji sahəsində strateji mövqeyi gündəmdə əsas yer tutur. Qeyd olunmalıdır ki, AYİB və digər beynəlxalq maliyyə institutları artıq faydalı qazıntı əsaslı enerji layihələrinə maliyyələşmə ayırmamağa üstünlük verir. Bu isə, öz növbəsində, hazırkı geosiyasi və iqtisadi reallıqlarla uzlaşmayan bir tendensiyadır.

Azərbaycan, xüsusilə də Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bu strateji boru kəməri artıq maksimal həcmdə fəaliyyət göstərir. Onun genişləndirilməsi isə əlavə investisiya tələb edir. Prezident İlham Əliyevin bu şəraitdə Avropa institutlarına səsləndirdiyi çağırış – siyasətlərə yenidən baxılması və əlavə maliyyələşmə imkanlarının yaradılması – tamamilə əsaslı və vaxtında irəli sürülmüş bir təklifdir. Avropa Azərbaycanın qazına və "yaşıl" enerjisinə ehtiyac duyduğu bir dönəmdə tərəfdaşlıq münasibətləri daha konstruktiv və çevik şəkildə qurulmalıdır.

Bununla yanaşı, Azərbaycan yalnız qaz ixracatçısı kimi deyil, həm də "yaşıl" enerji istehsalçısı kimi Avropanın maraq dairəsindədir. Prezidentin vurğuladığı kimi, Avropanın öz daxilində külək enerjisi sahəsində xeyli təcrübəsi olsa da, bu sahədə də əməkdaşlıq imkanları genişdir. Azərbaycanın coğrafi mövqeyi – Avropa ilə Asiya arasında yerləşməsi – onu enerji tranzitində və istehsalında mühüm həlqəyə çevirir.

Azərbaycan artıq bu istiqamətdə bir sıra iri meqalayihələrin icrasına başlayıb və beynəlxalq tərəfdaşlarla əməkdaşlığa açıqdır. Ölkənin şaxələndirilmiş xarici siyasəti və beynəlxalq gündəliyi enerji sahəsində əməkdaşlığı gücləndirmək üçün əlverişli zəmin yaradır. Bu gün Azərbaycanın həm texniki, həm də siyasi imkanları "yaşıl" enerji sektorunda Avropa ilə birgə böyük layihələri imzalamağa şərait yaradır.

Prezident İlham Əliyevin Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə səsləndirdiyi bu strateji mesajlar Azərbaycan ilə Avropa İttifaqı arasında enerji əməkdaşlığının yeni mərhələyə keçməsinin zəruriliyini ortaya qoyur. Əgər Avropa enerji təhlükəsizliyini möhkəmləndirmək istəyirsə, o zaman Azərbaycanın həm təbii qazına, həm də gələcəyin enerjisi sayılan "yaşıl" enerjisinə daha çox diqqət ayırmalı və praktiki addımlar atmalıdır. Azərbaycan isə, öz növbəsində, bu əməkdaşlığa hər zaman açıq olduğunu bir daha nümayiş etdirir.

## "Dəmirli" yatağında mis hasilatı

**Böyük Britaniyanın Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan "Anglo Asian Mining Plc." şirkəti Qarabağdakı "Dəmirli" yatağında hasilata başlanılması üçün hazırlıq işlərinə start verib. Bu, şirkətin cari ildə istismara verdiyi ikinci yeni mədən olmaqla, onun çoxşaxəli və orta səviyyəli mis istehsalçısına çevrilmək strategiyasını dəstəkləyir. Bu barədə mədən şirkəti məlumat yayıb.**



Bildirilib ki, "Dəmirli" açıq üsulla istismar edilən böyük mədən olub, filiz flotasiya zavoduna daşınır. Layihə üzrə ətraf mühit və sosial təsir qiymətləndirməsi başa çatdırılıb, yeni tullantı anbarı üçün texniki layihələr hazırlanıb. Mədən və emal sahəsində əlavə 150 nəfər işə götürülüb, daha 50 nəfər isə digər mədənlərdən köçürülüb. "Anglo Asian" yaxın ərazidə yeni mis ehtiyatlarının araşdırılmasını da planlaşdırır. Şirkətin proqnozuna görə, 2025-ci ildə "Dəmirli"də 4 min ton mis konsentratı hasil olunacaq. Gələn ildən etibarən isə bu rəqəm illik 15 min tona qədər artacaq.

"Anglo Asian Mining Plc." şirkətinin baş icraçı direktoru Rza Vəzirov bildirib ki, Dəmirli" mədəni Qarabağ iqtisadi rayonunun bərpasına töhfə verəcək.

Qeyd edək ki, Britaniya şirkəti ölkəmizdə qızıl, mis və gümüş hasilatı ilə məşğuldur. Şirkət 2030-cu ilə qədər illik 50-55 min ton mis hasilatına nail olmağı hədəfləyir. Yeri gəlmişkən, qurum bu strategiya çərçivəsində cari ilin mayında "Gilar" mədənini də istismara verib.

## Ölkəmiz ÜDM istehsalında Cənubi Qafqaz lideridir

**2025-ci ilin birinci yarısında Azərbaycanda ümumi daxili məhsul (ÜDM) həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 3,5 faiz və ya 2,11 milyard manat artaraq 62,08 milyard manata çatıb. Bu barədə Media Təhlil Mərkəzi Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi rəqəmlərə istinadən məlumat yayıb.**




Mərkəzin yaydığı məlumatda bildirilir ki, ötən ilin I yarısında ÜDM-yə dair göstərici 59,97 milyard manat olub ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz və ya 0,45 milyard manat az deməkdir. Son 5 ilin ilk yarım illəri üzrə ən yüksək ÜDM istehsalı isə 63,39 milyard manat olmaqla 2022-ci ildə və ən az 40,76 milyard manatla 2021-ci ildə qeydə alınıb. 2021-ci ildə ÜDM həcminin kəskin azalması həmin dövrdə ölkədə və dünyada hökm sürən COVID-19 pandemiyası ilə bağlı olub.

Məlumatda qeyd olunur ki, son 5 ilin yanvar-iyun aylarında qeyri-neft-qaz sektorunda ÜDM istehsalı daim artsa da, 2022-ci ildən cari ilədək neft-qaz sektorunda azalma qeydə alınıb. Bu sektor üzrə yeganə artım isə 2022-ci ildə qeydə alınıb ki, bu da pandemiya ilə bağlı olub. Daha dəqiq desək, cari ilin I yarısında neft-qaz sektoru üzrə ÜDM istehsalı 19,09 milyard manat təşkil edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1,26 milyard manat və ya 6,2 faiz azdır.

2025-ci ilin yanvar-iyun aylarında qeyri-neft-qaz sektoru üzrə ÜDM istehsalı 2024-cü ilin rəqəmlərini 8,5 faiz və ya 3,37 milyard manat üstələyərək 42,99 milyard manata bərabər olub. Hesabat dövründə adambaşına düşən ÜDM həcmi isə cari ilin I yarısında 6 min 66,1 manat təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz və ya 181,7 manat çoxdur. Son 5 il üzrə adambaşına düşən ən yüksək ÜDM həcmi 2022-ci ilin I yarısında (6 min 307,4 manat) qeydə alınıb. Ən aşağı göstərici isə 2021-ci ildə, yəni pandemiya dövründə 4 min 72,4 manat olub.

Yeri gəlmişkən, Cənubi Qafqaz ölkələrinin Dövlət Statistika Komitələri tərəfindən açıqlanan rəsmi rəqəmlərin təhlili göstərir ki, 2025-ci ilin yanvar-mart aylarında Azərbaycan ÜDM həcminə görə regionun digər ölkələri arasında lider olub. Belə ki, cari ilin ilk rübündə ölkədə ÜDM həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 faiz və ya 0,5 milyard dollar artaraq 17,6 milyard dollara çatıb.

Gürcüstan 7,7 milyard dollarlıq ÜDM ilə ikinci sırada yer alıb. Qonşu ölkənin ÜDM həcmi Azərbaycanda olduğu kimi, ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 milyard dollar, faizlə ifadədə isə 6,9 faiz artım qeydə alınıb. Son sırada 5,4 milyard dollarlıq ÜDM həcmi ilə Ermənistan qərarlaşıb. Bu göstərici ötən ilin I rübündə qeydə alınan rəqəmlərlə müqayisədə 8 faiz və ya 0,4 milyard dollar çoxdur.

## Ağdam Sənaye Parkına 121 milyon manat investisiya yatırılıb

**Ağdam Sənaye Parkında fəaliyyət göstərən sahibkarlara 150 təsdiqedici sənəd verilib. Həmin sənədlər əsasında sahibkarlar idxal olunan texnika və texnoloji avadanlıqlara görə 8,5 milyon manatdan çox vəsaitə qənaət ediblər.**

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, ötən müddətdə sənaye parkında ümumi investisiyalarının həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Ağdam Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb. Bunun da hesabına parkda 650-dən artıq daimi iş yeri yaradılıb.

Qeyd edək ki, hazırda Ağdam Sənaye Parkında 10 müəssisə fəaliyyət göstərir. Hazırda 7 müəssisənin tikintisi davam edir, 16 müəssisənin isə layihələndirilməsi işləri görülür. Ümumilikdə isə, parkın ərazisinin 70 faizindən çoxu artıq sahibkarların istifadəsinə verilib.

Sənaye parkında sahibkarlar tərəfindən indiyədək 471 milyon manatdan çox məhsul satılıb ki, bunun da 17,7 milyon manatlıq hissəsi ixrac olunub. İstehsal edilən məhsullar daxili bazara satılmaqla yanaşı,



"Made in Azerbaijan" brendi ilə Gürcüstan, Birləşmiş Ərəb Əmirliklərinə, Özbəkistan, Qazaxıstan və s. ölkələrə ixrac edilir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ağdam: 32 il əvvəl və bu gün



(əvvəli 1-ci səhifədə)

Qafqazın Xirosimasına çevrilmiş şəhərdə və ətrafında 5 ilə yaxındır ki, bərpa və yenidəndurma işləri aparılır, şəhər bir növ sıfırdan qurulur. Keçmiş qaçqın və məcburi köçkünlər doğma yurd yerlərinə qayıdırlar. İtkilərin acısı unudulmur, amma Böyük Zəfərin, Böyük Qayıdışın fərəhi könüllərə sevinc, gözlərə işıq gətirir.

Həmin qara səhifəli tarixdən düz 32 il ötüb. Beş il öncə – 2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusu ölkəmizin əzəli torpaqlarının azadlığı uğrunda genişmiqyaslı əks-hücum əməliyyatları ilə uzun illər işğal altında olan torpaqlar rəşadətli Silahlı Qüvvələrimiz tərəfindən kəndbəkənd, qarışbaqarış azad edilib. Ermənistanın hərbi-siyasi rəhbərliyi kapitulyasiya aktını imzalamağa məcbur olub. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistanın Baş naziri Nikol Paşinyanın və Rusiya Prezidenti Vladimir Putinin 2020-ci ilin noyabrın 10-da imzaladıqları üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu noyabrın 20-də Azərbaycana qaytarılıb. Bununla da 27 il ərzində işğal altında olan Ağdam şəhəri qəsbkarlardan tamamilə azad edilib, həmin gün Azərbaycan Ordusunun bölmələri rayona daxil olub və orada bayrağımız ucaldılıb.



Surət Hüseynovun dili ilə desək, rayonları düşmənə “əlborcu” vermişdi ki, “taxt-tac”ını qoruya bilsin. Başqa sözlə, faciələrlə üz-üzə qalan camaatın başı öz dərdinə qarışsın, “ağanəzərlər” isə Bakıda, Gəncədə şellənə-şellənə gəzsinlər. Bunun bir adı vardı: siyasi idiotizm!

Əlbəttə, başıpozuqluğun nəticəsi elə də olmalı idi. Bu, Ağdamda döyüşçülərin əhval-ruhiyyəsinə tədricən mənfi təsir göstərdi.

Ovaxtkı iqtidardaxili münaqişələr də məğlubiyyətdə öz rolunu oynadı. Məsələn, Xalq Cəbhəsi ilə Surət Hüseynovun mövqeləri haçalandı. Dedilər ki, o, Ayaz Mütəllibova xidmət edir və s. Döyüşün qızğın vaxtında qəfildən qoşunları geri çəkdilər, qaçmağa başladılar. O vaxt Gəncə və Şəmkir batalyonu da bir növ hərəkətsiz oldu və s. Bir sözlə, AXC-Müsavat cütlüyü hakimiyyətdə olduğu bir il ərzində ölkəni



...2020-ci il 20 noyabr tarixi – Ağdamın azad olunduğu şanlı gün. Bu tarix xalqımız üçün qürur günüdür. Torpaqlarımız düşmən tapdağından azad edilib. Ağdam rayonu hərbi əməliyyat keçirilmədən siyasi yolla işğaldan azad edildi. Bu uğur Azərbaycan Prezidenti İlham Əliyevin böyük diplomatik bacarığının nəticəsidir. Azərbaycan Ordusu və xalqı onun ətrafında bir yumruq kimi birləşərək, qəddar düşməni torpaqlarımızdan qovdu.

Ağdamın xilası barədə qürur dolu hisslərlə danışmaqla bərabər, onun süqutunun – düşmənə verilməsinin əsas günahkarı olan AXC-Müsavat hakimiyyətinin cinayətlərini də təəssüflə qeyd edirik. Bir neçə il əvvəl Azərbaycan televiziyası ilə efirə getmiş “Qarabağ düyünü” verilişi yada düşür. Həmin proqramda təkzibedilməz faktlarla və əldə edilmiş təsvirlərin xronikasına əsasən, əhalinin vuruşa bilən hissələrinin səfərbər olunmasının çox pis vəziyyətdə olduğu göstərilirdi. İşğaldan bir-iki gün sonra həvəskar erməni operatorunun çəkdiyi kadrlar yanan - alovlanan Ağdamın acı, faciəli günlərini əks etdirirdi.

Kadrlardan bir şey aydın olurdu: işğalçılar inana bilmirlər ki, döyüşən, müdafiə olunan Ağdam asanlıqla ələ keçib. Həmişə haylar üçün gözdağı olan Ağdam xofundan həmişə qorxan ermənilər bu şəhərin küçələrində gəzmələrini böyük ssenarinin - baş planın həyata keçirilməsi hesab edirdilər. Amma zaman göstərdi ki, o vaxtkı fərsiz və ədabaz rəhbərlər, sapı özümüzdən olan küt baltalar olmasaydı, Qarabağın dayaq nöqtəsi olan Ağdam işğala məruz qalmazdı. Başı Bakıda hakimi-mütləqlik iddialarına qarışan cəbhə hakimiyyəti, di. 1993-cü ilin ortalarına qədər ölkəni idarə edən, yəni yuxarıda əyləşən səriştəsiz və hər yöndən həris, xəyanətkar insanlarin, dırnaqarası “dövlət rəhbərləri”nin günahı üzündən həmin dövrdə bütün döyüş bölgələrində olduğu kimi, Ağdamda da gərgin vəziyyət yarandı.

Belə ki, Şirin Mirzəyevin, Allahverdi Bağırovun, Yaqub Rzayevin döyüşlərdə həlak olması, demək olar, həm döyüşçülərin əhval-ruhiyyəsinə mənfi təsir göstərdi, həm də Ağdamda qara qüvvələrin əl-qol açmasına imkan verdi. Həmin dövrdə rayonun müdafiəsində iştirak edən oğulların birləşdiyi 836 nömrəli hərbi hissə 1992-ci ilin oktyabr ayında keçmiş müdafiə naziri Rəhim Qazıyevin əmri ilə ləğv edilmişdi. Bu, Ağdamın gələcəkdə işğalı üçün başlıca zəmin yaratdı. Qarabağ münaqişəsi başlayandan Ağdamda rəhbərliyin tez-tez dəyişdirilməsi rayonun müdafiə gücünü azaltmış, daxili çəkişmələri dərinləşdirmişdir. Nəticədə, yerli özünümüdafiə batalyonları ayrı-ayrı klanların şəxsi ambisiyası ilə döyüş mövqelərindən çıxarılmış, əsas yüksəkliklər asanlıqla düşmənə təhvil verilmişdi. Şəhərin işğalına qədər Qarqar çayı tərəfdəki ərazilər məhz Xalq Cəbhəsinin hakimiyyəti dövründə işğal olunmuşdu. Digər tərəfdən də Qiyaslıda ərazilər əldən çıxmış, ermənilər orada öz postlarını qurmuşdular. Nəticə özünü çox gözlətmədi. Döyüşən, müdafiə olunan Ağdam şəhəri ermənilərə təslim edildi, talan olundu. Xəyanət, satqınlıq erməni xülyasını reallığa çevirdi. Dəhşətli tarixi cinayət baş verdi. Bir sözlə, Ağdamın işğalının bünövrəsi Xalq Cəbhəsinin hakimiyyətə gəldiyi ilk gündən qoyulmuşdu.

tamamilə diz çökdürmüşdü. Başsız başçıların respublikanın idarəçiliyini zəbt etməsindən sonra ölkə “ölüm-qalım” dilemması qarşısında qalmışdı. Təbii ki, AXC-Müsavat cütlüyünün Bakıda hakimiyyəti silahlı yolla ələ keçirmək üçün Qarabağın müdafiəsində dayanan əsgərləri silahları və zirehli texnikaları ilə birgə Ali Sovetin ətrafına yığdığını da heç kim unutmayıb...

Bu gün 44 günlük “Dəmir yumruq” əməliyyatının qürur doğuran zəfər təntənələri hər bir vətənpərvər azərbaycanlının varlığına hakim kəsilib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev 2020-ci il noyabrın 20-də xalqa müraciətində Ağdam rayonunun yağı tapdağından xilas edilməsini noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatın nəticəsi kimi dəyərləndirib. Əsas müjdə bu idi ki, Azərbaycan Ağdam rayonunu hərbi əməliyyat keçirmədən, siyasi yolla işğaldan azad edərək öz yurisdiksiyasına qaytardı. Bu, rəhbərin ali sərkərdəlik məharətinin, siyasi iradəsinin, rəşadətli ordumuzun hünərinin, qalib xalqımızın mətanətinin tarixə qızıl hərflərlə yazılan zəfəri idi.

Artıq biz Qarabağda, o cümlədən Ağdamda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri ilə, “Böyük Qayıdış” Proqramının qətiyyətlə reallaşdırılması əzmi ilə dünyaya sübut etmişik ki, döyüşüb Qələbə qazandığımız kimi, işğaldan azad olunan bölgələrin dirçəldilməsini də eyni uğurla həyata keçirməyə qadir xalqıq.

***Ə.DOSTƏLİ***
***XQ***




# Şuşa Qlobal Media Forumu İtaliya mətbuatında

**İtaliyanın mətbu orqanları “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda keçirilən III Şuşa Qlobal Media Forumuna geniş yer ayırıb.**

“Giornale Diplomatico” portalının yaydığı materialda Azərbaycanın - Xankəndinin əlamətdar hadisəyə şahidlik etdiyi, qlobal gündəmi müəyyənləşdirən və beynəlxalq müstəvidə informasiya yayan media nümayəndələrinin artıq üçüncü dəfə Qarabağa toplaşdığı bildirilir.

Vurğulanır ki, bu tarixi hadisənin təşəbbüskarı Azərbaycan Prezidenti İlham Əliyevin əsas məqsədi qlobal informasiya bazarına nəzarət edən 52 ölkədən 80-dək media qurumu və 30-dək informasiya agentliyi vasitəsilə yeni Azərbaycanı dünyaya tanıtmaq idi. Şuşa Forumunun ilkin nəticələri və onun qısa müddətdə beynəlxalq mediada yaratdığı təəssürat onu göstərdi ki, tədbirdə səslənən bəyanatlar və fikirlər bir çox ölkələrdə ictimai rəydə ciddi rezonans doğurub.

“Kmetro0” portalının yaydığı materialda isə Prezident İlham Əliyevin həmişə olduğu kimi bu fürsətdən də istifadə edərək tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanı dünyaya tanıtdığı vurğulanır. Diqqətə çatdırılır ki, dövlətimizin başçısı ölkəmizin fəaliyyətini, qələbələrini, uğurlu modellərini Azərbaycan xalqının potensialının nümunələri kimi təqdim edib, məlum uğur hekayələrindən danışıb.

Vurğulanır ki, III Şuşa Qlobal Media Forumu “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusuna həsr olunsa da, Prezident İlham Əliyev tədbiri elə ilk cümləsindən daha geniş qlobal problemlərin müzakirəsi platformasına çevirib. Prezidentin fikirləri Azərbaycanın müstəqillik tarixinin bütün dövrlərini və onun siyasi-ictimai sistemini, o cümlədən ölkənin Qələbəsindən sonra seçdiyi yeni yolun mahiyyətini əks etdirən rəhbər konsepsiyadır.

Qeyd olunur ki, Forum zamanı Prezident İlham Əliyev ölkənin yaşıl gündəliyindən tutmuş qlobal iqlim dəyişikliyinə, ikitərəfli əməkdaşlıqdan beynəlxalq tərəfdaşlığa, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasından Qafqazda sülhün və tərəqqinin təmin edilməsinə, Azərbaycanın yerli inkişaf təcrübəsinin qlobal artıma verdiyi töhfələrdən, Zəngəzur və Orta dəhlizlərdən tutmuş yeni Avrasiya logistika layihələrinə, qitənin enerji təhlükəsizliyindən bəşəriyyəti təhdid edən müharibələrə, Ermənistanla sülh danışıqlarından tutmuş neokolonializmlə mübarizəyə, ABŞ-dan Çinə, Rusiyadan Latın Amerikasına, Avropa İttifaqından İslam Əməkdaşlıq Təşkilatına qədər bir çox mövzularda qəti mövqelərini ifadə edib.

***XQ***

# Naxçıvan sakinləri ilə görüş



**Bugünlərdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhər ictimaiyyətinin nümayəndələri və ziyalılarla görüşüb.**

Səlahiyyətli nümayəndə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər və qarşıda duran məsələlər barədə məlumat verib. 2023-cü ildə Naxçıvan şəhər ictimaiyyəti ilə keçirilən ilk görüşü xatırladan səlahiyyətli nümayəndə vurğulayıb ki, sakinlərin problemləri əsasında görüləcək işlər müəyyənləşdirilib və bu əsasda “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Dövlət Proqramı” hazırlanıb.

Dövlət Proqramına uyğun olaraq Azad İqtisadi Zona elan edilən Naxçıvanda Zəngəzur dəhlizinin reallaşması perspektivində nəqliyyat-logistika layihələri reallaşdırılacaq, sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılacaq, mühüm “yaşıl enerji” layihələri icra olunacaq, yeni günəş, külək və istilik elektrik stansiyaları inşa olunacaq, enerji ixracı potensialı artırılacaq və təmin olunacaq.

Fuad Nəcəfli ictimaiyyət nümayəndələrini Naxçıvan şəhərinin yeni Baş planı layihəsi ilə tanış edib.

Görüşdə çıxış edənlər Naxçıvan şəhərində yolların yenidən qurulması, infrastruktur quruculuğu və azad sahibkarlığın təmin olunması istiqamətlərində görülən işlərin məmnunluq doğurduğunu, bu işlərin sakinlərdə sabaha böyük ümidlər yaratdığını bildirib, göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.

***XQ***

# Qarabağ Universitetinin strateji hədəfləri

(əvvəli 1-ci səhifədə)

**– Şahin müəllim, gözəl Qarabağımızda xoş görüşdük. Hazırda bölgədə davam edən bərpa və quruculuq işləri kontekstində işğaldan azad olunmuş ərazilərimizdə yaradılmış ilk və hələ ki, yeganə ali təhsil müəssisəsi olan Qarabağ Universitetinin birillik fəaliyyətini necə dəyərləndirirsiniz?**

– Xoş görüşdük. İlk növbədə qeyd edim ki, Qarabağ Universitetinin yaradılması hadisəsi yalnız yeni bir ali təhsil müəssisəsinin qurulması deyil, eyni zamanda doğma Qarabağımızın dirçəlişini hədəfləyən uğurlu dövlət siyasətinin parlaq təzahürlərindən biridir. Vurğuladığınız kimi, hazırda dövlətimizin müəyyən etdiyi strateji inkişaf prioritetləri çərçivəsində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Bu proses yalnız fiziki infrastrukturun qurulması ilə məhdudlaşmır, həm də regionun sosial-iqtisadi reinteqrasiyası, əhalinin dayanıqlı məskunlaşması və insan kapitalının inkişafı ilə sıx bağlıdır. Bu baxımdan, Qarabağ Universitetinin yaradılması, faktiki olaraq, Qarabağın dayanıqlı inkişaf konsepsiyasında ali təhsilin və insan kapitalının rolunu mərkəzə çəkən və gələcəyə yönəlmiş bir addımdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli sərəncamı ilə Qarabağ Universitetinin yaradılması dərin strateji mahiyyət daşıyır. Bu qərar bölgənin iqtisadi potensialı, əmək bazarının tələbləri və burada həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesləri nəzərə alınmaqla verilib. Cənab Prezidentin universitetimizin açılışında qeyd etdiyi kimi, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir.

Universitetimiz "Böyük Qayıdış" proqramının tərkib hissəsi kimi, bölgənin sosial-iqtisadi canlanmasında mühüm yer tutur. Bu nöqteyi-nəzərdən, ölkənin və regionun ehtiyaclarına uyğun yüksək ixtisaslı mütəxəssislər, elmi və pedaqoji kadrlar hazırlamaqla, nəticəyönümlü tədqiqatlar və innovativ həllər təqdim etməklə regionun dirçəlişində pay sahibi olmağı hədəfləyən Qarabağ Universitetinin üzərinə önəmli vəzifələr düşür. Çünki bu gün dogma Qarabağımız yalnız fiziki olaraq deyil, həm də düşüncə, bilik və innovasiyalarla yenidən qururulur.

Bütün bunlar nəzərə alınaraq, Qarabağ Universiteti müasir və inteqrativ yanaşmalarla, interdisiplinar proqramlarla dəstəklənən yeni nəsil ali təhsil modeli əsasında inkişaf etdirilir. Bu yanaşma onu deməyə əsas verir ki, Qarabağ Universiteti bölgənin gələcək inkişafını dəstəkləyən ali təhsil müəssisəsidir. İnanırıq ki, universitetimizin uğuru təkcə akademik göstəricilərlə deyil, həm də Qarabağın gələcək inkişafında oynayacağı fəal rol ilə ölçüləcək. Qarabağ Universitetinin bu missiyanı uğurla yerinə yetirəcəyinə və bölgənin dirçəliş tarixində önəmli iz buraxacağına əminik. Fikrimizcə, bu ali təhsil ocağı gələcəkdə "postmünaqişə universitet inkişafı modeli" kimi beynəlxalq miqyasda nüfuz qazanacaq və bölgələrdə ali təhsilin inkişafı üçün yeni bir baxış bucağı təqdim edəcək. Möhtərəm Prezidentimizin vurğuladığı kimi, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir.

**– Qarabağ Universitetinin ilk tədris ili başa çatdı. Bu münasibətlə sizi və kollektivinizi təbrik edirik. Universitetinizdə tədris prosesi necə təşkil olunub?**

– Təşəkkür edirəm. İlk tədris ilimiz uğurlu və yaddaqalan hadisələrlə zəngin bir dövr kimi dəyərləndirilə bilər. Bu, ilk növbədə, dövlətimizin yüksək diqqət və qayğısı, strateji baxışları, o cümlədən Elm və Təhsil Nazirliyinin birbaşa dəstəyi sayəsində mümkün olub. İlk gündən etibarən atılan hər bir addım sistemli şəkildə planlaşdırılıb və peşəkar komandamız tərəfindən müvəffəqiyyətlə icra olunub.

Ən qürurverici və önəmli hadisələrdən biri 20 sentyabr 2024-cü il tarixində möhtərəm Prezidentimizin iştirakı ilə Qarabağ Universitetinin rəsmi açılışı oldu. Dövlət başçımızın açılış mərasimindəki "Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar" fikri bu tarixi hadisənin rəmzi mahiyyətini göstərdi.

İlk söhbətimizdə də bildirmişdim ki, bu tədris ili üçün əsas hədəflərimiz peşəkar akademik və inzibati heyətin formalaşdırılması, müasir infrastrukturun qurulması, qabaqcıl təhsil proqramlarının hazırlanması və universitetin tanıdılması idi. Biz bu hədəflərə nail olmağı bacardıq: Əksəriyyəti xarici universitetlərdə təhsil almış təcrübəli əməkdaşlardan ibarət heyət qurulub, 6 fakültə və 27 ixtisas üzrə tədris prosesi müasir təhsil yanaşmaları əsasında təşkil edilib. Ümumilikdə, universitetmizə ötən il 1104 tələbə qəbul olunub, onlardan 101 nəfəri 600-dən, 385 nəfəri isə 500-dən çox bal toplayıb. Bu isə ilk dəfə keçirilən tələbə qəbulunun keyfiyyətinin göstəricisidir.

Eyni zamanda, SABAH qruplarına keçirilən müsabiqədə uğur qazanan 60 tələbə universitetimizə transfer olunub. Tədris binaları ilə yanaşı, tələbələrin yerləşdirilməsi üçün yataqxanalar, əməkdaşların isə yaşayış binaları istifadəyə verilib. Universitet kitabxanası müasir standartlara uyğun formalaşdırılıb, müxtəlif dillərdə 17 mindən artıq vəsaitlə təchiz olunub.

Tələbələrin nəzəri biliklərini praktiki bacarıqlarla möhkəmləndirmək üçün müvafiq laboratoriyalar istifadəyə verilib. Fizika, kimya, mexatronika, robototexnika, kompüter və qrafiki dizayn, proqramlaşdırma sahələri üzrə 6 müasir laboratoriya tədris prosesinə inteqrasiya edilib. Bununla yanaşı, tədris zamanı simulyativ dərslərə geniş yer verilib. Misal olaraq, "Hüquqşünaslıq" ixtisası üzrə təhsil alan tələbələr üçün Xankəndi Şəhər Məhkəməsində təşkil edilmiş məhkəmə simulyasiyasını xüsusi qeyd edə bilərik. Belə dərslər tələbələrə biliklərini yoxlamaq və hüquqi prosesləri real mühitdə təcrübədən keçirmək imkanları qazandırıb.

Tələbələrin öyrənmə prosesini daha məhsuldar, motivasiyalı və effektiv etmək məqsədilə tələbə biliyinin qiymətləndirilməsi və imtahan qaydaları hazırlanaraq tətbiq olunub. Müvafiq qanunvericiliyə uyğun şəkildə hazırlanmış bu qaydalar çərçivəsində cari tədris ilində payız və yaz semestrinin imtahanları uğurla təşkil olunub. İmtahanlar fənlərin spesifikasına uyğun olaraq yazılı, qarışıq, şifahi, baxış və dinləmə formatlarında keçirilib.

Bir sözlə, Qarabağ Universitetində tədrisin keyfiyyətli təşkili istiqamətində qısa müddətdə mühüm nəticələrə nail olunub və ilk tədris ilində qazanılmış uğurlar növbəti tədris ili üçün möhkəm zəmin və əhəmiyyətli təcrübə formalaşdırıb.

**– Fəaliyyətiniz yəqin ki, tək bu istiqamətləri əhatə etməyib...**

– Bəli, yola saldığımız tədris ili universitetimiz üçün təkcə tədrisin təşkili baxımından deyil, həm də elmi, sosial və beynəlxalq fəaliyyətlər sahəsində mühüm uğurlarla yadda qalacaq. Belə ki, rəhbərlik etdiyim ali təhsil ocağı fəaliyyətini yalnız biliklərin ötürülməsi ilə məhdudlaşdırmayaraq, tələbələrdə analitik düşüncə, yaradıcılıq, milli-mənəvi dəyərlərə sadiqlik, innovativ yanaşma, qlobal təfəkkür və kommunikasiya bacarıqlarının inkişafına yönəlmiş müxtəlif tədbirlərlə genişləndirib. Bu istiqamətdə çoxşaxəli yanaşmanın uğurla həyata keçirilməsində əsas dayaqlardan biri tələbə mərkəzli idarəetmə modelinə əsaslanmaqdır. Qarabağ Universitetinin əsas strateji yanaşmalarından sayılan bu model tələbələrin universitet həyatına motivasiyalı şəkildə qoşulmalarına, öz fikirlərini sərbəst ifadə etmələrinə və qərarvermə proseslərində aktiv iştiraklarına şərait yaradır. Birinci kurs tələbələrinin akademik və sosial həyata rahat inteqrasiyasını təmin etmək məqsədilə oriyentasiya günləri, şəhər infoturları və maarifləndirici infosessiyalar təşkil olunub. Bu fəaliyyətlər sayəsində Xankəndidə ilk məskunlaşan tələbələrimizin şəhərə və universitetə adaptasiyası asanlaşıb.

Ümummilli liderimiz Heydər Əliyevin əbədiyaşar ideyalarına və zəngin irsinə əsaslanan dəyərlər sistemi Qarabağ Universitetinin təhsil fəlsəfəsinin əsasını təşkil edir. Xüsusilə Prezident cənab İlham Əliyevin "Birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır" fikri universitetin pedaqoji və sosialyönümlü fəaliyyətlərinə bələdçilik edir. Bu baxımdan, tələbələrimizin vətənpərvərlik ruhunun inkişaf etdirilməsi, milli-mənəvi irsimizin qorunması və yaşadılması başlıca prioritetlər sırasındadır. Ötən tədris ilində bu istiqamətdə silsilə sosial və vətənpərvərlik yönümlü tədbirlər həyata keçirilib, tarixi günlər və milli bayramlar geniş ictimai iştirakçılıqla qeyd olunub. Bu tədbirlər vasitəsilə gənclərdə tarixə hörmət, Vətənə bağlılıq, mədəni irsə dəyərvermə, sosial məsuliyyət və dayanıqlı inkişaf düşüncəsinin formalaşdırılması hədəflənib.

Ali təhsil ocağında tələbələrin yaradıcılıq potensialının və innovativ təşəbbüslərinin dəstəklənməsi məqsədilə bir sıra layihələr reallaşdırılıb, müxtəlif təlimlər və seminarlar keçirilib. Universitetimizdə fəaliyyət göstərən Beynəlxalq Dil Mərkəzi tərəfindən xarici dil biliklərinin gücləndirilməsi üçün intensiv proqramlar tətbiq olunub. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün müxtəlif idman turnirləri, intellektual yarışlar, konsert proqramları və maarifləndirici görüşlər təşkil edilib. Eyni zamanda, tələbə təşkilatları və maraq klublarının yaradılması təşviq olunaraq, onların universitet həyatında daha fəal rol almaları üçün münbit şərait yaradılıb.

Elmi tədqiqat sahəsində də 2024–2025-ci tədris ili ərzində əhəmiyyətli nəticələr əldə olunub. Universitet əməkdaşları tərəfindən SCOPUS elmi bazasında dərc olunan 14 məqalə beynəlxalq akademik ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Bu məqalələr 6 ölkənin 22 nüfuzlu universitetindən olan alimlərlə birgə hazırlanıb və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən 10-na birbaşa elmi töhfə verir. Qısa müddətdə əldə olunan bu nailiyyəti tədqiqat mərkəzli universitetə çevrilməyi hədəfləyən Qarabağ Universitetinin yalnız yerli deyil, həm də beynəlxalq elm məkanına inteqrasiyasını gücləndirən göstəricilərdən hesab etmək olar.

Eyni zamanda, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu ilə əməkdaşlıq çərçivəsində Qarabağ Universitetində "Azıx arxeoloji araşdırma və analizlər laboratoriyası"nın yaradılması xüsusi vurğulanmalıdır. Laboratoriya Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrantı çərçivəsində mikroarxeoloji analizlər üçün müasir cihaz və avadanlıqlarla təchiz edilib. Bu təşəbbüs regionun qədim tarixinin öyrənilməsinə və tələbələrin praktik araşdırma imkanlarının genişləndirilməsinə töhfə verir.

Nəticə etibarilə, 2024-2025-ci tədris ili Qarabağ Universiteti üçün yalnız fəaliyyətə başlama mərhələsi deyil, eyni zamanda möhkəm əsaslara söykənən gələcək inkişafın, akademik yüksəlişin və regionun dirçəlişində lider rola iddialı ali təhsil müəssisəsinin formalaşma dövrü kimi dəyərləndirilə bilər. Bu dövr universitetimizi həm tələbə yönümlü, həm də elmi-innovativ və milli dəyərlərə sadiq bir ali təhsil platforması kimi cəmiyyətə təqdim etdi.

**– İlk tələbələriniz barədə nə deyə bilərsiniz? Onların uğurları və fərqləndirici xüsusiyyətləri sizi qane edirmi?**

– İlk tələbələrimiz Qarabağda ali təhsilin yenidən bərpasının və intellektual dirçəlişin önündə gedən iştirakçılar sırasındadırlar. Bu gənclər Qarabağ Universitetinin çoxşaxəli akademik fəaliyyətinin fəlsəfəsini və gələcəyini formalaşdıran yeni nəslin nümayəndələridir.



Qeyd etdiyim kimi, 2024–2025-ci tədris ilində universitetimizə yüksək balla qəbul olan tələbələrin sayı çoxdur. Ən yüksək nəticə 683,8 balla "Hüquqşünaslıq" ixtisasına qəbul olan və Prezident təqaüdünə layiq görülən tələbəmizə məxsusdur. Üstəlik, respublika fənn olimpiadasının qalibi olan bir abituriyent "Elektrik və elektronika mühəndisliyi" ixtisasına müsabiqədənkənar qəbul olunub.

Bu faktlar təkcə statistik deyil, həm də fərqli bir yanaşmanın göstəricisidir. Bu tələbələr topladıqları yüksək ballarla ölkənin ən nüfuzlu ali təhsil müəssisələrinə rahatlıqla qəbul ola bilərdilər. Amma onlar Qarabağı seçdilər. Bu seçim isə yalnız akademik deyil, mənəvi və vətəndaş mövqeyindən doğan bir qərardır. Çünki bu gənclərin vətənpərvərlik hissi, missiya daşıma məsuliyyəti, sosial şüuru və yenilik axtarışı onların seçimlərini müəyyənləşdirən əsas xüsusiyyətlərdəndir.

Ötən il universitetimizə qəbul olan ilk tələbələrimizin bölgə və cins balansı da uğurla təmin olunub. Tələbələrimiz, demək olar ki, Azərbaycanın bütün regionlarını təmsil edir, bu da Qarabağ Universitetinin inklüzivlik və milli birliyi təşviq edən missiyasına güclü dəstəkdir. Cins bölgüsündə isə 54 faiz oğlan, 46 faiz qız olmaqla tarazlı tələbə profili formalaşıb.

Eyni zamanda, bir il fəaliyyət göstərməyimizə baxmayaraq, ilk tələbələrimizin qısa müddətdə qazandıqları uğurlar onların nə qədər potensiallı və məqsədyönlü olduqlarını sübut edir. Tələbələrimiz respublikamızda və xaricdə təşkil olunmuş çoxsaylı müsabiqə, forum, yarışma, olimpiada, festival və sərgilərdə yüksək nəticələr göstərərək, universitetimizi layiqli şəkildə təmsil ediblər.

Təbii ki, bütün bu uğurların qazanılmasında dövlətimizin güclü dəstəyi və peşəkar heyətimizin böyük zəhməti sayəsində universitetimizdə formalaşmış akademik mühitin rolu danılmazdır. Əsas məqsədimiz, yüksək akademik göstəricilərə və öyrənmə həvəsinə malik olmaları ilə yanaşı, tələbələrimizi güclü vətənpərvərlik və ictimai məsuliyyət hissinə, multidissiplinar düşüncə və yaradıcılıq potensialına, müasir texnologiya və innovasiyalara açıq yanaşmaya, komanda ruhu və liderlik bacarıqlarına, sosial fəallıq, könüllülük, milli dəyərlərə sadiqlik və mədəni duyarlılıq keyfiyyətlərinə sahib vətəndaş və cəmiyyətə dəyər qatan liderlər kimi yetişdirməkdir.

Məhz bu keyfiyyətlər əsasında Qarabağ Universitetinin tələbələri bu gün yalnız fəal və təşəbbüskar gənclər kimi deyil, eyni zamanda sabahın müəllimləri, alimləri, mühəndisləri, hüquqşünasları, iqtisadçıları, həkimləri, diplomatları, sənətkarları və liderləri kimi formalaşırlar.

**– Universitetin birillik fəaliyyəti ərzində beynəlxalq əməkdaşlıq sahəsində hansı addımlar atılıb və bu istiqamətdə əsas gözləntiləriniz nədən ibarətdir?**

– Qarabağ Universiteti ilk tədris ilindən etibarən beynəlxalq əməkdaşlıq sahəsində fəal və məqsədyönlü addımlar ataraq qısa müddətdə özünü qlobal ali təhsil məkanında tanıtmaq istiqamətində müvafiq işlər görüb. Əsas məqsədlərimizdən biri Qarabağımızın adını daşıyan ali təhsil ocağının beynəlxalq səviyyədə yüksək akademik reputasiyasına nail olmaqdır. Eyni zamanda, müasir dövrün tələblərinə və qabaqcıl təcrübələrə əsaslanaraq universitetin potensialının inkişaf etdirilməsi baxımından beynəlxalq əməkdaşlığın gücləndirilməsi strateji əhəmiyyət daşıyır.

İlkin dövrdə universitetimizin beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması, müvafiq beynəlxalq platformalarda təmsil olunması və qarşılıqlı faydalı bir sıra layihələrdə iştirakını təmin etmək məqsədilə müvafiq səfərlər, görüşlər və tədbirlər keçirilib. Universitet rəhbərliyinin ilk xarici rəsmi səfəri qardaş Türkiyəyə təşkil olunub və bu çərçivədə Ankara, Hacettepe, Qazi və Ankara Hacı Bayram Veli universitetləri ilə mühüm təmaslar qurulub. Bu səfərin davamı olaraq, iki nüfuzlu türkiyəli professorun Qarabağ Universitetində akademik fəaliyyətə başlaması bu əməkdaşlığın yalnız niyyət səviyyəsində qalmadığını, konkret nəticələr doğurduğunu nümayiş etdirir.

Çin Xalq Respublikasının Lanzhou şəhərində keçirilən "Kəmər və Yol" Universitetləri Alyansının 2024-cü il Forumunda və Tokioda keçirilmiş Beynəlxalq Universitetlər Assosiasiyasının konfransında və idarə heyəti iclasında Qarabağ Universitetinin də təmsil olunması Asiya regionunda da etibarlı tərəfdaşlıq münasibətləri qurmaqda maraqlı olduğumuzu göstərib.

Bundan əlavə, Qarabağ Universiteti ilə Dünya Azərbaycanlı Alimlər Birliyi arasında da əməkdaşlıq əlaqələri uğurla qurulub və konkret əməkdaşlıq istiqamətlərini əhatə edən birgə fəaliyyət planı təsdiq edilib. Plana ortaq elmi-tədqiqat layihələrinin icrası, müasir laboratoriyaların yaradılması, onlayn dərs və seminarların təşkili, xaricdə yaşayan azərbaycanlı alimlərin mühazirələrinin təşkili, birgə elmi konfrans, forum və simpoziumların keçirilməsi kimi mühüm istiqamətlər daxil edilib. Bu əməkdaşlıq Qarabağ Universitetinin diasporla, beynəlxalq alimlər cəmiyyəti ilə əlaqələrinin daha da gücləndirilməsinə xidmət edir.

2025-ci ilin əvvəlində Azərbaycan Respublikasının elm və təhsil nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri çərçivəsində İstanbul Texniki, Mərmərə, Koç və Yıldız Texniki universitetləri ilə əməkdaşlıq imkanları ətraflı müzakirə olunub. Nəticə olaraq Yıldız Texniki Universiteti ilə rəsmi əməkdaşlıq memorandumu imzalanıb. Bu sənəd tərəflər arasında birgə layihələr, tələbə-müəllim mübadiləsi və birgə elmi tədbirlərin təşkili baxımından əhəmiyyətlidir.

Universitetimizdə beynəlxalq miqyaslı tədbirlərin təşkili də bu prosesin mühüm hissəsidir. "Qarabağda gələcəyin tibb bacısı və həkim təhsili modeli" adlı beynəlxalq konfrans və VI Beynəlxalq Səyahət və Turizm Dinamikası Konfransı universitetin beynəlxalq akademik nüfuzunun yüksəldilməsinə xidmət edib. Bundan əlavə, ADA Universiteti və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda 7-ci ADA Siyasi Forumunun ilk günü Qarabağ Universitetində baş tutub ki, bu da, ali təhsil ocağımız üçün cari tədris ilinin ən əlamətdar və prestijli hadisələrindən biri olub.



Tələbələrimizin və əməkdaşlarımızın Türkiyə, Misir, Çin, Özbəkistan, Almaniya, ABŞ, İsrail, Portuqaliya, Gürcüstan və digər ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirakı isə Qarabağ Universitetinin adının artıq 4 qitədə tanınması və layiqli şəkildə təmsil olunması istiqamətində önəmli addımardan sayılır. Bu tədbirlər vasitəsilə universitetin öz inkişaf modelini təqdim etməsi və qlobal akademik platformalara çıxışı onun gələcək beynəlxalq layihələrdə tərəfdaşlıq etmək imkanlarını genişləndirir.

Növbəti illərdə beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi diqqət mərkəzində saxlanılır. İlk növbədə, dost və qardaş ölkələrin universitetləri olmaqla, nüfuzlu xarici ali təhsil müəssisələri ilə müvafiq ixtisaslar üzrə ikili diplom proqramlarının təşkili, birgə laboratoriyaların yaradılması, tələbə və akademik heyətin mübadiləsi, ortaq elmi fəaliyyətlərin və layihələrin həyata keçirilməsi əsas gözləntilər sırasındadır. Qarabağ Universiteti gələcəyə yalnız lokal ehtiyaclarla deyil, həm də qlobal dəyərlərlə baxaraq inkişaf edir. Bu yanaşma universitetimizi həm regional, həm də beynəlxalq səviyyədə elm və təhsil mərkəzinə çevirmək üçün möhkəm zəmin yaradır və qlobal akademik əməkdaşlıq imkanlarını daha da artırır.

**– Artıq ikinci tədris iliniz yaxınlaşır. Hazırlıq işlərinin gedişi və Qarabağ Universitetinin əsas hədəfləri barədə fikirlərinizi bölüşməyinizi istərdik.**

– Universitetimiz qısa müddət ərzində əhəmiyyətli inkişaf mərhələsini uğurla keçərək, artıq ikinci tədris ilinə hazırlaşır. Elm və Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, növbəti tədris ilinə hazırlıqla bağlı kompleks fəaliyyət planı təsdiq edilib və bu çərçivədə hazırlıq proseslərinə sistemli şəkildə start verilib. Fəaliyyət planında universitetin strukturunun təkmilləşdirilməsi, tələbə qəbulu proqnozları, yeni ixtisasların yaradılması və digər vacib istiqamətlər nəzərə alınıb, müvafiq addımlar artıq praktik icra mərhələsindədir.

Məlumat üçün bildirim ki, yeni tədris ili üçün müəyyənləşdirilmiş əsas hədəflərdən biri tələbə qəbulunun artırılmasıdır. Belə ki, 2025–2026-cı tədris ili üçün Qarabağ Universitetinə 1440 tələbənin qəbul olunması nəzərdə tutulub və bu da əvvəlki tədris ili ilə müqayisədə təqribən 300 nəfərdən çox artım deməkdir. Universitetimizdə Pedaqoji, Humanitar və sosial elmlər, İncəsənət, İqtisadiyyat, Turizm və Mühəndislik fakültələri ilə yanaşı, yeni yaradılmış Tibb və sağlamlıq elmləri fakültəsində də kadr hazırlığı aparılacaq. Eyni zamanda, əlavə olaraq 10 yeni ixtisas - "Biologiya müəllimliyi", "Kimya müəllimliyi", "Coğrafiya müəllimliyi", "Tarix müəllimliyi", "Bəstəkarlıq", "Musiqişünaslıq", "Riyaziyyat", "Data analitikası", "Tibb" və "Tibb bacısı (qardaşı) işi" üzrə tələbə qəbulu həyata keçiriləcək. Beləliklə, bu yeniliklərlə birlikdə Qarabağ Universitetində bakalavriat səviyyəsində tədris ediləcək ixtisasların sayı 25-dən 35-ə yüksələcək.

Yeni ixtisasların açılması və fakültələrin genişləndirilməsi ilə paralel şəkildə akademik və inzibati heyətin formalaşdırılması prosesi də aparılır. Müvafiq vəzifələrin tutulması ilə bağlı elanlar müntəzəm olaraq Qarabağ Universitetinin rəsmi saytında və sosial şəbəkə hesablarında təqdim edilir. İşə qəbul zamanı yüksək elmi-pedaqoji səviyyə, beynəlxalq təcrübə və müasir tədris metodlarına bələdlik əsas seçim meyarları kimi götürülür. Universitetin davamlı inkişafı baxımından insan kapitalının keyfiyyəti həlledici faktor olduğundan, bu sahəyə xüsusi həssaslıqla yanaşılır.

İnfrastruktur baxımından da ciddi addımlar atılır. Artan tələbə və əməkdaş kontingentini nəzərə alaraq, yeni tədris korpusları və yataqxanaların tikintisi və əsaslı təmiri işləri aparılır.

Bunlardan əlavə, tələbə qəbulu planının uğurla yerinə yetirilməsi məqsədilə abituriyentlərlə aktiv kommunikasiya strategiyası hazırlanıb və icra olunur. Abituriyentlərlə əlaqələrin gücləndirilməsi və universitetin tanıdılması üçün cari ilin may ayından başlayaraq təbliğat fəaliyyətinə geniş yer verilib. Respublikanın əksər bölgələrində abituriyentlər və onların valideynləri ilə keçirilmiş görüşlər, yerli və beynəlxalq təhsil sərgilərində aktiv iştirak bu istiqamətdə aparılan işlərin əsasını təşkil edib. Eyni zamanda, Qarabağ Universitetinin təklif etdiyi imkanlar rəsmi internet saytımız və sosial şəbəkə hesablarımız vasitəsilə geniş auditoriyaya çatdırılıb. Bu təbliğat fəaliyyətinin nəticəsi olaraq universitetə maraq və müraciətlərin artdığı müşahidə olunur.

Yeni mərhələdə xüsusilə diqqət mərkəzində olan əsas məsələlərdən biri də Tibb və sağlamlıq elmləri fakültəsinin strukturlaşması və fəaliyyətə başlamasıdır. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidentinin 7 fevral 2025-ci il tarixli Fərmanına əsasən, Qarabağ Universitetinin tabeliyində "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxs yaradılıb. Klinikanın Qarabağ Universitetində tibb ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin etməsi, tibb sahəsində elmi tədqiqatlar aparması, regionda əhalinin sağlamlığının qorunmasında iştirak etməsi nəzərdə tutulub. Qarabağ Universitetinin Tibb və sağlamlıq elmləri fakültəsində yerli və xarici ekspertlərin birgə hazırladığı, beynəlxalq təcrübələrə uyğun kompetensiyaya əsaslı 6 illik "Tibb" və 4 illik "Tibb bacısı (qardaşı)" proqramlarının tədrisi həyata keçiriləcək. 2025/2026-cı tədris ili üçün universitetimizdə sözügedən ixtisaslar üzrə müvafiq olaraq 70 və 30 tələbə qəbulu planı yeri proqnozlaşdırılıb.

Təbii ki, bu qədər qısa müddət ərzində belə mühüm yeniliklərə nail olunması bir sıra mühüm amillərdən qaynaqlanır. İlk növbədə, dövlətimizin göstərdiyi yüksək diqqət və qayğı, eləcə də Elm və Təhsil Nazirliyinin, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin davamlı və koordinasiyalı dəstəyi, həmçinin, beynəlxalq və yerli tərəfdaşlarla qurulan effektiv əməkdaşlıq mühiti bu prosesin mühüm dayaqlarıdır. Bundan başqa, universitetin akademik və inzibati heyətinin fədakar əməyi, tələbə kollektivinin enerjisi və ictimai dəstək universitetimizin sürətlə inkişaf edən elm və təhsil mərkəzinə çevrilməsində aparıcı rol oynayır.

Məhz bu dəstəyə arxalanaraq, ali təhsil ocağımız gələcək üçün iddialı strateji hədəflərə köklənib. Başlıca məqsədimiz Qarabağ Universitetini ölkənin, o cümlədən regionun innovasiya və bilik ekosisteminin aparıcı drayverinə çevirmək, dayanıqlı inkişaf əsaslı, tələbə mərkəzli və tədqiqat yönümlü nümunəvi bir ali təhsil müəssisəsi kimi formalaşdırmaqdır. Atılan hər bir addım və həyata keçirilən hər bir təşəbbüs Qarabağ Universitetinin bölgədə milli dirçəlişə töhfə verən nüfuzlu ali təhsil mərkəzi kimi formalaşmasına yönəlmiş strateji vizyonunun ayrılmaz tərkib hissəsidir.

– Müsahibə üçün təşəkkür edirik.

*Söhbəti qələmə aldı:*
***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

Şuşada Vaqif Poeziya Günləri

# Ruhun, sözün ölməz şeiriyyəti



**Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı ilə növbəti Vaqif Poeziya Günləri keçirilib.**

Görkəmli şairin ana yurdu Qazax rayonunda başlayan (14 iyul) poeziya bayramı Gəncə (15 iyul) və Ağdamdan (16 iyul) sonra iyulun 22–23-də mədəniyyət paytaxtımız Şuşa şəhərində davam edib.

Vaqif Poeziya Günlərinin silsilə tədbirləri dahi şairin məqbərəsi önündə başlanıb. Açılış mərasimində mədəniyyət naziri Adil Kərimli, AYB-nin sədri, Xalq yazıçısı Anar, Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, tanınmış ədəbiyyat və mədəniyyət xadimləri, doğma yurda qayıtmış şuşalı poeziyasevərlər iştirak ediblər.

AYB-nin sədri Xalq yazıçısı Anar Molla Pənah Vaqifin milli ədəbiyyatın inkişafında xidmətlərindən söz açıb. Vaqif Poeziya Günlərinin əhəmiyyətini qeyd edən yazıçı deyib ki, xalqın varlığı onun ədəbiyyat və mədəniyyəti ilə təzahür edir: “Bu müqəddəs məkanda – Vaqifin məqbərəsinin önündə poeziyanın və ədəbiyyatın bayramını qeyd edirik. Bu, mənim üçün həm qürurverici, həm də sevindirici bir hadisədir”.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxışında vurğulayıb: “Türk dünyasının ortaq mədəni dəyərlərinin bu cür tədbirlər vasitəsilə yaşadılması və dünyaya tanıdılması təqdirəlayiq təşəbbüsdür. Bizim Fondun Azərbaycan mədəniyyəti və ədəbiyyatı ilə bağlı həyata keçirdiyi layihələr az deyil. Elə biri 2023-cü ildə Molla Pənah Vaqifə həsr olunan “Özü vəzir, sözü şah” adlı nəşrdir. Bu yöndə çalışmaları davam etdirəcəyik”.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov çıxışında Şuşa şəhərini və Molla Pənah Vaqifi Azərbaycan intibahının yadigarı kimi səciyyələndirib. Alim Vaqifin özündən sonrakı ədəbi prosesə böyük təsir göstərdiyini də diqqətə çatdırıb: “Bu torpaq Vaqifin ruhunu yaşadır, bu şəhər onun sözünün, fikir dünyasının möhtəşəm təcəssümüdür. Qazaxdan başlanan və Şuşada öz zirvəsinə çatan yaradıcılıq yolu, əslində, Azərbaycan ədəbiyyatının özüdür”.



Şair, ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru, əslən şuşalı olan Ramil Əhməd Şuşanın zəngin tarixinin və əsrarəngiz təbiətinin ilham mənbəyi olduğunu bildirib, şeirini səsləndirib.

Çıxışların ardınca “Vaqifə məktub” esse müsabiqəsi qaliblərinin mükafatlandırması mərasimi olub. Məlumat verilib ki, Mədəniyyət Nazirliyinin iki ay əvvəl elan etdiyi müsabiqənin əsas məqsədi yaradıcı potensialı olan hər bir kəsin diqqətini bir daha Molla Pənah Vaqifin yaradıcılığına yönəltməklə yeni əsərlərin yazılmasına ruhlandırmaqdır. Müsabiqəyə 175 esse təqdim olunub. Komissiyanın qərarı ilə Təhminə Verdiyeva (“Ruhun və tarixin qovuşduğu Şuşa”) 1-ci, Natəvan Bağırova (“Vaqifə müraciət”) 2-ci, Elvin Əhməd (“Ömrün sıfır nöqtəsi və ya iki misraya sığan həyat”) 3-cü yerə layiq görülüb və mükafatlandırılıblar.

Sonra Molla Pənah Vaqifə həsr olunmuş “Səda içində söz” kompozisiyası və “İgidlərin sözü” layihəsi təqdim edilib. Məram 44 günlük Vətən müharibəsi döyüşçü-şairlərinin yaradıcılıq nümunələrini nümayiş etdirmək idi. Qarabağın azadlığı naminə qələmlərini silaha çevirmiş şairlər öz şeirlərini səsləndiriblər. Həmin gün axşam Xurşidbanu Natəvanın evinin qarşısında maraqlı konsert proqramı təqdim olunub.

Dünən isə Poeziya Günləri çərçivəsində Şuşanın müxtəlif tarixi və mədəni məkanlarında – o cümlədən Heydər Əliyev Fondunun bərpa etdiyi Vaqifin muzey-məqbərə kompleksi, Qarabağ hoteli və Mehmandarovlar malikanəsində şeir saatları, kitab sərgiləri və təqdimatları, musiqili kompozisiyalar, elmi konfrans, teatr tamaşaları və müxtəlif ədəbi-bədii proqramlar təşkil olunub.

Poeziya saatında çıxış edənlər Vaqif Poeziya Günlərini ədəbiyyatsevərləri bir araya gətirən mühüm mədəni hadisə kimi dəyərləndiriblər. Vurğulanıb ki, Vaqif Poeziya Günləri həm klassik ədəbi irsi təbliğ edir, həm də çağdaş ədəbi mühitin inkişafına, yeni ədəbi simaların tanıdılmasına və poeziya mədəniyyətinin yaşadılmasına töhfə verir. Tədbir zamanı Xalq yazıçısı Anarın “2=3+4, yaxud iki ailədə üç Xalq yazıçısı, dörd Xalq şairi” adlı kitabının təqdimatı olub. Qeyd edilib ki, Anar uzun illər ərzində təkcə öz yazdıqlarını deyil, qəhrəmanlarının – Səməd Vurğun, Rəsul Rza, Nigar Rəfibəyli, Vaqif Səmədoğlu, Ənvər Məmmədxanlı və Yusif Səmədoğlunun yazdıqlarını eyni ideya-estetik yaradıcılıq məcrasına qoşaraq, bir axında birləşdirib.

Bayramın son günündə “Sözün hökmdarı” adlı teatr tamaşası da nümayiş olunub. Quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev, ssenari müəllifi isə yazıçı İlqar Fəhmi olan səhnə əsərində vaxtilə hökmdar olmuş şəxslərin sözə, şeirə münasibəti və hökmdar olduqları halda belə ruhlarında daşıdıqları incəliklər əks olunub. “Üzeyir bəy deyərdi ki...” (quruluşçu rejissor Əməkdar artist Loğman Kərimov) adlı tamaşa da dahi bəstəkarın 140 illiyi ərəfəsində böyük maraq doğurub.

Təməli ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə Şuşada qoyulmuş bu şeir-sənət bayramı bir daha sübut edir ki, azad olunmuş torpaqlarda mədəni həyatın dirçəlməsi sadəcə fiziki yenidənqurma deyil – bu həm də ruhun, sözün və yaddaşın bərpasıdır. Vaqif Poeziya Günləri isə bu ruhun canlı simvoludur. Şuşada poeziya təkcə oxunmur, həm də hiss olunur, yaşayır, yaddaşlara köçür.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Ürəklərə düşən “Ümid işığı”



**Milli Mətbuatımızın 150 illik yubileyi bu sahədə yorulmadan qələm çalan həmkarlarımızdan biri – yazıçı-publisist, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Zemfira Məhərrəmli üçün ikiqat bayramdır. Çünki bu il həm də onun 70 yaşı tamam olur. Jurnalistikada yaradıcılıq uğurlarına görə Həsən bəy Zərdabi, “Qızıl qələm”, ədəbi fəaliyyətinə görə Prezident təqaüdü (2019) və “Araz” mükafatına layiq görülüb.**

Bu yaxınlarda Şuşa Dövlət Musiqili Dram Teatrında Zemfira Məhərrəmlinin “Ümid işığı” pyesi uğurla tamaşaya qoyulub. Yazıçı-esseist Kənan Hacının bu barədə qeydlərini oxuculara təqdim edirik:

Teatrlarımızda müasirlərimizin həyatını özündə əks etdirən tamaşalara çox nadir hallarda rast gəlirik. Dövrün, zamanın nəbzini tuta bilən dram əsərlərinə, nədənsə, az müraciət olunur. Tamaşaçılar teatra zamanla səsləşən əsərləri görmək üçün gəlir və təəssüf ki, ümidləri doğrulmur. Müasirlik ruhu ilə yaşayan teatrlar, demək olar ki, çox azdır. Bu da tamaşaçını teatrdan müəyyən qədər uzaqlaşdırır. Əlbəttə, klassika ölməzdir, əbədidir. Lakin yaşadığımız dövrün mənzərəsi də özünün səhnə təcəssümünü tapmalıdır. Yeni dövrün öz dramaturqları yetişməlidir. Teatr nəzəriyyəçisi Piter Bruk yazır ki, “tamaşaçı teatrda elə bir şey axtarır ki, sonda bu sözləri deyə bilsin: “Bu, real həyatda baş verənlərdən daha maraqlıdır”.

Yazıçı-publisist Zemfira Məhərrəmlinin “Ümid işığı” pyesi bu baxımdan maraq kəsb edir. Bir-birindən gözəl nəsr əsərlərinin müəllifi olan Zemfira xanım bu dəfə qələmini dram janrında sınayıb və nəticədə lirik-psixoloji üslubda uğurlu səhnə əsəri ərsəyə gəlib. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nazir Rüstəmovdur. Səhnə əsərində üslub vəhdəti, teatrallıq, yaradıcı heyətin böyük eşq və həvəslə rejissor fikrini parlaq ifadə etməyə çalışdığı görünür. Bu da tamaşanın əsas ideyasını, dərin fəlsəfi məzmununu açmağa kömək edir.

Gənclərin cəmiyyətlə münasibəti, sevgi xətti, həyatda qarşılaşdıqları çətinliklər, sosial maneələrə müqavimət hissi vahid dramaturji süjet xəttinə tabe etdirilir. Müəllifin təbirincə desək, əsər yalnız bir dramaturji təcrübə deyil, eyni zamanda, onun illərlə qəlbində yetişdirdiyi duyğuların, düşüncələrin və həyat fəlsəfəsinin poetik ifadəsidir.

Tamaşadan əvvəl çıxış edən tənqidçi-ədəbiyyatşünas Əsəd Cahangir bildirdi ki, əsərdə hər bir insanın həyatdakı “ümid payı”, bu ümidin arxasınca gedənlərin yaşadığı daxili ziddiyyətlər və həyata bağlılıq hissləri poeziya ilə dolu dillə təqdim olunur. Tamaşanın sonunda isə klassik sonluqdan fərqli olaraq, final açıq və sual işarəsi ilə bitir, tamaşaçını düşünməyə vadar edir.

Bəzi hallarda valideynlər fərqinə varmadan gənclərin sevgisinə mane olur, onların ülvi duyğuları maddiyyatın qurbanı olur və bu da onların mənəvi dünyasının dağılmasına səbəb olur. Bu məqamlarda onların hiss və duyğuları imtahana çəkilir. Biri iradəli olsa da, o biri iradəcə zəif olur. Bəzən də bu süni manelər faciə ilə nəticələnir. Belə hallarla azmı rastlaşırıq? Müəllif bu məqama diqqət çəkir və sevən aşiqlər üçün ümid işığı buraxır. Bu ümidə sığınıb onun işğında isinmək olar. Səhnədə bu gəncləri əhatə edən qeyri-sağlam mühiti görürük. Bu mühitdə yaşanan ziddiyyətlər dramaturq tərəfindən uğurla öz bədii həllini tapır. Aktyorların oyunundakı daxili hərarət, temperament tamaşaçını ələ alır, duyğulandırır, onlar özlərini hadisələrin iştirakçısı kimi hiss edirlər. İki sevən gəncin qovuşmasını sidq-ürəkdən arzulayırlar.

Arzulara gedən yolları ümid işıqlandırır. Personajlarla birlikdə tamaşaçıların da qəlbində bir ümid işığı közərir. Hər şeyin xoşbəxt sonluqla bitəcəyi ümidilə zalı tərk edirlər. Hər kəs bu tamaşadan ürəyində bir ümid işğı apardı. Çox güman ki, dəyərli yazıçımız Zemfira Məhərrəmli bundan sonra da müasirlərimizin həyatından bəhs edən maraqlı dram əsərləri ilə tamaşaçıları və qələm dostlarını sevindirəcək.

Tamaşada əsas obrazları Zəhra Salayeva, Sürahi Əliməmmədova, Emin Sevdiməliyev və Cavidan Kəsəmənli canlandırıb. Səhnə əsərinin quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Azər Məmmədovdur.

***Kənan HACI***

# Maddi-mədəni irs tarixin kimlik möhürüdür

**Ötən günlərdə tarixi minilliklərə dayanan Naxçıvanımızın ilkin yaşayış məskənlərindən olan Gəmiqaya və Göy-Göl tarixi əraziləri və qədim Qəbələ şəhəri UNESCO-nun maddi-mədəni tarixi irsinin ilkin siyahısına əlavə olundu. İlkin siyahı isə hələ mədəni tarixi irsimizin beynəlxalq qurum tərəfindən tam qorunması demək deyil, olsa-olsa, başlanğıc mərhələdir.**

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı – UNESCO bütün dünyada bəşəriyyət üçün müstəsna dəyər hesab edilən mədəni və təbii irsin müəyyən edilməsini, qorunmasını və mühafizəsini təşviq etməyə çalışır. Bu, 1972-ci ildə qəbul edilmiş Ümumdünya Mədəni və Təbii İrsin Mühafizəsi haqqında Konvensiya adlanan beynəlxalq müqavilədə öz əksini tapıb. O vaxtdan bəri 196 dövlət konvensiyanı ratifikasiya edərək onu ən geniş tanınan beynəlxalq müqavilələrdən birinə və dünyanın ən məşhur mədəni proqramına çevirib. Ümumdünya İrs Konsepsiyasını müstəsna edən onun universal tətbiqidir. Ümumdünya irsi obyektləri yerləşdiyi ərazidən asılı olmayaraq, bütün dünya xalqlarına məxsusdur.

Bugünə olan məlumata görə, 168 ölkədə cəmi 1223 Ümumdünya İrs obyekti (952 mədəni, 231 təbii və 40 qarışıq mədəni və təbii obyekt) mövcuddur. Ümumdünya mədəni irs siyahısına İtaliya 60 seçilmiş ərazi sayı ilə liderlik edir. Siyahıda 59 mədəni irs abidəsi ilə Çin 2-ci, 54 mədəni irs nümunəsi ilə Almaniya 3-cü yeri tutur.

Siyahıya daxil olan abidələr gələcək nəsillər üçün praktiki mühafizə üçün nəzərdə tutulub və UNESCO tərəfindən qorunan zonalar kimi müəyyən olunub. Ümumdünya Mədəni İrs siyahısı BMT-nin Baş Assambleyası tərəfindənvə seçilən 21 ölkənin beynəlxalq ekspertlərinin rəyləri ilə təsdiq edilir.

Ümumdünya Maddi-Mədəni İrs siyahısına düşmək ilk növbədə namizədlik prosesindən başlanır və prosedur ardıcıllıqla davam edir. Seçim üçün 10 meyar tələb olunur. Ölkə ilkin siyahıya (tentative list) daxil edilməyən abidə və ya mədəni irs nümunəsini seçimə təqdim edə bilməz.

Qeyd edək ki, bugünədək Azərbaycan tərəfindən namizədlikləri təqdim edilən və ilkin siyahıya alınan obyektlərin sayı 12-dir. Onlardan ikisi 2024-cü ildə təqdim olunub: qədim Qəbələ şəhəri ilə Gəmiqaya və Göy-göl Tarixi-Mədəni və Təbiət Kompleksi. İlkin siyahıya alınmaq üçün namizədlikləri irəli sürülən bu iki maddi-mədəni irs nümunəsi artıq ilkin siyahıya salınıb.

Bugünədək Azərbaycanın UNESCO-nun ümumdünya maddi-mədəni irs siyahısına düşən abidələri İçərişəhər Tarixi-Memarlıq Qoruğu, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, Şəki Xan Sarayı və Şəkinin tarixi mərkəzi, Hirkan Dövlət Təbiət Yasaqlığı, “Xınalıq və Köç Yolu” mədəni landşaftıdır. Amma əvvəlki illərdə ilkin siyahıya alınan bir sıra abidələr isə hələ də Ümumdünya Maddi-Mədəni İrs Siyahısına düşə bilməyib. Bunlar Azıx və Tağlar mağarası, Xudafərin körpüsü, Xəzər sahili müdafiə konstruksiyaları, Suşa tarix-memarlıq qoruğu, Ordubad qədim tarixi-memarlıq şəhəri kimi, Suraxanı Atəşgahı, Naxçıvan mavzoleyləri – Qarabağlar, Gülüstan, Möminə Xatun, Yusif İbn Kuseyr, “Binəqədi” 4-cü Dövr Fauna və Flora yatağı, “Lökbatan” Palçıq vulkanı, “Bakı dağ silsiləsi”dir. Bu sahədə Mədəniyyət Nazirliyinin üzərinə mühüm vəzifələr düşür. 1998-ci ildən bugünədək ilkin siyahıya alınmış abidələrin təsdiqi üçün məlumatların təzələnməsi və qarşılıqlı əməkdaşlıq proseslərinin intensivləşdirilməsi təqdim olunan nümunələrin daha tez təsdiq olunmuş siyahıya düşməsinə kömək edə bilər.



2025-ci ildə ilkin siyahıya düşən Gəmiqaya və Göy-göl Tarix-Mədəni və Təbiət Kompleksi Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda, Qapıcıq dağının yamaclarında yerləşir. Keçən əsrin 60-cı illərinin sonlarından başlayaraq Gəmiqayada müxtəlif mərhələlərdə tədqiqat işləri aparılıb. İlk geniş kompleks araşdırmalar ulu öndər Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə 2001–2003-cü illərdə reallaşıb. Ərazidə 1500-ə qədər qayaüstü təsvir qeydə alınıb. Sonrakı dövrdə Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində bütün ölkədə, eyni zamanda Naxçıvanda ətraflı tədqiqatlar aparılması üçün hərtərəfli şərait yaradılıb, ekspedisiyalar, elmi konfranslar təşkil edilib.

Muxtar Respublika Ali Məclisinin müvafiq sərəncamı ilə bu abidələrin kompleks şəkildə öyrənilməsinə başlanılıb. Gəmiqaya yüksəkliklərinə yol çəkilib, alimlərin orada qalıb işləməsi üçün münasib şərait yaradılıb. Araşdırmalar təkcə Gəmiqayanın deyil, bütövlükdə Naxçıvan bölgəsinin arxeoloji abidələrinin tədqiqatları tarixində mühüm irəliləyiş, böyük dönüş nöqtəsi olub. Burada ilk dəfə arxeoloji qazıntı işləri aparılıb, folklor materialları toplanılıb, coğrafiya və botanika üzrə tədqiqatlara başlanılıb.

2020-ci ildə Naxçıvanda “Gəmiqaya qayaüstü rəsmləri” adlı sanballı kitabın nəşri abidənin tədqiqi tarixində mühüm elmi hadisə idi. Azərbaycan, ingilis və rus dillərində çap edilmiş toplunun müəllifi sənətşünas Nizami Alıyev, elmi redaktoru AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevdir. 576 səhifəlik kitabda Gəmiqayada 2016-cı ilin avqust-sentyabr aylarına dair ekspedisiyanın nəticələri yer alıb. 2040 daş üzərində qeydə alınmış 7422 təsvir verilib ki, bunların da əksəri ilk dəfə nəşr olunanlardır.

Məhz 3 dildə nəşr olunan bu kitab tarixi-mədəni kompleksin ekspertlər tərəfindən dəyərləndirilməsi və təsdiqini tezləşdirə bilər. Görüləcək işlər üçün bir il zamanımız var. Əminik ki, bu sahədəki işlərin tezliyi abidələrimizin UNESCO tərəfindən Maddi-Mədəni İrs nümunəsi kimi təsdiq olunmasına öz töhfəsini verəcək.

***Surə SEYİD,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

**Naxçıvan**

# Fransanın “Urartunu erməniləşdirmək” layihəsi

*Bu avantüra Qafqazda xristian istinadgahı yaratmağa xidmət edib*



İrəvan yaxınlığında Qanlı təpədən aşkar edilmiş Urartu mixiyazılı kitabəsi



Yuxarıda: *Sağda* – Gümüş medalyon üzərində taxtında oturmuş tanrı Haldi və qarşısında keçi qurbanı ilə dayanmış arvadı ilahə Arubani *(Ermənistan Milli Tarix Muzeyi)*; *Solda* – Qadın gümüş zinət əşyası üzərində tanrı Haldi və qarşısında keçi qurbanı ilə dayanmış arvadı ilahə Arubani *(Berlin muzeyi)*; Aşağıda – Gümüş zinət əşyası üzərində olan təsvirin qrafik variantı.

**XIX əsrin birinci yarısından başlayaraq Avropa dövlətlərinin, xüsusilə də Fransanın Qədim Şərq xalqlarının mədəni irsinə diqqəti artıb. Bu, yalnız elmi maraq deyildi, həm də siyasi məqsədlər güdürdü. Fransa tərəfindən Osmanlı imperiyasının şərq torpaqlarında həyata keçirilən tədqiqat layihələri, o cümlədən “Urartu layihəsi” bölgədə yaşayan etnik qruplar üçün süni şəkildə yeni “qədim tarix” konsepsiyalarının formalaşdırılmasına xidmət edirdi. Bu kontekstdə Urartu mədəniyyəti və onun əsas şəhərlərindən biri olan İrbuni (bugünkü Yerevan yaxınlığında yerləşən) ətrafında aparılan tədqiqatlar əhəmiyyət daşıyır.**

**AMEA Tarix və Etnologiya İnstitutunun böyük elmi işçisi Ramin Əlizadə XQ-yə bildirdi ki, Urartu dövləti eramızdan əvvəl IX əsrin ortalarında Van gölü hövzəsində meydana gəlib:**

– Mənbələrdən məlum olur ki, bu dövlətin hökmdarı I Argişti e.ə. 782-ci ildə Orta Araz hövzəsində yerləşən Aza xalqının ölkəsində İrbuni şəhər-qalasını inşa etdirib. Bu abidənin qalıqları müasir Ermənistanın paytaxtı Yerevanın cənub-şərqindəki təpə üzərində yerləşir. XIX əsr mənbələrində bu ərazi yerli azərbaycanlılar tərəfindən “Qanlı təpə” və ya “Qanlı qala” adlandırılıb.

Fransanın Şərqi Anadoluda arxeoloji tədqiqatlara başlaması isə yalnız elmi maraqla izah olunmur. 1827-ci ildə Fransa Xarici İşlər Nazirliyinin göstərişi ilə bölgəyə göndərilən Fridrix Eduard Şultsun əsas vəzifələrindən biri Van gölü ətrafındakı “qədim erməni şəhərlərinin” izlərini tapmaq idi. O, bir çox Urartu abidələrini, o cümlədən Van qalasındakı Urartu məzarlarını qeydiyyata alıb və 42 ədəd mixiyazılı kitabənin üzünü köçürərək Parisə göndərib. Lakin yazıların dilini bilmədiyi üçün onları tərcümə edə bilməyib. İlk dəfə Urartu mədəniyyətinə aid tapıntıların Aşşur mənbələrində bəhs edilən urartululara aid olduğu fikrini 1847–1870-ci illərdə Luvr Muzeyinin Antik dövr şöbəsinin rəhbəri olmuş fransız arxeoloqu Adrian Prevost de Longperier irəli sürüb.

Beləliklə, XIX əsrin 20-ci illərində Osmanlı dövlətinin şərq torpaqlarında ilk Urartu abidələrinin öyrənilməsinə dair təşəbbüs Fransa tərəfindən göstərilib. Fransa bu vasitə ilə Osmanlı torpaqlarında yaşayan etnik azlıqlara, xüsusilə ermənilərə aid qədim tarix hazırlamağa cəhd edib. Bu fakt göstərir ki, həmin dövrdə elmi araşdırmalar siyasi və ideoloji məqsədlərə xidmət edib. Fransanın “Urartu layihəsi” erməni xalqı içərisində şovinist meyillərin, antitürk ünsürlərinin və terrorizmin inkişafına zəmin yaradıb.

**Müsahibimiz əlavə etdi ki, Urartu mixiyazılı mənbələrində İrbuni şəhəri konkret olaraq Aza xalqının ölkəsində salınmış qədim qala-şəhər kimi təqdim olunur:**

– Aza çayı (bugünkü “Azat” çayı) və Göyçə gölü ətrafı bu toponimlə bağlıdır. Hazırda Azərbaycanın Naxçıvan bölgəsində yerləşən Aza kəndi də bu tarixi toponimin davamı kimi qiymətləndirilir. Lakin erməni tədqiqatçılar, o cümlədən N.V.Arutyunyan, bu adları təhrif edərək “Uaza” və ya “Vaza” formasında oxumağa cəhd göstərib və Urartu irsini erməni tarixi ilə əlaqələndirmək niyyətində olub.

Eyni zamanda, İrbuni adı da məqsədyönlü şəkildə “Erebuni” formasına salınıb. Bu təhriflər nəticəsində Yerevanın adının guya Urartu mənşəli olduğu iddia edilir. Halbuki müstəqil tədqiqatçılar, məsələn, G.A.Melikişvili və M.V.Nikolski bu adı düzgün şəkildə “İrbuni” və ya “İrpuni” kimi oxuyub və onun tarixini yalnız Urartu dövrü ilə məhdudlaşdırıb. Nikolski həmçinin bölgədə saxta mixiyazılı kitabələrin yerləşdirilməsi faktlarını araşdıraraq, erməni məskunlarının saxta tarix yaratmaq cəhdlərini ifşa edib. (“Фальшивая клинообразная надпись из Эриванской губернии”, Археологические Известия и Заметки, № 4, Москва, 1896). Bu saxta kitabələrdən biri hazırda Gürcüstan Tarix muzeyində saxlanılır. Həmin kitabə yaşayış evlərindən birinin ana divarına bərkidilmiş vəziyyətdə aşkar olunub.

**Tədqiqatçı vurğuladı ki, Urartu irsinə dair ən geniş və əhəmiyyətli mənbə Horhor kitabəsidir. Bu kitabədə I Argişti tərəfindən İrbuni şəhərinin qurulması, məqsədləri və bu əraziyə yerləşdirilən əhali haqqında ətraflı məlumat verilir:**

– Yazılarda qeyd olunur ki, İrbuni şəhəri boş ərazidə salınıb və buraya müxtəlif bölgələrdən gətirilmiş 6 min 600 nəfərlik hərbi qüvvə yerləşdirilib. Bu fakt Urartu şəhərinin etnik tərkibinin sonrakı dövrlərdə məqsədyönlü şəkildə dəyişdirildiyini göstərir. İrəvan şəhəri XIX əsrin sonlarınadək bu adla tanınmış və yerli əhali tərəfindən “İrəvan” kimi adlandırılıb. Yalnız 1918-ci ildən sonra bu ad dəyişdirilərək erməniləşdirilib, 1936-cı ildə isə SSRİ rəhbərliyinin qərarı ilə rəsmi şəkildə “Yerevan” formasını alıb. Bu dəyişikliklər Urartu irsinin siyasi kontekstdə mənimsənilməsinin birbaşa nəticəsi kimi qiymətləndirilə bilər.

Ramin Əlizadənin sözlərinə görə, Urartu irsi, xüsusilə də İrbuni şəhər-qalası ilə bağlı aparılan araşdırmalar göstərir ki, bu mədəniyyət Qafqaz və Şərqi Anadoluda tarixi gerçəkliklərin təhrif olunması meyillərinin mərkəzində dayanır. XIX əsrdə Fransa və digər Avropa dövlətləri tərəfindən həyata keçirilən “elmi ekspedisiyalar” yalnız tədqiqat məqsədi daşımamış, bölgədəki etnoslar üçün siyasi baxımdan əlverişli “qədim tarix” formalaşdırmağa yönəlibdir. İrbuni adının “Erebuni” formasında təqdim olunması, Aza toponiminin saxtalaşdırılması və bölgədə saxta kitabələrin yerləşdirilməsi bu siyasətin konkret təzahür formalarıdır. Müasir elmi yanaşmanın əsas vəzifəsi bu cür təhrifləri ifşa etmək və Urartu irsinin gerçək tarixi kontekstini ortaya çıxarmaq olmalıdır.

İrbuni toponiminin mənşəyi uzun illərdir müxtəlif versiyalarla izah edilməyə çalışılsa da, arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi-mədəniyyət nümunələri bu adın mənşəyi ilə bağlı daha dolğun və elmi əsaslandırılmış yanaşmalar təqdim edir. Urartu memarlığına xas olan xüsusiyyətlərdən biri də məbəd divarlarında tanrı və tanrıça təsvirləridir. İrbuni şəhərində aparılan qazıntılar zamanı belə təsvirlərdən biri — Urartunun baş tanrısı Haldinin şir üzərində təsviri — tapılmışdır. Tanrı Haldinin həyat yoldaşı isə Urartu panteonunun mühüm qadın ilahəsi olan Arubani hesab olunur.

Teyşebaini (Qırmızı təpə) şəhərindən çıxarılan Arubaninin təsviri olan gümüş medalyon, Van gölü hövzəsindəki Torpaqqaladan (Rusahinili) tapılmış qızıl medalyon, eləcə də Ermənistan Dövlət Tarix Muzeyində saxlanılan oturmuş formada tunc Arubani heykəli göstərir ki, İrbuni toponimi bu qadın ilahənin adı ilə bağlı ola bilər. Buradan belə nəticəyə gəlmək mümkündür ki, “İrbuni” toponimi “Arubani” teonimi ilə eyni kökə sahib olmuş və Urartu dini dünyagörüşü ilə bağlı olaraq formalaşıb.

**R.Əlizadə daha sonra dedi ki, Urartu hökmdarlarının Orta Araz hövzəsində və Göyçə gölü ətrafında inşa etdikləri qala və şəhərlər Assuriya kimi hərbi-siyasi təhdidlərdən uzaqda yerləşdiyindən bu bölgədəki abidələr daha uzunömürlü olub:**

– Lakin eramızdan əvvəl VII əsrin əvvəllərində Urartu dövlətinə son qoyan qüvvələr şimaldan gələn kimmerlər və iskitlər olub. İrəvanın cənub-qərbində yerləşən Teyşebaini şəhər-qalasında aparılan arxeoloji qazıntılar zamanı iskit mədəniyyətinə aid ox ucluqları, at ləvazimatları və müxtəlif silahların tapılması bu süqutun maddi sübutu kimi dəyərləndirilir.

1963-cü ildə İrəvanın cənub-şərqində, Gərni (indiki “Garni”) yaxınlığında, I Argiştinin hakimiyyəti dövrünə aid Urartu kitabəsi aşkar olunub. Bu kitabədə ərazi Giarniani ölkəsi kimi qeyd olunur və burada hakimiyyətin Siluni adlı bir hökmdara məxsus olduğu bildirilir. “Giarniani” toponiminin müasir “Gərni” formasında qorunması, qədim coğrafi adların bölgənin azərbaycanlı yerli əhalisi tərəfindən uzun müddət saxlandığını göstərən mühüm sübutlardan biridir.

**Alimin sözlərinə görə, Urartu xalqının etnik və mədəni mənsubiyyəti uzun müddət elmi müzakirə mövzusu olub:**

– Tanınmış türk arxeoloqu Afif Erzen öz tədqiqatlarında Urartu dilinin semitik və hind-avropa dillərindən fərqli olaraq Asiatik bir dil ailəsinə, xüsusilə Hurri dilinə yaxın olduğunu qeyd edibr. Bu nəticə yalnız arxeoloji materiallara deyil, həm də Assur mənbələri və dilçilik analizlərinə əsaslanır. Erzen həmçinin Urartu və Hurri tayfalarının Kür-Araz mədəniyyətinin davamçıları olduğunu vurğulaytıb.

Alman şərqşünası və diplomat Andreas David Mordtmann isə hələ XIX əsrdə yazdığı elmi əsərlərdə Urartu və erməni dilləri arasında heç bir qohumluğun mövcud olmadığını sübut edib. O, Urartu toponimlərini Azərbaycan türkcəsindəki yer adları ilə müqayisə edərək bu mirasın bölgənin türk-müsəlman əhalisinə daha yaxın olduğunu göstərib. Mordtmann “İskiqulu” və “Açıqqala” (Adçuk Qala) kimi toponimləri buna misal kimi təqdim edir.

Linqvistik baxımdan Urartu dili morfoloji və sintaktik quruluşuna görə aqlütinativ (iltisaqi) sistemə malik olub. Bu xüsusiyyət onu Hurri dili ilə qohumlaşdırır. Əksinə, erməni dili flektiv (çəpli) quruluşdadır və Hind-Avropa dil ailəsinə daxildir. Bu fakt, hər iki xalqın dil mənsubiyyəti baxımından tamam fərqli etnoslara məxsus olduğunu göstərir. Antik yazılı mənbələr də bu fərqliliyi təsdiq edir. Qədim yunan tarixçisi Herodot öz əsərində ermənilərin Friqiyadan gələn köçkünlər olduğunu yazır:

“Ἀρμένιοι δὲ κατά περ Φρύγες ἐσεσάχατο, ἐόντες Φρυγῶν ἄποικοι.”

("Ermənilər friqlər kimi silahlanmışdılar, çünki onlar friqlərin köçkünləridir." – Herodot, Tarix, VII.73)

Bu məlumat sübut edir ki, ermənilər Urartu dövləti mövcud olduğu dövrdə bu ərazidə yaşamayıb, bölgəyə sonradan gəliblər. Bütün bu faktlar əsasında belə nəticəyə gəlmək olar ki, Urartu mədəniyyəti nə etnik, nə də dil baxımından müasir erməni xalqı ilə əlaqəli deyil. Urartulular Hurri mənşəli, Kür-Araz mədəniyyətinin varisləri olmuşlar və onların mədəniyyəti coğrafi baxımdan da indiki Ermənistanla məhdudlaşmır, daha geniş şəkildə Qafqaz və Azərbaycan torpaqlarını əhatə edirdi. Ermənilərin Urartu irsini özününküləşdirməyə çalışması və bu qədim mədəniyyəti “erməni sivilizasiyası” kimi təqdim etməsi isə yalnız siyasi motivlərlə izah oluna bilər. Tarixi və dilçilik dəlilləri göstərir ki, müasir Ermənistan Respublikasının yerləşdiyi ərazidə Urartu abidələri mövcud olsa da, bu abidələrin bugünkü erməni xalqı ilə nə etnik, nə də mədəni bağlılığı yoxdur.

**Tarixçi alim sonda bildirdi:**

– Urartu mədəniyyəti bütövlükdə bəşəriyyətə məxsus olan qədim sivilizasiya nümunəsidir və bu irs üzərində siyasi, etnik və ideoloji iddiaların qurulması, tarix elminin siyasiləşdirilməsi və şovinist məqsədlərə xidmət etməsi yolverilməzdir. Tarix elmi obyektiv yanaşmanı, mənbələrə əsaslanan təhlili və elmi dürüstlüyü tələb edir. Bu prinsiplərə sadiq qalmaq, Urartu irsini də məhz bu şəkildə dəyərləndirmək ən doğru yanaşmadır.

***Söhbəti hazırladı:***
***Ə.PÜNHAN***

# Özbək rektor BDU-da



**Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin rektoru Şerzodxon Kudratxoca ilə görüşüb.**

BDU-dan mətbuata bildirilib ki, görüşdə iki qardaş ölkənin universitetləri arasında mövcud əlaqələrin inkişaf perspektivləri, xüsusilə jurnalistika və media sahəsində qarşılıqlı tədris və tədqiqat imkanları müzakirə olunub. Əsas diqqət ikili diplom proqramının işə salınması və bu istiqamətdə praktiki addımların müəyyənləşdirilməsinə yönəlib.

Rektorlar universitetlər arasında tələbə və müəllim mübadiləsinin təşkili, birgə layihə və tədbirlərin keçirilməsi, media sahəsində ixtisaslaşmış kadr hazırlığının gücləndirilməsi barədə razılığa gəliblər.

***XQ***

Beynəlxalq həyat

# Türkiyə hipersəs raket ölkəsi oldu

**2025-ci il iyulun 22-də İstanbulda keçirilən IDEF 2025 Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində Türkiyənin ilk hipersəs ballistik raketi – TAYFUN BLOK-4 ictimaiyyətə təqdim olunub. Yeni silah sistemi ROKETSAN şirkəti tərəfindən hazırlanıb və bu yenilik Ankara üçün müdafiə texnologiyasında mühüm sıçrayış kimi qiymətləndirilir.**




TAYFUN BLOK-4-ün təqdimatı ilə Türkiyə hipersəs ballistik raket istehsal edə bilən nadir ölkələr sırasına daxil olub. Dünyanın aparıcı media orqanlarının fikrincə, bu raket sistemi regionda strateji qüvvələr balansına təsir göstərəcək və Türkiyənin müdafiə sənayesinin inkişafında yeni mərhələni simvolizə edəcək.

ROKETSAN-ın məlumatına görə, TAYFUN BLOK-4 raketinin uzunluğu 10 metr, çəkis: 7 200 kiloqram, uçuş məsafəsi bəzi versiyalarda 3 000 kilometrə qədərdir. Raket strateji hərbi obyektlərin, o cümlədən hava hücumundan müdafiə sistemlərinin, komanda mərkəzlərinin və silah anbarlarının yüksək dəqiqliklə məhv edilməsi üçün nəzərdə tutulub. Raketin bəzi versiyalarında hədəfə dəqiqlik 5 metrə qədər qiymətləndirilir. Yüksək dəqiqlik və manevr qabiliyyəti ilə seçilən bu raket NATO standartlarına uyğun şəkildə hazırlanıb və bölgədə hərbi balansı dəyişə biləcək texnoloji sıçrayış hesab olunur.

Türkiyənin bu uğuru dünyada böyük əks-səda doğurub. Məsələn, Polşanın “Defense Industry Europe” portalı yazır: “TAYFUN-un təqdimatı texnoloji imkanlarına və Şərqi Aralıq dənizində güc balansına mümkün təsirinə görə ciddi diqqət cəlb edəcək”.

İsrailin “Israel Defense” nəşri vurğulayır ki, bu raket Türkiyənin strateji imkanlarının inkişafında ciddi sıçrayışdır: “Gələcək versiyalarda uçuş məsafəsi 1000 kilometri keçəcək”.

Albaniyanın A2CNN News isə yazır ki, TAYFUN-un hipersəs versiyası – bu silah yüksək sürət və manevr qabiliyyəti ilə fərqlənir.

Hindistanın NEWS18 platformasına görə, TAYFUN BLOK-4 – “Türkiyənin hipersəs texnologiyalarına keçidinin simvoludur”.

Yunanıstanın Geo Stratigika portalı isə təqdimatı belə şərh edir: “Türkiyə yeni nəsil ballistik raketlərlə regionda güc balansını dəyişmək istəyir. Yunanıstan nə edir?”

Yunanıstanın Pentapostagma nəşri qeyd edir ki, “TAYFUN BLOK-4 Türkiyənin ‘uzun qolu’dur – bu raket Egey və Aralıq dənizi bölgələrində üstünlük gətirə bilər”.

CNN Türk isə raketi belə dəyərləndirib: “Bu, milli müdafiə sənayesində tarixi gündür. TAYFUN BLOK-4 hipersəs sürəti və 7200 kq ağırlığı ilə döyüş meydanında öz sinfinin ən güclü nümayəndəsidir”.




Rusiyanın RBK agentliyi də xəbərə yer ayırıb: “Yeni raket müxtəlif tipli strateji hədəfləri yüksək dəqiqliklə vurmaq imkanına malikdir. Bu isə Türkiyənin hərbi imkanlarını yeni səviyyəyə çıxarır.”

Beləliklə, TAYFUN BLOK-4 istehsalı təkcə texnoloji sıçrayış deyil, həm də qardaş ölkənin geosiyasi ambisiyalarının açıq göstəricisidir. Mütəxəssislərin sözlərinə görə, bu raket regionda yeni güc balansının yaranması ehtimalını reallığa çevrilir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 151 (30845) 24 iyul 2025-ci il, cümə axşamı

## İDMAN

### Kayak və kanoeçilərimiz Portuqaliyada



**Azərbaycanın kayak və kanoeçiləri Dünya çempionatında iştirak etmək üçün Portuqaliyaya yola düşüblər. Montemor-o-Velyo şəhərində gənclər və 23 yaşa qədər kayak və kanoeçilər arasında keçiriləcək mundialda ölkəmizi 1 qadın, 2 kişi olmaqla, ümumilikdə 3 idmançı təmsil edəcək.**

Kanoedə Tatyana Smilovenko medal uğrunda mübarizə aparacaq. Kayak üzrə isə Amil Ramazanov və Əlimurad Hacızadə fəxri kürsüyə qalxmağa çalışacaqlar. Qeyd edək ki, yarış bu gün başlayır və iyulun 27-dək davam edəcək.

### Şahmatçılarımız Batumidə yarışacaqlar

**Azərbaycan Şahmat Federasiyasının (AŞF) İcraiyyə Komitəsi onlayn toplantıda Gürcüstanın Batumi şəhərində keçiriləcək Avropa çempionatında iştirak edəcək milli komandaların heyətini təsdiqləyib.**



Kişi şahmatçılardan ibarət komandanın heyətinə Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Məhəmməd Muradlı, Aydın Süleymanlı və Eltac Səfərli cəlb edilib. Komandanın kapitanı Teymur Rəcəbov olacaq.

Qadın şahmatçılardan ibarət milliyə Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Gülnar Məmmədova, Xanım Balacayeva və Ayan Allahverdiyeva dəvət olunub. İlahə Qədimova kapitan olaraq, Nicat Abasov isə məşqçi kimi təsdiqlənib.

Şahmatçıların lövhələr üzrə mövqeyi yarış ərəfəsində açıqlanacaq.

Qeyd edək ki, qitə çempionatı oktyabrın 5-də start götürəcək.

### Paralimpiaçı Avropa çempionu məşqçi oldu




**İkiqat Avropa çempionu, Dünya çempionatının mükafatçısı və Yay Paralimpiya Oyunlarının iştirakçısı, parataekvondoçu Əbülfəz Abuzərli idmançı karyerasını bitirərək məşqçiliyə başlayıb. Bu barədə mətbuata Milli Paralimpiya Komitəsnin mətbuat xidmətindən məlumat verilib.**

33 yaşlı sabiq paralimpiyaçı hazırda milli komandanın baş məşqçisi Fərid Tağızadəyə köməkçi qismində Avropa Gənclər Paralimpiya Oyunlarında iştirak etmək üçün İstanbuldadır.

**M.HACIXANLI**
**XQ**

*✓ Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Azərbaycan Bələdiyyə İşçiləri Həmkarlar İttifaqı Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqına qoşulduğunu elan edir.*

*✓ 2024-cü ildə Azərbaycan Universiteti tərəfindən Təhməzli Təranə Abdulla qızının adına verilmiş maqistr vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

## Taleyin təzadları

# Qönçəgül



**Türkmən qızı Qönçəgül xanım bizim kollektivdə hamıdan yaşlı və hamıya doğma idi. Allah ona uca boy-buxun, yaraşıqlı qədd-qamət vermişdi. Yalan danışmağı sevməzdi. Şax yeridiyi kimi, sözü də üzə şax deyən ipək xasiyyətli xanım idi. Onun gülümsəyən gözlərində həyata nikbin baxışı, insanlara sonsuz məhəbbəti ülvi duyğulardan keçirdi.**

O, tənha yaşasa da, Tanrının ədalətinə, mərhəmətinə şükür edirdi. Qadın təkliyinin tənəsi ürəyə yük olur həmişə. Üstəlik abırlı, ismətli qadınların tənhalığı daha çətindir. Qadın tənhalığı həmişə mənəvi iztirablarla müşayiət olunur. Amma könlünü tənhalığa dustaq edən Qönçəgül xanımın isti ağuşuna sığındığı, təsəlli dolu bir dünyası, illərdən bəri çalışdığı, onu təklənməyə qoymayan doğma kollektivi var idi.

Bakı şəhərində, sadə neftçi ailəsində doğulmuşdu. Atasının qazandığı halal çörəklə böyümüşdü. Onun danışığında dilimizin şəhd-şirəsi, şirinliyi, kövrəkliyi və ürəyəyatımlığı vardı. O, idarəmizin kadrlar şöbəsinin rəisi idi. Vəzifəsinin məsuliyyətini dərindən dərk edən təcrübəli kadr idi. Onu həmişə idarənin dəhlizində tələsirmiş kimi addımlayan görürdüm. Bu da xarakterində illərdən bəri məsuliyyət hissini atrıran bir keyfiyyət kimi vərdişə çevrilmişdi.

Kollektivdə müxtəlif xarakterli insanlarla Qönçəgül xanımın sözü-söhbəti yaxşı tuturdu. Onu çox mehriban və dərin sevinc hissi ilə qarşılayırdılar. Əhatəsindəki işçilər də onun xətrini qibtəediləcək qədər istəyirdi. Hətta idarənin cavan rəisi ona "anam" deyirdi.

Onun 65 illik yubileyi idarəmizdə təntənəli şəkildə qeyd edildi. İdarənin rəisi önündə baş əydi. Yenə də "sən bizim anamızsan, başımızın tacısan", – dedi. Bir sözlə, onu əvəzolunmaz kadr kimi kollektivə təqdim etdi. Pensiya yaşına çatmasına baxmayaraq, istisna hal kimi, kollektivin qarşısında onun əmək müqaviləsinin bir il artırılması haqqında rəhbərliyin əmrini oxudu.

Amma və lakin!!! Kimlərin kimliyi həmişə sonda bilinir. Gəlinlik dövrü xanım anaların ömrünün gül-çiçək fəslidir. Qadınları dünyaya bağlayan analıq səadəti, övlad məhəbbəti qismət olmamışdı Qönçəgül xanıma. Ona görə də kollektivdə çalışan gənclərin hamısına ana gözü ilə baxırdı. Özünün də atalı-analı günlərinin bəxtəvər uşaqlıq illəri Bakının neftçilər yaşayan ətraf kəndlərindən birində keçmişdi. Atası əfsanəvi "Neft daşları"nda işləyirdi. O, həyat yoldaşı ilə ötən əsrdə, 40-cı illərin sonlarında Aşqabad zəlzələsindən sonra Bakıya köçmüşdü.

Ata-anası dünyasını dəyişəndən sonra Qönçəgül xanım doğma Bakının qoynundan uzağa getmədi. O, deyirdi:

– Mən Bakıda doğulmuşam. Azərbaycandan qıraqda yaşaya bilmərəm. Düzdür, doğmalarım, qohumlarım burada yaşamırlar. Amma bu şəhərdə mənə qohumlarım kimi əziz olan çox mehriban, canıyanan qonşularım var.

Qönçəgül xanım mənzilindəki zərif güllərin rəngarəng çiçəklərindən elə məlahətli və təravətli bir dillə söhbət açırdı ki... Könlünü güllərə verərək, tənha yaşadığı mənzilində elə həmsöhbəti də, həmdəmi də güllər, çiçəklər idi. Sanki o qərib tənhalığın təsəlli yeri olan çiçəklərin zərifliyi hopmuşdu Qonçəgül xanımın təbiətinə.

O, həm peşəkarlığı, həm də yüksək insani keyfiyyətlərinə görə, nəinki çalışdığı kollektivdə, ümumiyyətlə, neft sənayesində böyük nüfuz qazanmışdı. Amma heç ağlımıza gəlməzdi ki, Qönçəgül xanımın nüfuzu kimlərinsə yerini dar edəcək. Könülgöynədən alın yazısı ilə barışması Qönçəgül xanımın necə bir ürək sahibi olduğundan xəbər verirdi. Ona görə də kimlərinsə onun nüfuzuna xələl gətirəcəyini düşünmürdü.

... Bir gün idarəyə baş ofisdən yoxlama gəldi. "Kadrların seçilib yerləşdirilməsində tələb olunan prosedurdan kənara çıxılması" faktlarına görə, Qönçəgül xanıma "töhmət" elan olundu. O, bu töhmətlə qətiyyən razılaşmadı. Dedi ki, adım töhmətli, gözüm kölgəli olub işləməkdənsə, ərizəmi yazıb işdən çıxaram. Dedi və sözünün üstündə durdu. Çünki o qanun pozuntusundan Qönçəgül xanımın qətiyyən xəbəri yox idi. O, xəstə olanda idarə rəisi özünün vecsiz tələbə yoldaşını yüksək vəzifəyə təyin etmişdi. Bilirdi ki, Qönçəgül xanım bu təyinatın əleyhinə olacaq. Bu təyinatı rəis öz qohumu olan müavini vasitəsilə rəsmləşdirmişdi.

Qönçəgül xanım ona "anam" deyən idarə rəisini satmadı. Kişi qızı kimi, ərizəsini yazıb vəzifəsindən istefa verdi.

...O, kollektivdən ayrılıb gedəndə idarə rəisinin xadimə vasitəsilə ona göndərdiyi gül buketini götürmədi. Xadimə qadın ona:

– Qönçəgül xanım, gülləriniz qaldı.

Xadimə bu sözləri elə kövrək səslə dedi ki, Qönçəgül xanım geri qayıdıb gülləri xadiməyə verərək dedi:

– Mən təkcə bu gülləri qoyub getmirəm, ürəyimi də burda qoyub gedirəm. Qoy, bu güllər sənin olsun. Mən bu idarədə gül şövqünə öyrəşməmişəm.

Sonra da qucaqlaşıb ağladılar.

Qönçəgül xanımın arxasınca xadimə göz yaşları axıtdı:

– İdarənin rəisi ona "anam" deyirdi. Sonda anasını belə ağlatdı. Həmin gündən Qönçəgül xanımın pərişanlığı ürəyimi ağrıtdı. Sanki qeybdən bir səs gəldi. "Bu işdə günahsız bircə adam varsa, o da sənsən, Qönçəgül xanım!.."

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

## "Qarabağda Zəfər rəqsi"




**Laçında gənclər və uşaqlar arasında "Qarabağda Zəfər rəqsi" adlı festival və yarış keçiriləcək. Bakı Abadlıq Xidmətinin mədəni layihəsinin ünvanı Laçın seyrangahı olacaq.**

İyulun 27-də təşkil olunacaq festival-yarışda Bakı, Naxçıvan, Şəki, İmişli, Mingəçevir, Gəncə, Göyçay, Ağcabədi, Xudat və Sumqayıt şəhərlərindən gələcək rəqs kollektivləri də daxil olmaqla, 300-ə qədər qonağın iştirak edəcəyi gözlənilir. Tədbirə dəvət olunan peşəkarlar öz sahələrindəki ən yaxşıları seçəcəklər.

Kollektivlərin təqdim etdiyi rəqslər, "Cəngi" Dövlət Rəqs Ansamblının baş xoreoqrafi Fərhad Əliyev, rəqqas, aktyor Xəyal Kərimbəyli, Azərbaycan "Cheerleading" Federasiyasının məşqçi hakimi Ülviyyə Əlizadədən ibarət münsiflər heyəti tərəfindən 10 ballıq sistem üzrə qiymətləndiriləcək.

"Müasir İncəsənət və Rəqs Qrupları" MMC, Bakı Abadlıq Xidməti, "Yurd" rəsm qalereyası və "Dekor Qaleri Bakı"nın təşkilatçılığı ilə keçiriləcək tədbirə hər bir şəhər sakini, həmçinin həftə sonunu Laçında keçirən hər bir turist dəvətlidir.

***XQ***

### "Sumqayıt Avtomotoservis" ASC səhmdarlarının nəzərinə!

6 sentyabr 2025-ci il saat 15.00-da "Sumqayıt Avtomotoservis" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Sumqayıt şəhəri, Sülh küçəsi 76-cı məhəllədə inzibati binada keçiriləcəkdir.

Səhmdarların ümumi yığıncağının gündəliyi:

1. Səhmdar cəmiyyətinin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi .
2. Cəmiyyətin icra orqanlarının formalaşdırılması.
3.İdarə heyəti sədrinin seçilməsi.
4.Müşahidə şurasının seçilməsi.
5.Təftiş komissiyasının seçilməsi.
6. Digər məsələlər.

Əlaqə üçün telefon nömrələri: (055) 230 22 26; (050) 361 50 04.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

***İdarə heyəti***

## Hava

# İsti yay günləri davam edir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 23-27, gündüz 34-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi 754 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-28, gündüz 36-41, dağlarda gecə 13-18, gündüz 25-30 dərəcə isti olacağı gözlənilir.

***XQ***



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3323
SİFARİŞ 1511
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00